www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet 26 sentyabr 2014-cü il Cümə   № 240 (5949)   Qiyməti 40 qəpik

**Xəbər**

## Kürdəxanıda dəhşətli qətl: əmisi oğlunu baltaladı

yazısı səh.15-də

**Gündəm**



yazısı səh.3-də

### Arif Hacılı İsa Qəmbərin namizədini bilir

"Buna məndə cavab var..."

yazısı səh.5-də

### Ölümdən qurtulan dissident "Yeni Müsavat"a danışdı

"Beşmarmaqla başımdan vurdular"

yazısı səh.10-da

### Yas məclislərinə ölkə boyu müdaxilələr edilir

Çadırlara total nəzarət var

yazısı səh.7-də

### XİN-dən Kəlbəcər əsirləri ilə bağlı açıqlama

yazısı səh.10-da

### Jirinovski Bakıya nəyə gəlib?

LDPR lideri Bayraq meydanına gedəcək, Şəhidlər Xiyabanında olacaq, rusdilli məktəblərə baş çəkəcək

yazısı səh.13-də

### Bakıdakı rus diplomatlar içib dalaşıblar

Onlardan biri digərini balkondan atıb

yazısı səh.2-də

### QHT rəhbərləri Obamanın çıxışından ürəklənib

yazısı səh.9-da

### Müsavat funksionerlərindən Musa Qasımlıya sərt cavab

yazısı səh.4-də

### Cəbhəyə yaxın kəndlərə xüsusi status veriləcək

Prezidentin yeni sərəncamı nələri dəyişəcək?

yazısı səh.3-də

### Leyla Yunusun gözləri tutula bilər

Hüquq müdafiəçisi ilə görüşən vəkil sensasion açıqlamalar verib

yazısı səh.4-də

## Azərbaycanlı oliqarxa dalbadal ağır zərbələr

# "HAFKA"NIN ŞOK MƏHKƏMƏ DOSYESİ MƏTBUATA SIZDIRILDI - İDDİALAR GERÇƏKMİŞ!

İş adamı Hafiz Məmmədov London məhkəməsinə verildi; aldığı ingilis futbol klubunu aldadaraq vəd etdiyi pulu ödəməyən biznesmen külli miqdarda cərimələnə bilər; Fransa klubu isə onu Beynəlxalq Maliyyə Tribunalına verməkdə qərarlıdır




yazısı səh.11-də

## "Əli Kərimli, martın 4-dən bu yana sən nə etmisən?" - Azər Əsgərov

Mülkü dağıdılan şəxs AXCP sədri və funksionerlərinə sərt cavab verdi: "Onların özləri belə anlaşmaya vaxtilə getdiklərinə görə, indi mənim haqqımda deyirlər"

yazısı səh.8-də




### "Tövbə"nin sədri od püskürdü

yazısı səh.7-də



### Partiya sədri Etibar Məmmədovu qorxaq adlandırdı

yazısı səh.6-da



### Sərdar Cəlaloğlu AXCP funksioneri haqda ifşaedici açıqlama verdi

yazısı səh.6-da



# İlham Əliyev Moskva merini qəbul etdi

**Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 25-də Moskva şəhərinin meri Sergey Sobyaninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. APA-nın məlumatına görə, dövlət başçısı Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin dinamik şəkildə uğurla inkişaf etdiyini bildirib.**

Ölkələrimizin həm yüksək səviyyədə, həm də müvafiq strukturlar və nazirliklər səviyyəsində fəal əməkdaşlıq etdiyini deyən prezident İ. Əliyev bu yaxınlarda keçirilən Rusiya-Azərbaycan hökumətlərarası birgə iqtisadi komissiyanın iclasında müzakirə olunan məsələlərin əhəmiyyətini qeyd edib. Moskva şəhəri ilə mövcud olan ənənəvi əlaqələrin önəmini vurğulayan dövlət başçısı son dövrlərdə Rusiya paytaxtında həyata keçirilən geniş yenidənqurma işlərinin böyük maraq doğurduğunu bildirib.

Bakı şəhərində də sürətli inkişaf və abadlıq işlərinin həyata keçirildiyini deyən prezident İ. Əliyev paytaxtlarımız arasında təcrübə mübadiləsinin səmərəli olacağını qeyd edib.

Azərbaycan prezidenti Moskva şəhəri ilə ticarət-iqtisadi əlaqələrə toxunaraq Rusiya paytaxtına göndəriləcək Azərbaycan məhsullarının həcminin daha da artırılacağına əmin olduğunu deyib.

Dövlət başçısı Moskva meri Sergey Sobyaninin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin əlaqələrin daha da inkişaf etdirilməsi və ölkəmizlə daha yaxından tanış olmaq işinə xidmət edəcəyinə ümidvar olduğunu vurğulayıb.

"Həqiqətən Moskva şəhəri ilə Azərbaycan arasında dostluq əlaqələri çoxəsrlik tarixə malikdir və olduqca yaxşı haldır ki, bu əlaqələr bu gün də inkişaf etməkdə davam edir", - deyə S. Sobyanin bildirib.

Ticarət dövriyyəsinin artmasının önəmini vurğulayan Moskva meri qeyd edib ki, Azərbaycandan Rusiya paytaxtına göndərilən ərzaq məhsullarının həcmi üç dəfə artıb və bu həcmin daha da genişləndirilməsi üçün yaxşı imkanlar var. Azərbaycan hökuməti ilə Moskva şəhəri arasında imzalanacaq memorandum və əlavə sazişlərdə iqtisadi əməkdaşlığımızın daha da genişləndirilməsi ilə bağlı konkret məsələlərin əks olunduğunu qeyd edən S. Sobyanin bu sənədləri ticarət, iqtisadi əlaqələrimizin yeni səviyyəyə qalxmasının göstəricisi kimi dəyərləndirib.

TURKSAT CAN ERZİNCAN

AzadliqRadiosuTV (ARTV)
hər cümə: 21:00 - 21:45
«Fərqli xəbərlər»

Peyk: TürkSat 42°, 1c
Kanal: CanErzincan
Tezlik: 11.509
Sürət: 30.000
Pol: H

Bu İnternet TV deyil, əsl televiziyadır!

http://AzadliqRadiosu.az
em@il efir@AzadliqRadiosu.az
facebook /AzadliqRadiosu
YouTube /AzadliqRadiosu
twitter /RadioAzadliq

Qaynar xətt: 012/436-77-41

# Səməd Seyidovun universitetinin cinayət işi məhkəməyə göndərildi

**Dünən Bakı Ağır Cinayətlər Məhkəməsində Azərbaycan Dillər Universitetində aşkarlanmış maliyyə pozuntuları ilə bağlı açılan cinayət işi üzrə məhkəmənin hazırlıq iclası davam etdirilib.**



APA-nın məlumatına görə, hakim Əlövsət Abbasovun sədrliyi ilə keçirilən prosesdə məhkəmə baxışının vaxtı elan edilib. Məhkəmə baxışı oktyabrın 9-na təyin olunub.

Qeyd edək ki, Azərbaycan Hesablama Palatasının 2012-ci il sentyabrın 19-da yaydığı məlumatda bildirilir ki, palatanın son kollegiya iclasında dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən «Təhsil» bölməsi üzrə Azərbaycan Dillər Universitetinə ayrılmış büdcə vəsaitlərinin proqnozlaşdırılması və istifadə olunması üzrə auditin nəticələri müzakirə olunub.

Universitetin məsul şəxsləri tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə hallarına, ciddi maliyyə pozuntularına, çatışmazlıqlara, habelə saxtakarlıq və mənimsəmə hallarına yol verilməklə dövlətə külli miqdarda zərər vurulduğunu nəzərə alaraq kollegiya tərəfindən auditin nəticələri üzrə materialların Baş Prokurorluğa göndərilməsi və bu barədə Milli Məclisə məlumat verilməsi qərara alınıb.

Həmin il sentyabrın 24-də Azərbaycan Respublikası Baş Prokurorluğu da bununla bağlı məlumat yayıb.

Məlumatda bildirilib ki, Azərbaycan Dillər Universitetinin 2007-2012-ci illəri əhatə edən dövrün dövlət büdcəsindən ayrılan büdcə vəsaitlərinin və büdcədənkənar vəsaitlərin istifadə olunması vəziyyətinin yoxlanılmasına dair Hesablama Palatasından daxil olmuş materiallar Baş prokuror yanında Korrupsiyaya qarşı mübarizə idarəsində araşdırılıb.

Müəyyən edilib ki, universitetin maddi məsul şəxsləri tərəfindən təftişlə əhatə olunan dövrdə müəllimlərə qanunsuz olaraq artıq saxlanılmış qruplar üzrə tədris olunmuş dərs saatlarına görə, vəzifə maaşlarına əlavələrin düzgün hesablanmamasına görə, habelə universitetin bir sıra əməkdaşlarına normadan artıq iş tarifləşdirilərək artıq əmək haqqı ödənildiyinə, habelə təhsil müəssisəsinin əməkdaşları olmayan şəxslərin adına açılmış əmək haqqı kartlarına qanunsuz olaraq pul vəsaiti köçürülməklə külli miqdarda dövlət vəsaiti mənimsəmə və israf etmə yolu ilə talanıb.

Bundan başqa, universitetdə müxtəlif tədbirlərin keçirilməsi adı altında müvafiq təsdiqedici sənədlər olmadan kassadan saxta ödəmə cədvəlləri tərtib edilməklə, həmçinin yanacaq xərclərinə görə külli miqdarda dövlət vəsaiti mənimsənilib.

Faktla bağlı başlanmış cinayət işi üzrə prorektor E. Həmidzadə və universitetin daha 4 əməkdaşı təqsirləndirilən şəxs qismində istintaqa cəlb edilib. Mənimsənilən vəsait ödənildiyi üçün təqsirləndirilən şəxslər barəsində həbs qərarı çıxarılmayıb.

Həmin şəxslər Cinayət Məcəlləsinin 179.3.2-ci (mənimsəmə və ya israf etmə), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham edilir.



# Cəmil Ünal və İsa Yaşar Tezəl Bakıya gəldi

**Türkiyədə fəaliyyət göstərən Azərbaycan Kültür Dərnəyinin rəhbərləri Cəmil Ünal və İsa Yaşar Tezəl dünən Bakıya gəliblər.**

Qonaqları hava limanında Müsavat başqanı İsa Qəmbər, AXP sədri Pənah Hüseyn, Müsavat Məslisinin sədri Arzu Səmədbəyli və Müsavat başqanlığına namizəd Arif Hacılı qarşılayıb.

Cəmil Ünal musavat.com-a müsahibəsində bildirib ki, Müsavat Partiyasının sentyabrın 27-də keçiriləcək 8-ci qurultayında iştirak etmək üçün gəliblər: "İnşallah, bu qurultay Azərbaycan üçün Azərbaycanın gələcəyi üçün örnək olacaq. Gesab edirəm ki, siyasətçilər də bu qurultaydan dərs alacaqlar, siyasətin necə olduğunu görəcəklər".

Xatırladaq ki, Cəmil Ünal Müsavat Partiyasının tədbirlərində iştirak etmək üçün vaxtaşırı ölkəmizə gəlir. İsa Yaşar Tezəl isə müxbirimizə deyib ki, o, sonuncu dəfə Bakıda 8 il öncə olub.

Hava limanından hotelə gedən qonaqları daha sonra başqanlığa namizəd Qubad İbadoğlu da ziyarət edib.



# ABŞ öz vətəndaşlarını Türkiyəyə getməməyə çağırdı

**ABŞ hökuməti öz vətəndaşlarına İŞİD terrorçularının mümkün hücumları ilə bağlı Türkiyə səfərlərini təxirə salmağı tövsiyə edib.**

Musavat.com-un məlumatına görə, bu barədə ABŞ-ın Türkiyədəki səfirliyi bəyanat yayıb.

Amerika Birləşmiş Ştatlarının narahatlığı əsassız hesab edilmir. Çünki az öncə ABŞ İŞİD və digər silahlı qruplaşmalara qarşı qətiyyətli addımlar atmağa başlayıb. Bununla bağlı regionda Amerika təbəələrinə qarşı təhlükə də xeyli artıb.

İŞİD-in ABŞ hücumlarına cavab olaraq edam elədiyi günahsız insanlar arasında isə amerikalılar da var.

# Bakıdakı rus diplomatları içib dalaşıblar

## Onlardan biri, digərini balkondan atıb

**Bir neçə gün öncə Bakının Nərimanov rayonunda nədənsə heç bir kriminal hesabata salınmayan bədbəxt hadisə baş verib. Məlumata görə, Rusiyanın Azərbaycandakı səfirliyinin gənc bir əməkdaşı mənzil kirayələdiyi yaşayış binasının yuxarı mərtəbələrinin birindən yıxılıb. Gənc rus diplomat yerə yıxılarkən sərxoş vəziyyətdə olub.**

Onun hündürlükdən yıxılmasına Rusiya səfirliyində işləyən digər rusiyalı həmkarı ilə dalaşması səbəb olub.

Belə ki, ilkin versiyaya görə, gənc diplomatlar bir yerə içiblər, sonra da mübahisə və dava etməyə başlayıblar. Ehtimal belədir ki, biri digərini yerə atıb. Onların ad-soyadları açıqlanmır.

Yayılan bu məlumatı Rusiya səfirliyi ilə dəqiqləşdirmək mümkün olmayıb.

"Turan"ın Rusiya səfirliyinin mətbuat xidmətinə açdığı telefon zəngləri cavabsız qalıb.

Azərbaycanın Xarici İşlər Nazirliyindən isə bu məlumata hər hansı şərh vermək istəməyiblər.

# Türkmənistan prezidenti qara "Mercedes"dən ağa keçib

## Məmurlar da maşınlarını dəyişməli oldular

**Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovun göstərişinə əsasən bu ölkənin məmurları qara "Mercedes-Benz E 300" markalı avtomobillərdən ağ rəngli "Mercedes"lərə keçməli olacaqlar. Bu barədə "RİA Novosti" agentliyi xəbər yayıb.**



Artıq prezidentin göstərişinin icrasına başlanılıb. Belə ki, ölkəyə 160 ağ "Mercedes" gətirilib. Yüksək məqamlı məmurların bir çoxu maşınlarını yeniləsə də, prosesin başa çatması üçün əlavə avtomobillərə ehtiyac var. Gələcəkdə ağ "Mercedes" alanlar arasında media nümayəndələri də olacaq. Qəzet redaktorları, TV və radio rəhbərləri də bu sırada yer alıblar.

Agentlik bildirir ki, xidməti avtomobillərin rənginin dəyişməsi ideyası Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədova məxsusdur. Belə ki, prezident son vaxtlar ağ avtomobildən istifadə edir. Müvafiq olaraq onu müşayiət edən avtomobillərin də rəngi dəyişib.

Ancaq bu axmaq rəng dəyişmənin səbəbi barədə heç bir məlumat verilmir.

❑ Elbəyi Həsənli, Sürix

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, (012) 434 01 33**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# “Anar Məmmədovun məhkəməyə gəlməsini tələb edəcəm” - baş redaktor

**Bu gün, sentyabrın 26-da, saat 11.30-da Xətai Rayon Məhkəməsində Anar Məmmədovun Rauf Arifoğluna qarşı xüsusi ittiham qaydasında qaldırdığı şikayəti üzrə hazırlıq iclası keçiriləcək. R.Arifoğlunun hüquqlarının müdafiəsi vəkillər Elçin Sadıqov və Cavad Cavadov tərəfindən həyata keçiriləcək.**

Xatırladaq ki, nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədov “Yeni Müsavat” qəzetinin baş redaktoru Rauf Arifoğlunu xüsusi ittiham qaydasında məhkəməyə verib. İddia ərizəsində A.Məmmədov R.Arifoğlunun Cinayət Məcəlləsinin 147.1, 147.2 və 148-ci maddələri ilə ittiham olunmasını tələb edir.

Artıq qəzetin müdafiə taktikası müəyyən olunub və redaksiya məhkəmə davasına tam hazırdır. Sentyabrın 24-də “Yeni Müsavat”ın redaksiyasında bununla bağlı müzakirə də təşkil edilib. **Baş redaktor Rauf Arifoğlu** müxbirimizlə söhbətində bildirdi ki, o, Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq, Anar Məmmədovun məhkəməyə gəlməsini tələb edəcək: “Mən məhkəmədə onunla üz-üzə gəlmək istəyirəm. Bilirəm ki, onun ən böyük arzusudur ki, məni məhkəməyə gətirtsin... Mənim də əlimdə artıq hüquqi əsas yaranıb ki, onun məhkəmədə iştirak etməsini tələb edim. Bu, qanunun birbaşa göstəricisidir və məhkəmədə iddiaçı tərəf kimi mütləq iştirak etməlidir. Mən bu tələbi həm də ona görə etmək istəyirəm ki, Anar Məmmədovla üz-üzə gəlim, ona bəzi məsləhətlərimi verim”.

**R.Arifoğlunun sözlərinə görə, Anar Məmmədov Amerikanın ən kritik şəxsləri ilə, senatorlarla, konqresmenlərlə, media təmsilçiləri ilə əlaqə qurur, onlarla Azərbaycan adına münasibət yaradır. Həm də bu iş üçün böyük vəsait xərcləyir:** “Lakin özünün ölkəsində media ilə yola gedə bilmir. Anar Məmmədovun illərdir ki, Azərbaycan mətbuatı ilə problemi var. Özü də təkcə ”Yeni Müsavat"la yox. Bu da onun bütün siyasi karyerasını alt-üst edir. Bu baxımdan da gənc iş adamına və siyasətə soyunmuş Anar Məmmədova bir neçə tövsiyəm olacaq. Hesab edirəm ki, peşəkar texnoloqun tövsiyələri onun bundan sonrakı həyatında faydalı olacaq".

## Bu gün nazir oğlu ilə Rauf Arifoğlunun məhkəməsidir; “Məmmədovlar mənə yox, təmsil olunduqları hakimiyyətə zərbə vururlar”



**R.Arifoğlu deyir ki, onu məhkəməyə verməklə, Məmmədovlar olduqca ciddi siyasi səhvə yol veriblər:** "Hər kəsə məlumdur ki, Azərbaycan Respublikasının prezidenti “Jurnalistlərin dostu” nominasiyası üzrə mükafat alıb. Hörmətli İlham Əliyev növbəti nominasiya təqdimatına qədər ölkə mediasının dostu və həm də təminatçısıdır. İndi onun nazirlərindən birinin oğlu əsas KİV-lərdən birinin sahibini həbs etdirmək üçün məhkəmə davası başladıb... Azərbaycan Respublikasının dövlət rəhbərləri hər yerdə iddia edirlər ki, diffamasiyaya görə heç bir jurnalist məhkəmə önündə dayanmır və bununla bağlı heç bir həbslər həyata keçirmir. Bu arqumenti də Azərbaycan hakimiyyətinin əlindən alırlar. Bunu bir müxalifətçi, cəmiyyətin fəal bir üzvü həyata keçirsəydi, bir şey deməzdim. Amma bunu Azərbaycanın indiki hökumətin üzvü olan bir nazirin oğlu həyata keçirir. Hesab edirəm ki, bu, mənə yox, hakimiyyətin siyasətinə böyük zərbədir".

**R.Arifoğlunun dediyinə görə, nazir oğlunun edə biləcəyi ən böyük yamanlıq onu həbs etdirməkdirsə, bu zaman nəticə fərqli olacaq:** “Bu həbs məni daha da böyüdəcək, gücləndirəcək. Ona görə də əlindən gələni beş qaba çəksin. Amma ona bir gənc iş adamı kimi tövsiyəm budur ki, bunları etməmişdən əvvəl xeyrini, şərini, gələcəyi və digər kateqoriyaları düşünsün”.

❑ **Sevinc TELMANQIZI**

# Cəbhəyə yaxın kəndlərə xüsusi status veriləcək

## Prezidentin yeni sərəncamı nələri dəyişəcək?

**Sentyabrın 24-də ölkə başçısı ermənilərlə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında sərəncam imzalayıb. Sərəncamda qoşunların təmas xəttinə bitişik ərazilərdə təhlükəsizlik tədbirlərini gücləndirmək, milli təhlükəsizlik və xüsusi əhəmiyyət kəsb edən məlumatların, eləcə də “Dövlət sirri haqqında” Qanuna görə dövlət sirri təşkil edən məlumatların qəzet və internet informasiya saytlarında, o cümlədən sosial şəbəkələrdə yayılmasının qarşısını almaq məqsədilə “Müdafiə məsələləri üzrə əlaqələndirmə şuralarının yaradılması" nəzərdə tutulur.**

Bundan başqa, müdafiənin möhkəmləndirilməsi, habelə əhalinin ayıq-sayıqlığının artırılması məqsədilə həmin zonada yerləşən yaşayış məntəqələrində yerli əhali arasından könüllülərdən ibarət patrul dəstələrinin formalaşdırılması üçün zəruri tədbirlər görülməsi tapşırılır.

Jurnalistlərin cəbhəboyu zonalara xidməti ezamiyyətləri Müdafiə Nazirliyi ilə razılaşdırılmalıdır.

Mühüm dövlət və hərbi əhəmiyyət daşıyan məlumatların yayılmasının yolverilməzliyi barədə izahat işinin və mərkəzi icra hakimiyyəti orqanları ilə birlikdə həmin orqanların mətbuat xidmətləri tərəfindən hərbi-siyasi və əməliyyat şəraitinə dair məlumatların yayılması üçün internet informasiya ehtiyatlarının, o cümlədən sosial şəbəkələrin imkanlarından daha səmərəli istifadə edilməsini, bu məqsədlə mətbuat xidmətlərinin işçiləri üçün müvafiq təkmilləşdirmə kurslarının təşkilini təmin etmək tapşırılıb.

**Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsinin üzvü Zahid Oruc “Yeni Müsavat”a açıqlamasında sərəncamın böyük önəm daşıdığını bildirdi. Deputatın fikrincə, bu sərəncam əsasında cəbhə bölgələrinə xüsusi status veriləcək:** “İndiyə qədər mediada, cəmiyyətdə ”cəbhəyanı zona" kimi işlədilən termin artıq bir hüquqi anlam daşıyır.





Zahid Oruc

Həqiqətən də biz bütün cəbhəyanı zonalara fərqli bir status verməliyik. Həmin regionun təhlükəsizliyinin qorunmasına da qeyd olunan tələblərdən yanaşmalıyıq. Ölkə prezidentinin sərəncamı birinci növbədə buna xidmət edir. Yəni bu gün Qusar və ya başqa bir rayonla Ağdamın Azərbaycanın nəzarətində olan hissəsi, Tərtər və digər ərazilərin qurulculuğuna və sair işlərə eyni yanaşmaq olmaz. Düşünürəm ki, ölkə rəhbərliyinin bu addımı sonrakı mərhələdə müvafiq dövlət qurumlarının fəaliyyəti ilə daha da zənginləşdiriləcək və bizim arzu etdiyimiz məqama gəlib çatacaq. Çox mümkündür ki, gələcəkdə iqtisadi tədbirlərlə də müşayiət edilsin. Yəni güzəştlər, əhalinin məskunlaşdırılması şəraiti və sair".

**Deputatın fikrincə, könüllü patrullar daha çox cəbhəyanı kəndlərdə informasiya sızması və təhlükəsizlik məsələlərinə dəstək olacaq peşəkar qruplardan formalaşmalıdır:** “Düşünürəm ki, həmin patrul xidmətləri sadəcə arzulayan şəxslərdən deyil, döyüş şəraitində olmuş, Qarabağda savaş görmüş, müəyyən hərbi təcrübəyə malik insanlardan formalaşdırılmalıdır. Silahlı qüvvələrdə fəaliyyət aparmış, lakin bu gün istefada olan adamlar bu işə cəlb oluna bilər. Bunlar könüllü drujinalar, hərbiləşdirilmiş patrul xidmətləri kimi deyil, cəmiyyətlə iş aparan, müxtəlif lokal toqquşmalar zamanı müxtəlif informasiyaların ötürülməsində aktiv rol oynayan bir qrup kimi formalaşdırılmalıdır”.

**Zahid Oruc deyir ki, yeni sərəncam hərbi vəziyyətin bütün ölkə boyu deyil, konkret ərazilərdə tətbiq edilməsi üçün əsas yaradacaq:** “Bir ərazidə bütün fəaliyyət, yəni mətbuatın akkreditasiyası, ordunun hərəkətliliyi, hərbi hissələrə səfərlər və sair kimi işləri nəzarət altına almaq olar. Bizdə bir yayğın baxış var ki, bizim adi şəkildə müşahidə etdiyimiz hərbi hissələrin dislokasiya yerləri, hərəkətləri, texnikanın yerdəyişməsi və sair kimi hadisələr çox adi məsələlərdir, bunların təhlükəsizlik önəmi yoxdur. Düşünürəm ki, real əməliyyatlar başladığı zaman qeyd etdiyimiz məqamlar böyük əhəmiyyət daşımağa başlayır. Ona görə də bununla bağlı xüsusi bir rejimin seçilməsinə birmənalı ehtiyac var. Üçüncü məqam daha mürəkkəb və təminatı çətin olan sosial medianın işinin təşkili, dövlət sirrinin qorunması ilə bağlı məsələlərdir. Dövlət sirrinin qorunması hesab edirəm ki, nüvə silahını partladıb sonra onun qarşısını almağa bənzəyir. İnternet resursları nəzarət altına alına bilmir. Xüsusən də bizim heç bir qanunda sosial media ilə bağlı məsələni sona qədər müəyyən edə bilməmişik. İnformasiya təhlükəsizliyi haqqında qanun mövcud deyil. Hərbi cəbhədə, əsgərin qoruduğu torpaqdan daha çox informasiya məkanına aid olan problemlər və mətbuatın gərəkən situasiyalarda dövlətin yanında olması, vahid siyasət yürütməsi, informasiya generallarının işindən məsələlərə yanaşması praktikası zəngin deyil. Həmçinin təlimlər keçiriləcək, Mətbuat Şurası seminarlar keçirəcək. Bunlar necə ediləcək? Kanadada əyləşən, Almaniya üzərindən qeydiyyatdan keçən və Azərbaycana qarşı elektron casus, ya da sadəcə cəmiyyəti parçalayan fəaliyyət göstərənlərə necə olacaq? Tutaq ki, onlar ifşa olundu. Hansı addımlar atılacaq? Hesab edirəm ki, bu məsələlərlə bağlı parlamentin də üzərinə çox mühüm vəzifələr qoyulur. Bu yöndə mümkün olan addımlar atılsın, başlıcası hərbi vəziyyətə dair dövlətin, silahlı qüvvələrin və medianın birgə işi təşkil olunsun. Düşünürəm ki, prezidentin sərəncamı qeyd etdiyimiz məsələlərə xidmət edir”.

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 240 (5949) 26 sentyabr 2014

# Müsavat funksionerlərindən Musa Qasımlıya sərt cavab



**Almaz Əliqızı:** “Əgər Müsavat onun üçün bitibsə, o da Müsavat üçün bitib”



**Mustafa Hacıbəyli:** “Onun Müsavata qarşı çıxışları təmənnalıdır”

**Müsavatın sabiq Divan üzvü, professor Musa Qasımlının 27 sentyabrda keçiriləcək Müsavat qurultayı ilə bağlı səsləndirdiyi fikirlər partiya daxilində ciddi narazılıq doğurub. Partiya funksionerləri onun fikirlərinə sərt təpki göstəriblər.**

“Yeni Müsavat”ın sabiq Müsavat funksionerləri arasında başqanlıqla bağlı apardığı sorğuya cavab verərkən Musa Qasımlı bunları deyib: “Başqanlıq seçkiləri Müsavatın daxili işidir. Mən o partiyadan 2003-cü ildən istefa vermişəm. Həmin zamandan mənim üçün bu tipli məsələlər bitib”.

**Müsavat Divanın üzvü, professor Almaz Əliqızı Musa Qasımlının da onlar üçün çoxdan bitdiyini söylədi:** “Musa Qasımlı hələ partiyada olanda açıq şəkildə onun gedəcəyini deyirdim. Onun özü də bunu bilirdi. Bir dəfə özü mənə yaxınlaşıb dedi ki, mənim haqqımda niyə belə düşünürsünüz. Zaman haqlı olduğumu göstərdi. Əgər Müsavat onun üçün bitibsə, o da Müsavat üçün bitib”.

**Müsavat başqanının müşaviri Mustafa Hacıbəyli Musa Qasımovlının partiyada olduğu zamanlarda da təzadlı çıxışlar etdiyini bildirdi:** “O, partiyada olduğu zamanlarda da başqa-başqa çıxışlar edirdi, Müsavatın min illik partiya olduğunu deyirdi. Şahidiyəm, bir sıra toplantılarda Musa Qasımlı bildirirdi ki, Müsavat nəinki Azərbaycanın keçmişinin, eyni zamanda gələcəyinin partiyasıdır. Sonradan o, hakimiyyətin tərəfinə keçdi. Bunun müqabilində deputat mandatı ilə mükafatlandırıldı. Hesab edirəm ki, onun indi Müsavata qarşı çıxışları təmənnalıdır. Qarşıdan 2015-ci il seçkiləri gəlir. Ola bilər ki, Musa Qasımlı hakimiyyət düşərgəsində ona qarşı olan şübhələrdən narahatdır. Keçmiş müsavatçı kimi. Ona görə o, hakimiyyətin narahatçılığını aradan qaldırmaq üçün ”tam satılmışam" mesajını verir, ona görə Müsavata qarşı bu açıqlamanı verib".

❑ **Cavanşir ABBASLI**

# Partiya üzvü olan jurnalistlər peşəkar deyilmi?

**“Jurnalistlərin siyasi partiyalarda təmsilçiliyi doğru deyil”. Bu fikirləri ötən gün moderator.az-a açıqlamasında Media Hüquqları İnstitutunun rəhbəri Rəşid Hacılı səsləndirib. Rəşid Hacılının fikrincə, partiya mənsubiyyəti olan jurnalistlərin yazıları peşə etikası baxımından suallar doğurur.**



**Zeynal Məmmədli:** “Partiya maraqları jurnalistin müstəqilliyinə təsirsiz ötüşmür”



**Etibar Seyidağa:** “Mən Müsavatın üzvüyəm, amma Hafiz Hacıyevdən dəfələrlə müsahibə götürmüşəm”



**Azər Ayxan:** “Azərbaycanın müstəqilliyi ilə azad mətbuatın yaradılması eyni vaxta təsadüf etdiyi üçün vəziyyət belədir”

**R.Hacılının fikirlərinə münasibət bildirən media eksperti Zeynal Məmmədli bildirdi ki, qanunvericilik baxımından olmasa da jurnalist etikası baxımından jurnalistin hər hansı siyasi partiyanın üzvü olması arzuolunan deyil:** “Əgər jurnalist partiyaya məxsus mediada işləyirsə və həmin partiyanın üzvüdürsə, burada bir ikilik yaranmır. Yəni həmin jurnalistin yazdığı ilə siyasi əqidəsi üst-üstə düşür. Ancaq söhbət radio və televiziyadan, müstəqil mediadan gedirsə, birmənalı olaraq jurnalistin partiya üzvü olması ilə onun nə yazması arasında auditoriya hər zaman paralellər aparacaq. Yəni bu sözlərin müəllifi kimdir, jurnalist filankəs, yoxsa partiya üzvü filankəs. Məsələn, Pərviz Həşimli hüquq müdafiəçisidir, AXCP-nin üzvüdür, eyni zamanda hansısa qəzetin əməkdaşı, hansısa saytın moderatoru və saeirdir. Bu həmin şəxsin fəaliyyəti ilə bağlı anlaşılmazlıq yaradır”.

**Media ekspertinin sözlərinə görə, partiya maraqları jurnalistin müstəqilliyinə də təsirsiz ötüşmür:** “Burada həm də jurnalistin müstəqilliyindən söhbət gedir. Partiya mənsubiyyəti jurnalistin müstəqilliyinə müəyyən mənada kölgə salır. Buna o zaman haqq qazandıra bilərik ki, jurnalist özünün partiya mənsubiyyətini göstərsin, xəbərdar etsin ki, mənim siyasi baxışlarım budur. Ancaq bunu hər xəbərin ardında qeyd etmək mümkün deyil. Jurnalistlər üçün jurnalist etikası qanundur. Etikanın da tələbi budur ki, informasiya tərəfsiz mənbədən alınmalıdır və tərəfsiz yazılmalıdır. Jurnalistin siyasi baxışları bu tərəfsizliyə mane olmamalıdır. Partiyalı mediada jurnalistin partiya mənsubiyyətinin olması mümkündür, demokratik mediada isə bu, mümkün deyil”.

**Müsavat Partiyasının üzvü, “Yeni Müsavat” qəzetinin əməkdaşı Etibar Seyidağa isə siyasi baxışları jurnalist fəaliyyətinə yansıtmadığını deyir:** “Jurnalistika insanın hər hansı partiyaya üzv olmasını qadağan etmir. Yəni insan bir əqidəyə sahibdirsə və bu əqidə dövlətin, xalqın maraqlarına zidd deyilsə, həmin şəxsin hansı partiyaya üzv olmasının fərqi yoxdur. Ən pis şey əqidəsiz olmaqdır. Mən özüm Müsavat Partiyasının üzvüyəm və çalışdığım ”Yeni Müsavat" qəzeti də bu partiyaya yaxındır, ancaq mən Müsavat Partiyasının tənqid olunduğu yazılar da yazmışam, müsahiblərimin də bu cür fikirlərini ixtisar etməmişəm. Oxucular bilir ki, mən dəfələrlə Hafiz Hacıyevdən də müsahibə almışam, bu şəxsin Müsavat Partiyasına münasibəti də bəllidir. Mənim Müsavat Partiyasının üzvü olmağımın jurnalist fəaliyyətimə aidiyyəti yoxdur, mümkün qədər çalışıram ki, siyasi əqidəmlə jurnalist fəaliyyətim bir-birinə qarışmasın".

**“Yeni Müsavat” qəzeti baş redaktorunun 1-ci müavini Azər Ayxan Azərbaycanda peşəkar qəzetçilik tələblərinə uyğun hərəkət etməyin mümkünsüz olduğunu bildirdi:** “Beynəlxalq jurnalistika standartlarına görə, jurnalistin siyasi mənsubiyyəti olmamalıdır. Ancaq Azərbaycan reallığında peşəkar qəzetçiliklə məşğul olmaq mümkün deyil. Hətta ölkənin ən tirajlı qəzetləri, saytları belə peşəkarlıq tələblərinə sonadək cavab vermirlər. Bunun da xeyli səbəbi var, zaman-zaman bu səbəblər müzakirə edilib.

Azərbaycanda müstəqil mətbuatın təşəkkülü ilə, Azərbaycanın müstəqillik qazanması eyni dövrdə baş verdi. Bu səbəbdən o zaman yenicə formalaşmağa başlayan müstəqil mətbuatla, yeni yaranmağa başlayan siyasi partiyalar eyni dövrə təsadüf etdi. Ona görə də, o zamandan bəri Azərbaycanda mətbuat işçilərinin siyasi mənsubiyyətləri də formalaşmağa başladı. Hazırda “Yeni Müsavat” qəzetində də partiya üzvü olan jurnalistlər çalışır, mən də Müsavat Partiyasının üzvüyəm. “Yeni Müsavat” qəzetinin təsisçisi Rauf Arifoğlu həm də Müsavat Partiyasının qurucularından biridir.

Çalışırıq ki, siyasi fəaliyyətimiz, baxışlarımız jurnalist fəaliyyətimizə yansımasın. “Yeni Müsavat” qəzetində müxalifəti də, iqtidarı da eyni şəkildə tənqid edən yazılar dərc olunur. O cümlədən iqtidara da, müxalifətə də tribuna veririk. Düzdür ki, biz qəzetin 25 illik fəaliyyəti dövründə daha çox müxalifətə yaxın olmuşuq, onların fəaliyyətini işıqlandırmışıq, ancaq istənilən iqtidar nümayəndəsinə də öz sözünü deməyə şərait yaradırıq".

❑ **Nərgiz LİFTİYEVA**

# Leyla Yunusun gözləri tutula bilər

## Hüquq müdafiəçisi ilə görüşən vəkil sensasion açıqlamalar verib; döyülmə faktı ilə bağlı şikayət hazırlanır...

**Sülh və Demokratiya İnstitutunun (SDİ) rəhbəri Leyla Yunusun təcridxana əməkdaşı mayor Yaqubov tərəfindən döyülməsi ilə bağlı yayılan xəbərlər gündəmi dəyişib. 3 gün ərzində hüquq müdafiəçisi ilə görüş ala bilməyən vəkillər Cavad Cavadov və Fariz Namazlı faktı yaydıqları bəyanatda təsdiqləyiblər.**

**Fariz Namazlı** baş verənlərlə bağlı aidiyyəti orqanlara şikayət hazırladıqlarını bildirdi: “Leyla xanımın döyülməsi ilə bağlı vəkilləri olaraq birgə bəyanat verdik. Birlikdə şikayət verəcəyik. Hazırda onun üzərində işləyirik. Hadisə dünən olduğuna görə vəziyyət bir az qarışıqdır. Qırmızı Xaç Cəmiyyəti, Ombudsman, İşgəncələrə Qarşı Azərbaycan Komitəsi və prokurorluq orqanlarına şikayətimizi verəcəyik”.

**Leyla Yunusun digər vəkili Elçin Qəmbərov sentyabrın 25-də onunla görüşüb. AzadlıqRadiosuna müsahibəsində o, hüquq müdafiəçisinin vəziyyətinin ağır olduğunu söyləyib:** ”Mənimlə danışanda tez-tez yaddaşını itirirdi. Bir neçə cümlə deyib, bir müddət gözləyirdi. Deyirdi ki, təcridxananın əməkdaşı Fəqan Yaqubov onun başına iki dəfə qüvvətli zərbə endirib. Bundan sonra baş verənləri isə xatırlamır. Döyülməsindən iki gün keçməsinə baxmayaraq, başında ağrıları getdikcə şiddətlənir. Hazırkı əlamətlərə görə onun başında gematoma əmələ gəlib. Leyla xanım bu yaxınlarda hər iki gözündən əməliyyat olunub. Bu zərbələrdən sonra onun kor olma ehtimalı böyükdür. Beynəlxalq qurumlar hər dəfə Azərbaycan hakimiyyətinin tənqid edəndə bunun qisasını Leyla Yunusdan alırlar".

**Bu arada “Siyasi Məhbuslarsız Azərbaycan” İctimai Alyansı Leyla Yunusa qarşı həyata keçirilən repressiyalar və fiziki zorakılıqlarla bağlı etiraz bəyanatı yayıb. Bəyanatda deyilir:** “Yerli və beynəlxalq hüquq normaları ayaqlar altına atan mövcud hakimiyyət vətəndaş cəmiyyəti fəallarına qarşı təzyiqləri israrla davam etdirir. Təəssüflə qeyd etmək lazımdır ki, bir sıra aparıcı beynəlxalq təşkilatların və Avropa Parlamenti kimi nüfuzlu qurumların Azərbaycanda insan haqlarının bərbad durumundan ciddi narahatlıq keçirdiyi, vəziyyətin düzəlməyəcəyi təqdirdə rəsmi Bakıya sanksiyaların tətbiq edilə biləcəyi anonsunu verdiyi məqamda ictimai-siyasi fəallara qarşı təzyiqlər səngimir. Bu təzyiqlər təkcə nisbi azadlıqda olan fəallara qarşı deyil, azadlıqdan məhrum edilmiş həbsxanada olan hüquq müdafiəçilərinə də qarşı nümayiş etdirilir”. Alyans Leyla Yunusa qarşı həyata keçirilən repressiyaları dayandırmağa, ona qarşı zorakıIıq edənlərin cəzalandırılmasını və Leyla Yunusa təcili müvafiq yardım göstərilməsini tələb edir. Beynəlxalq Qırmızı Xaç Komitəsinin Bakı nümayəndəliyini təcridxanada Leyla Yunusla görüşüb onun sağlıq durumunu yoxlamağa çağırır.




### Elçin Qəmbərov: “Bu zərbələrdən sonra onun kor olma ehtimalı böyükdür”

**Qeyd edək ki, hüquq müdafiəçisinin döyülməsi ilə əlaqədar vəkillərin yaydığı bəyanatla bağlı aidiyyəti orqan olan Ədliyyə Nazirliyinin Penitensiar Xidməti açıqlama verib. Xidmətin yaydığı açıqlamada yayılan bəyanatın əsassız olduğu bildirilir. Məlumatda qeyd olunur ki, bu cür xəbərlərin qarşısını almaq məqsədilə Penitensiar Xidmət araşdırma aparılması üçün hüquq-mühafizə orqanlarına müraciət edib:** “Bu məqsədlə təcridxananın dəhlizlərində quraşdırılmış videokameraların qeydə aldığı görüntülər prokurorluq orqanına təqdim olunacaq”.

**İddia olunur ki, xidmətin əməkdaşı Fəqan Yaqubovun Leyla Yunusu döyməsi ilə bağlı vəkillərin ittihamı da əsassızdır:** “Fəqan Yaqubov və eləcə də Penitensiar Xidmətin digər əməkdaşları məhkum və təqsirləndirilən şəxslərlə davranış qaydalarını bilir və onlara tam riayət edirlər. Təqsirləndirilən şəxs Leyla Yunusun vəkillərinin yaydığı bəyanatda həqiqəti əks etdirməyən başqa məqamlar da yer alıb. Belə ki, bəyanatda bildirilir ki, 24 sentyabr 2014-cü ildə müdafiəçilərindən vəkil Fariz Namazlı və Cavad Cavadov növbəti dəfə Leyla Yunusun yanına gediblər. Penitensiar Xidmət bildirir ki, həmin tarixdə təqsirləndirilən şəxs Leyla Yunusu vəkillərdən yalnız biri - Cavad Cavadov qəbul edib".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 240 (5949) 26 sentyabr 2014

**Müsavat Partiyasının qurultayına sayılı günlər qalır. Sentyabrın 27-də keçiriləcək qurultayda Müsavata yeni başqanın seçiləcəyi faktı ali toplantıya ictimai marağı daha da artırıb. Başqanlıq uğrunda isə məlum olduğu kimi, 4 nəfər mübarizə aparır. Aktiv seçki kampaniyası aparan namizədlərdən Arif Hacılı "Yeni Müsavat"ın qonağı oldu və qurultay öncəsi suallarımızı cavablandırdı. Olduqca maraqlı açıqlamalarla zəngin müsahibənin üçüncü-sonuncu hissəsini təqdim edirik.**



# Arif Hacılı İsa Qəmbərin namizədinin kimliyini bilir

## "Buna məndə cavab var... İsa Qəmbərin mövqeyi məni heç vaxt məyus etməyib"

*(əvvəli ötən saylarımızda)*

***- Arif bəy, əsas sual: İsa Qəmbərin namizədi kimdir? Buna sizdə cavab varmı?***

- Buna məndə cavab var. Ancaq bu sualı İsa bəyə ünvanlasanız daha yaxşı olar.

***- Yox. Biz istədik ki, sizə ünvanlayaq. Hər halda, siz deyirsiniz ki, sizdə cavab var. Sizdəki o cavab sizi məyus edirmi?***

- Xeyr. Birgə fəaliyyət göstərdiyimiz 25 il ərzində İsa Qəmbərin mövqeyi məni heç vaxt məyus etməyib.

***- Seçki kampaniyasında Azərbaycanın rayonlarında oldunuz, Müsavat Partiyasının təxmini durumunu bir daha təftiş eləmək imkanı əldə etdiniz. Durum necədir? Bu informasiyadan çıxış eləyib, başqan olacağınız halda partiya içinə yönəlik siyasətdə nələri dəyişməyi düşünürsünüz?***

- Təbii ki, ölkədə olan ümumi siyasi böhran Müsavat Partiyasının strukturlarına da müəyyən təsir edib. Ancaq partiya strukturlarında fəaliyyət göstərən təcrübəli siyasətçilər fəaliyyət göstərir və onlar da nüfuzları baxımından heç də əvvəlki dövrlərdə olduğundan az nüfuzlu deyillər. Müsavat Partiyasının üzvləri, özək sədrləri öz kəndlərində, partiyanın rayon təşkilatları rəhbərləri rayon miqyasında, şəhər miqyasında ən nüfuzlu insanlardır. Düşünürəm ki, ölkədə normal demokratik şərait yaranan anda həmin insanlar bütövlükdə cavabdeh olduqları ərazidə çox ciddi bir siyasi fəaliyyət yarada və ona rəhbərlik eləməyə nail olacaqlar. Müsavat Partiyasının fəaliyyətində çox ciddi dəyişikliklərin olacağı qənaətindəyəm. Mənə sual verilə bilər ki, siz icra aparatının rəhbəri idiniz və bu dəyişiklikləri niyə bundan əvvəl həyata keçirmirdiniz...

***- Bəli, elə sual və iddia var.***

- Bu sualın çox sadə bir cavabı var. Müsavat Partiyası demək olar ki, 4 ildir seçkiqabağı şərait vəziyyətində yaşayır. Partiya üçün bu, çox çətin bir dövr oldu. Müsavat Partiyası 2010-cu ildən etibarən bir neçə aydan sonra qurultayının olacağını gözlədiyi üçün strukturlarında boşluq yaranıb, vakant yerlər var. Məsələn, Divanda boş yerlər var, başqan müavinləri sırasında hazırda öz funksiyasını həyata keçirən yalnız bir müavin var. Partiyanın Nəzarət Təftiş Komissiyası xeyli müddətdir ki, faktiki olaraq fəaliyyət göstərmir. İcra aparatında vakant yerlər var. Bütün bu təyinatlar ona görə edilmirdi ki, biz daim Müsavatın yaxın zamanlarda qurultayının keçiriləcəyini gözləyirdik. Partiyanın qurultayı keçirildikdən sonra bütün bu problemlər aradan qalxacaq. Müsavat Partiyasında yeni strukturların yaradılması, həmçinin kadr seçimi prinsiplərinə dəyişiklik etmək niyyətindəyəm. Mən kadr siyasətində üç əsas prinsipin tərəfdarıyam. Birincisi, təyin olunan şəxs bacarıqlı olmalıdır. Müsavat Partiyasının bu sahədə heç bir problemi yoxdur, Müsavatda kifayət qədər bacarıqlı kadrlar var. İkinci prinsip təyin olunan şəxsin məhrumiyyətlərə dözərək bu görəvi həyata keçirmək həvəsinin olmasıdır. Üçüncü prinsip, həm bacarığı, həm həvəsi olan partiya funksionerinin bu işi görmək üçün vaxtı olmalıdır. Bacarığı, həvəsi və vaxtı olan insanlar müəyyən görəvlərə təyin olunacaqlar.

### "Kadr seçimi prinsiplərinə dəyişiklik etmək niyyətindəyəm"

***- Varmı elə adamlar?***

- Belə adamlar Müsavatda kifayət qədərdir. Biz onların fəaliyyətindən partiyanın güclənməsi üçün istifadə etməyə çalışacağıq.

***- Bugünkü rəqibləriniz o təyinatlarda yer alacaqlarmı? Məsələn, Tural Abbaslını, Qubad İbadoğlunu başqan müavini təyin edəcəksinizmi? Rəqibləriniz qeyd etdiyiniz o üç prinsipə cavab verirmi?***

- Mən hələlik kimisə vəzifəyə qoyacağım barədə heç bir söz verməmişəm, bu barədə müzakirələr aparmamışam. Biz bu məsələləri müzakirə edəcəyik. Bu məsələlər həm İsa bəylə, həm partiyanın rəhbər strukturlarına seçilmiş şəxslərlə müzakirələrdən sonra müəyyənləşdiriləcək. Əmin edirəm ki, hər bir kəsin, o cümlədən Müsavat Partiyasında bu gün mənimlə opponent olan şəxslərin potensialından maksimum istifadə olunacaq.

***- Opponentlərinizdə və ya onların tərəfdarlarında belə düşüncə var ki, Arif Hacılı başqan olsa, rəqiblərinə qarşı qisasçılıq edəcək. Onların bu düşüncələrində həqiqət yükü varmı?***

- Bu, çox gülünc bir iddiadır. Uzun illərdir ki, mən Müsavat Partiyasında faktiki olaraq icra işlərinə rəhbərlik edirəm və kimlərəsə hansısa cəzaları vermək, kimlərisə hansısa proseslərdən kənarlaşdırmaq üçün imkanlarım yetərincə olub, indi də yetərincədir. Əgər belə düşüncələrim olsaydı yəqin ki, bu imkanlarımdan istifadə edərdim.

***- Rəqiblərinizdən birinin tərəfdarları onun beynəlxalq əlaqələrinin daha çox olduğunu qabardırlar və bildirirlər ki, Müsavata beynəlxalq əlaqələri güclü olan şəxs başqan seçilməlidir. Sizin beynəlxalq əlaqələriniz hansı səviyyədədir?***

- Ümumiyyətlə, fəaliyyət göstərən siyasi partiyaların beynəlxalq əlaqələri həddən artıq vacibdir. Müsavat Partiyasının, onun başqanı İsa Qəmbərin, onun icra aparatının keçmiş rəhbəri Arif Hacılının və digər şəxslərin kifayət ciddi beynəlxalq əlaqələri var.Mənim əlaqələrim siyasi dairələrlə dövlət strukturlarında, beynəlxalq qurumlarda çalışan siyasi xadimlərlədir. Mən daim həm də xarici siyasət sahəsində şalışmışam. Gürcüstanda, Ukraynada, Polşada, Almaniyada, ABŞ-da, Litvada və digər ölkələrdə çox ciddi siyasi xadimlərlə, dövlət xadimləri ilə əlaqələrim var. ABŞ Dövlət Departamentində, Konqresdə, Ağ Evdə çoxsaylı görüşlərim olub. Bu görüşlərdə Müsavatı, Demkonqresi təmsil eləmişəm. Bircə onu deyə bilərəm ki, siyasi fəaliyyətim dövründə 10-dək ölkənin indiki və ya keçmiş prezidentləri ilə təmaslarım olub, Azərbaycan dövlətini, Müsavat Partiyasını, Demokratik Konqresi və digər təşkilatları təmsil etdiyim görüşlərim olub. Gürcüstan parlamentinin hazırkı spikeri David Usupaşvili mənim yaxın dostumdur. Şərqi Avropada Demokratiya İnstitutunun prezidenti, bu regionda siyasi proseslərə kifayət qədər təsir imkanlarına malik olan İrena Lasota mənim dostumdur. Hazırda bütün dünya miqyasında önəmli bir siyasi fiqur kimi qəbul olunan Mustafa Cəmiloğlu ilə çox yaxın dostluq münasibətlərimiz mövcuddur. Türkiyədə, Ukraynada fəaliyyət göstərən siyasi partiyaların rəhbərləri ilə əlaqələrim var. Müsavat başqanı olduqdan sonra bu əlaqələri daha da gücləndirməyə və bu əlaqələrdən həm partiyanın, həm Azərbaycan cəmiyyətinin maraqları üçün istifadə etməyə çalışacağam.

***- Başqan seçilsəniz Müsavatın, əslində həm də müxalifətin bundan sonrakı seçkilərdə seçki qərargahlarının rəhbəri kim olacaq, sizin indiyə qədər dəfələrlə həyata keçirdiyiniz görəvi kim həyata keçirəcək?***

- Hər hansı bir partiyanın başqanı da seçki qərargahının rəhbəri ola bilər. Partiyamızın ən güclü tərəflərindən biri Müsavatda çox ciddi peşəkar seçki mütəxəssislərinin olmasıdır. Müsavat Partiyasında 10-larla adam var ki, ümummilli miqyasda keçirilən seçki kampaniyalarına rəhbərlik edə bilərlər. Azərbaycanın ən görkəmli seçki mütəxəssislərindən biri Gülağa Aslanlıdır. Bir çox seçki kampaniyalarında o, özünün bu sahədə bacarığından və təcrübəsindən istifadə edərək ciddi nəticələrə nail olub.



### "Müsavat Partiyasının başqan müavinləri sırasında hazırda öz funksiyasını həyata keçirən yalnız bir müavin var"

***- Sizi İsa Qəmbərin komandasında və ümumiyyətlə Azərbaycan siyasətində çox uğurlu ikinci kimi qiymətləndirirlər. Bu, ikincinin birinci olması sizin üçün çətin olmayacaq ki? Arif Hacılı özü üçün ciddi bir ikinci müəyyənləşdiribmi? Çünki ikinci olmasa birincinin vəziyyəti çox pis olur. Seçiləcəyiniz təqdirdə ikinci kimi görürsünüz?***

- Siyasətdə nə birinci, nə ikinci, nə üçüncü təyinatla olmur. Siz bilirsinizmi ki, mən heç vaxt Müsavatda tutduğum rəsmi vəzifəyə görə ikinci şəxs olmamışam. İcra aparatının rəhbəri də Müsavat Partiyasında rəsmi ikinci vəzifə deyil. Həmişə həm partiyada, həm cəmiyyətdə məni Müsavatda ikinci şəxs hesab ediblər. Yəqin ki, kim Arif Hacılının yanında ikinci olacaqsa, o, özü öz fəaliyyəti ilə buna nail olacaq.

***- O ikinci bilirmi ki, Arif Hacılının komandasında ikinci olacaq?***

- Açığı, mənimlə birlikdə fəaliyyət göstərən insanlar adətən belə məsələlərdə xüsusi iddia ortaya qoyan insanlar deyil. Hansı görəv onlara həvalə olacaqsa, o görəvi bacardıqları qədər icra edəcəklər. Arif Hacılının yanında ikinci adam kim olacaqsa, yəqin ki, o, özü öz fəaliyyəti ilə buna nail olacaq. Bir məsələni deyim ki, mən nə Müsavat Partiyasında, nə də bütövlükdə Azərbaycan siyasətində hələlik birinci olmaq iddiasında deyiləm. Amma öz siyasi fəaliyyətimdə dəyişikliklər etmək niyyətindəyəm. Sentyabrın 22-də Yasamal müsavatçıları ilə görüşümdə belə bir fikir səsləndirdim ki, başqan seçildikdən sonra bu Arif Hacılının içindən başqa bir Arif Hacılı çıxacaq və o Arif Hacılı bu Arif Hacılıdan böyük olacaq.

***- Seçkidə saxtakarlıq olacağından narahatlığınız varmı?***

- Saxtakarlığın olması qeyri-mümkündür. Biz çox ciddi mexanizmlər düşünmüşük və seçkilər o dərəcədə şəffaf keçiriləcək ki, seçkilərin nəticələrini hətta qəvi düşmənlərimiz belə, şübhə altına ala bilməyəcəklər.

***- Müsavatçı siyasi dustaqlara münasibət, onların azadlığa çıxması üçün addımlar necə olacaq? Məsələn, Tofiq Yaqublu sizi yox, Qubad İbadoğlunu dəstəklədi. Bu, ona münasibətdə bir fərq yaradacaqmı?***

- Tofiq Yaqublu uzun illərdən bəri dostluq etdiyim adamlardan biridir. Tofiq Yaqublunun konkret bir seçki kampaniyasındakı mövqeyi bizim münasibətlərimizə xələl gətirə bilməz.Tofiq bəy özü də dostlar vasitəsilə ismarış göndərib ki, bu seçkidə fərqli mövqedə olsam da zərurət yaransa Arif Hacılının yolunda ölümə də getməyə hazıram. Özüm də siyasi məhbus olmuşam. Ona görə də bu sahədə problemlərin aradan qaldırılması üçün maksimum dərəcədə səy göstərməyə çalışacağam. Bu məsələlər hamısı kompleks həll olunacaq. Qeyd etdim ki, Müsavatın strukturlarında ciddi dəyişikliklərin olması planlaşdırılır. Partiyanın rəhbərliyinə kifayət qədər enerjili, bacarıqlı və özlərini Müsavata həsr etməyə hazır olan adamlar gələcək. Müsavat Partiyasının bütün strukturları tam gücü ilə işləməyə başlayacaq. Bu, həm insan haqları müdafiəsi sahəsinə, həm mətbuatla əlaqələrə, həm xarici siyasət işinin möhkəmləndirilməsinə aiddir. Hesab edirəm ki, bütövlükdə siyasi fəaliyyət, xüsusilə də icra işi Müsavat Partiyasında güclənəcək. Bütün həyatım boyu təşkilatçılıq işi ilə məşğul olmuşam. Düşünürəm ki, bu illər ərzində topladığım təşkilatçılıq vərdişləri Müsavatın strukturlarının möhkəmlənməsinə xidmət edəcək.

***- Təşkilata maddi resursları cəlb eləmək istiqamətində düşüncəniz varmı? Bunu necə edəcəksiniz?***

- Bu bizim çox ağrılı yerimizdir. Bu barədə müəyyən düşüncələrimiz, müəyyən planlarımız var. İcazə versəniz bu planları açıqlamazdım.

### "Başqan seçildikdən sonra bu Arif Hacılının içindən başqa bir Arif Hacılı çıxacaq və o Arif Hacılı bu Arif Hacılıdan böyük olacaq"

❑ **Hazırladı: Etibar SEYİDAĞA**



# "Qorxuram ki, .... rüsvay edə"

Samir SARI

**Dünən növbəti dəfə şantaja məruz qalmış həmkarımızın başına gələnlər barədə qeydləri sosial şəbəkədə oxuduğum vaxt paralel olaraq da youtube saytında Arif Babayevin ifasında "Sevgilimə könül açdım" mahnısını dinləyirdik.**

Bilənlər bilir, bilməyənlər də bilsinlər ki, bu 40-50 ilin mahnısıdır və bunu o dövrün populyar müğənnilərinin əksəriyyəti oxuyublar - Süleyman Abdullayevdən Könül Xasıyevaya qədər. Mahnının musiqisini də, sözlərini də mərhum gitaraçı, bəstəçi Bəhram Nəsibov yazıb, amma sözümüz bunda deyil, ondadır ki, mahnının böylə bir nəqarəti var:

*"Qorxuram ki, əhdi dana,*
*Bağrım ola şana-şana,*
*Özü eşqə yana-yana,*
*Rüsvay edə eldə məni".*

Deməli, burda əsərin qəhrəmanı sevgilisinə könül açıb, amma bir az ictimai rəydən çəkinir, fikirləşir ki, ey dadi-bidad, etibarsız dünyadır, nə bilmək olar, birdən xanım əhdini danar, iki adamın arasında olan söz-söhbəti ictimailəşdirər, özünü də, aşiqini də el-oba içində rüsvay edər.

Bu mahnı yazılanda, əlbəttə ki, dünyada nə internet vardı, nə sosial şəbəkələr *(facebook, twitter və s.)*, nə messancer, nə inboks, nə skayp, nə də çatlaşma vardı. Sevən gənclər bir-birilə və şəhər telefonu ilə əlaqə saxlayırdılar, ya da Novruzəlinin poçtuyla dövrün lirik şairlərinin sevgi şeirləri ilə süslənmiş, sevən qəlbin ümid dolu çırpıntılarından bəhs edən şanlı məktublar göndərirdilər. Telefon danışığının stenoqramını yazmaq, saxlamaq mümkün deyildisə də, məktubları saxlayanlar olurdu. Hətta olurdu ki, bəzən pozulmuş əhdlərin nəticəsi olaraq o məktublar kiminsə başına qaxılırdı, ya da geri istənilirdi. Məsələn, Barış Mançonun şarkılarından birində deyilir ki, "qurumuş bir çiçək buldum məktubların arasında, bir tək onu saklıyorum, onu da çok görmə bana". Güman ki, xanım deyirmiş, məktubları qaytar. O da ona görə ki, həmin məktublarla şantaj olunmaqdan qorxurmuş.

Yəni adamı nə vaxtsa yazdığı məktublarla, ismarışlarla şantaj etmək ənənəsi 40-50 il bundan əvvəl də varmış. Ancaq indilikdə bu iş çox intensivləşib. Allahdan, daha dəqiqi, elmi-texniki nailiyyətlər üzündən, hazırda insanları şantaj etmək üçün çoxlu texnoloji avadanlıqlar var: bu videokamera, o fotoaparat, kameralı, diktofonlu telefonlar, skayp, çat, inboks yazışmalarının skrinşotu və sair və ilaxır.

Elə bir gün olmur ki, kimsə kimisə rüsvay etməyə cəhd göstərməsin. Bir də görürsən, bay, iki məhrəm dostun biri öz aralarında apardıqları yazışmaları sosial şəbəkə səhifəsinin inboksundan, yəni daxili poçtundan, ya da e'mail adresindən götürüb ictimailəşdirildi. "Baxın, filan məşhur adam necə əclafdır, mənə girişir", "Siz bu şəxsin manyaklığına baxın, görün, mənə nə təklif edir", "Utanmır, ailəli adamdır, amma mənə deyir ki..." və s.

Həmin adam da bir neçə gün pərt-pərt gəzir, dost-tanışdan arlanır, xəcalət çəkir, sonra gündəm dəyişir, onun "manyaklığının ifşası" söhbətləri unudulub gedir.

Burda görünməmiş bir iş yoxdur. Şair kefinin saz vaxtı deyib ki, eşqdir mehrabı uca göylərin, eşqsiz, ey dünya, nədir dəyərin. Atalar da qoca atın arpa yemək iştahının son ana qədər ölmədiyi barədə müdrik kəlam irad ediblər. Demək, əks cinslər arasında yazışmalar 50, 100, 500 il əvvəl olduğu kimi yenə də olacaq. Bütün bu yazışmaların məqsədi orqanizmlərin yaxınlaşmasına, ünsiyyətinə nail olmaqdır, hamı istəyir ki, öz könül həmdəmiylə bir arada olsun, ötməkdə olan vaxtdan səmərəli və faydalı şəkildə istifadə olunsun.

İndi bu ülvi və qeyri-ülvi niyyətlər hansısa səbəb üzündən alınmayanda, sövdə baş tutmayanda adamla yazışmaları birtərəfli qaydada ictimailəşdirərək, dünənki "sevgili"ni "manyak" elan etmək nə deməkdir? Adama deməzlərmi, rəhmətliyin nəvəsi, bəs dünənə qədər o "manyak"a "yuxumdan çıxmırsan, aşkım", "Darıxıram, özlədim" və sair intim mesajlar yazan sən deyildinmi? Adama isti mesajları yaz, ürəyini yandır, sonra da yazışmaları facebook-da yay, atasını yandır. İndi bu da işdirmi, sənətdirmi?

Şair təklif edir ki, nə əvvəlcədən romantik-romantik mesajlaşın, nə də sonradan bir-birinizi "manyak" və "fahişə" kimi ifşa edin. Ağıllı olun, bu saat videosu çıxan adamlar baş yarır, inboks yazışmasıyla kimə nə etmək olar?

# ADP sədri AXCP funksioneri haqda ifşaedici açıqlama verdi

**AXCP funksioneri, jurnalist Xaliq Bahadır "Azadlıq" qəzetində ADP və onun sədri Sərdar Cəlaloğlu haqqında ittihamlarla dolu böyük məqalə yazıb. "Adını "demokrat" qoyan bir partiyanın antidemokratik şantaj taktikaları" adlı məqalədə X.Bahadır ADP sədrini müavini Taliyət Əliyevin vasitəsilə onu şantaj etməkdə günahlandırıb: "Bizdə "Azərbaycan Demokrat Partiyası" adlanan bir partiya var.**

## Sərdar Cəlaloğlu: "Xaliq Bahadır mənə zəng edib demişdi ki, Səməd Vurğun haqqında ifşaedici material var, göndərim öz adından çap elə"

Bu partiyanın adı son illər daha çox antidemokratik görsənişlər, qalmaqallarla bağlı anılmaqdadır. Demokratiya prinsiplərindən çəkilib antidemokratik rejimə loyallıq sərgiləmə yolu tutan partiya sədri Sərdar Cəlaloğlu, görünür, gündəmdə qalmaq üçün tez-tez toplumu özündən çıxaracaq çıxışlarda bulunur. İndi açıq-aydın göründüyü kimi, S.Cəlaloğlu antidemokratik rejimlə çarpışmadan çəkinərək tariximizlə çarpışmaya girişib. Demokratiya lideri olaraq Məhəmməd Əmin Rəsulzadəni çıxdaş edən S.Cəlaloğlu hələlik sonuncu olaraq Məhəmməd Füzulini, Babəki, Koroğlunu tariximizdən çıxdaş etmək buyruğunda bulunub. Bəlli olduğu kimi, mən "Azadlıq" qəzetinin 13 sentyabr (2014-cü il) sayında "Sərdar Cəlaloğlunun yeni tarix yaradıcılığı" adlı yazı ilə çıxış etmişəm. Yazı S.Cəlaloğlunun tariximizə yanlış baxışları ilə bağlı konkret faktlar üzərində qurulub. Qabaqca S.Cəlaloğlunun, sonra mənim yazımı oxuyanlar birincinin danılmaz faktlar, tutarlı tutarqalar (arqumentlər) qarşısında susacağını düşünərdilər. S.Cəlaloğlu hamıya bəlli xarakter özəlliyinə uyğun nə olur-olsun gerçəyi tapdayıb keçmək yolu tutub - partiyasındakı ən sevimli "müavini" Taliyət Əliyevi qabağa verməklə. T.Əliyev, görünür, özünün, eləcə də Cəlaloğlu demokratiyasının prinsiplərinə uyğun olaraq mənə aşağılama-qorxutma-şantaj axarında cavab verib..."


Sərdar Cəlaloğlu

**S.Cəlaloğlu isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Xaliq Bahadırın ittihamları sayıqlamadan başqa bir şey deyil:** "Bu adam bilmirəm nə üçün məni hədəfə götürüb. Çünki mənim onunla indiyə qədər heç bir problemim olmayıb. Əksinə, yaxın münasibətlərimiz olub. Guya mənim Taliyət Əliyev vasitəsilə onu şantaj etdiyimi iddia edir. Bu, sayıqlamadan başqa bir şey deyil. Çünki birincisi, mən heç kimə Xaliq Bahadır barədə hər hansı tapşırıq verməmişəm. İkincisi, heç mən bilmirəm Taliyət bəy harasa açıqlama veribmi, yazıbmı. Üçüncüsü, əgər mən Xaliq Bahadırın cavabını verməyə ehtiyac duysaydım, mətbuat məsələləri üzrə müavinim var, ona deyərdim cavab yazardı. Nurəddin İsmayılov Xaliqdən güclü yazardır. Xaliqin dedikləri sayıqlamadan başqa bir şey deyil. Xaliq Bahadırın mənim və ADP-nin barəsində son dövrlər yazdıqlarını heç oxumamışam. Mən jurnalistlərin sualları zamanı öyrənirəm ki, sən demə, Xaliq Bahadır mənə qarşı yazılar yazıb. Xaliq Bahadırın yazılarını, ümumiyyətlə, "Azadlıq" qəzetini oxumağa nə vaxtım, nə həvəsim var. Nəyimə lazımdır, nə yazırlar. Mən yaxşı bilirəm ki, "Azadlıq" qəzetində o məqalələr kimin istəyi ilə yazılır, o yazılara başlıqları kim seçir və sair. Bu qəzetin sadəcə adı azadlıqdır, əslində azad deyil. Ona görə də orada yazılanları oxumağa ehtiyac görmürəm".

**S.Cəlaloğlu qeyd etdi ki, X.Bahadırın guya Səməd Vurğunu ondan müdafiə etmək cəhdi səmimi deyil:** "Mən Səməd Vurğunun iki dənə əsəri haqqında tənqidi fikirlərimi ifadə elədikdən sonra Xaliq Bahadır mənə zəng edib demişdi ki, Səməd Vurğun haqqında ifşaedici material var, göndərim öz adından çap elə. Mən də dedim ki, Səməd Vurğunla mübarizə aparmıram, vuruşmuram, ayıb olsun sənə. Xaliq Bahadırla sonuncu dəfə əlaqəm bu olub. Ruhi xəstə deyil, amma son dərəcə emosionaldır. Beyninə bir fikir düşdü elə bilir ki, bundan doğru fikir yoxdur.

Xaliq Bahadır həmişə belə olub. Məsələn, Əbülfəz Elçibəy hakimiyyətdə olanda Xaliq Bahadır Azərbaycan Dövlət Televiziyasında işləyirdi və hakimiyyətin, Əbülfəz bəyin əleyhinə müsahibələr alırdı, açıqlamalar verirdi. Onun verilişləri faktiki olaraq hakimiyyətin dayaqlarını sarsıtmağa xidmət edirdi. Yəni bu adam ağılsız və dəli olmasa da qəribə orijinal xüsusiyyəti var".

**ADP sədri sonda onu da dedi ki, əgər Xaliq Bahadır onun hansısa məşhur adamların tarixdə sərgilədiyi mövqelər, əsərləri barədə yanlış fikirlər söylədiyini düşünürsə, onun da iştirakıyla istədiyi tarixçi ilə, yazıçı ilə ya televiziyaya çıxıb, ya da hansısa media orqanında geniş müzakirə aparmağa hazırdır:** "O zaman görəcək ki, mən heç bir yanlış fikir bildirməmişəm və ya saxta tarix yazmıram. Əslində mən indiyə qədər yazılmış saxta tarixin düzəldilməsinə çalışıram. İndi Xaliq Bahadır ağılsız-ağılsız fikirlər yazır. Bu adam əl çəkmir məndən, nə istəyir məndən başa düşmürəm".

❑ Etibar SEYİDAĞA

# Partiya sədri Etibar Məmmədovu qorxaq adlandırdı

## Əhməd Oruc: "Bu adam nəfəsi də qorxa-qorxa alır"

**Azadlıq Partiyasının sədri Əhməd Oruc AMİP-in ünvanına sərt açıqlamalarla çıxış edib. Facebook səhifəsində Əhməd Oruc yazıb ki, jurnalistlərdən biri ondan Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzində təmsil olunmayan partiyalara münasibətini soruşub.**

O isə cavab verib ki, milli demokratik prosesdə olan partiyalar AXCP istisna olmaqla, mərkəzdə təmsil olunur və AXCP-ni dəfələrlə tədbirlərə dəvət etsələr də, qatılmır: "Mən hesab edirəm ki, nə vaxtsa qatılacaqlar. Jurnalist AMİP-in mərkəzdə olmamasını xatırlatdı, mən də bildirdim ki, AMİP də dəvət olunub, amma gəlmirlər və AMİP ümumiyyətlə siyasi proseslərdə yoxdur, məsələn, son prezident seçkilərində nə Milli Şuraya qoşuldu, nə özü ayrıca namizədlə çıxış etdi, nə hakimiyyəti, nə kimisə dəstəklədi, nə də seçkinin yekunları ilə bağlı mövqe bildirdi. Belə partiya olar? Yəqin hakimiyyətdən heç bir sifariş olmamışdı. Açığı mən məcbur olmasam xoşum gəlməyən, ikrah doğuran hər hansı bir məsələ haqda danışmıram. Amma bəllidir ki, AMİP Azərbaycanda milli hakimiyyətin yıxılması üçün Moskvanın təşkil etdiyi qiyamda iştirak edən murdar bir partiya kimi yadda qalıb. Bu partiya Heydər Əliyevin məşhur "bir ağac əkməmisən...." nitqi ilə layiq olduğu yerə soxuldu. Qiyamda iştiraka görə Heydər Əliyev tərəfindən partiyaya parlamentdə 3 yer və icra hakimiyyətlərində müavinlik verilmişdi. 1998-ci ildə bunlar öz xislətlərinə uyğun olaraq "sahiblərinə" də xəyanət etdilər, onu fitə basdılar. O gündən hər şeydən məhrum oldular, bu günə kimi bu partiya hakimiyyətə yüz dəfə ilan dili çıxarsa da hələ də xəyanətləri bağışlanmayıb. Son parlament seçkilərində AMİP-in latın əlifbası ilə hələ də yaxşı yaza bilməyən vulkanizator sədri İctimai Televiziyadakı 4 dəqiqəlik çıxışını müxalifəti hədələməyə sərf etdi".


Əhməd Oruc

**Əhməd Oruc sonra yazır ki, onun bu fikirlərinə cavab olaraq AMİP-dən çoxlu suallar yaradan cavab verilib:** "Bildiriblər ki, bu partiya dünyanın 69 ölkəsinin sağ-mərkəzçi aparıcı 85 siyasi partiyasını özündə birləşdirən Beynəlxalq Demokrat İttifaqının 1997-ci ildən üzvüdür. İngiltərənin hakim Konservatorlar, ABŞ-in Respublikaçılar, İsveçin Moderat, Fransanın, Avstraliyanın, İtaliyanın, Macarıstan və s. kimi dövlətlərin çox nüfuzlu partiyaları AMİP-in BDİ-dəki müttəfiqləridir. AMİP eyni zamanda Avropa Parlamentində ən çox deputat yeri olan, aparıcı fraksiya Avropa Xalq Partiyası ilə əməkdaşlıq edir. Azərbaycanda AMİP qədər geniş əlaqələri olan ikinci bir partiya yoxdur. AMİP lideri Etibar Məmmədov isə 2005-dən BDİ-nin sədr müavinidir. Mən isə sual edirəm: bu 69 ölkədə "demokratiyaya müavinlik edən Etibar Məmmədovun" Azərbaycanda demokratiyanın vəziyyəti ilə bağlı bir cümlə nəsə dediyini eşidən olubmu? Son həbslərlə bağlı bunlar hakimiyyətin mövqeyini müdafiə etmədilərmi?

Deyirlər ki, AMİP lideri Etibar Məmmədov 2005-dən BDİ-nin sədr müavinidir. Mən sual edirəm ki, bu hesabla Etibar bəy dünya demokratiyasında əsas söz sahibi olmalı, öz ölkəsində demokratiyanın babası olmalı idi, axı, hanı? Heç nə yoxdu, bu adam nəfəsi də qorxa-qorxa alır. Ortada boz bulanıq, kiməsə quyruq bulamaqdan başqa heç nəyə yaramayan, mövqesiz, milləti regionlara bölməklə hansısa xarici ölkələrdən sədəqə alan 3-4 qoturdan başqa nəsə varmı? Yoxdu, yox, hər şeyləri saxtadır. Bir daha məndən AMİP-i soruşmayın!"

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 240 (5949) 26 sentyabr 2014

# "Tövbə"nin sədri od püskürdü

## Hacı Əbdül: "Mübariz Qurbanlıdan olsa, deyər adam öldü, apar quyla getsin"

**Son vaxtlar ölkədə toy və yas mərasimləri ilə bağlı müzakirələr cəmiyyətin demək olar ki, bütün sferalarında aparılır. Sabiq deputat, "Tövbə" cəmiyyətinin sədri Hacı Əbdüllə müsahibəmizdə bu mövzudan bəhs etdik.**

**"Bu gün 100 minlik maşın sürürlər, 1 milyonluq ev tikirlər, bəs bu israfçılıq deyil? Xalqın malını, sərvətini dünyaya daşıyırlar, bu, israfçılıq deyil?!"**

***- Hacı, yas məclislərində qadağaların tətbiq olunması ilə bağlı təklifləri siz necə qarşılayırsınız?***

- Çox mənfi qarşılayıram. Mən qadağalar olmasının əleyhinəyəm. Sovet vaxtı, allahsızların at oynatdığı zamanlarda belə İslami adət-ənənələri sıradan çıxara bilmədilər, yas mərasimləri, Məhərrəmlik ayı oldu. İndi yas mərasimlərinə qadağa qoymaq yaxşı əlamət deyil. Keçən həftə Dini Komitənin sədri Mübariz Qurbanlı Yasamal rayonunda din adamları ilə görüş keçirdi, mən də orda idim. Dedi, rayonlara yas mərasimlərinə getmək, başsağlığı vermək lazım deyil. Mən çox təəccübləndim. Necə yəni, yas uzaq rayondadırsa, getmək lazım deyil? O, bir şeyi bilmir ki, hüzr yerinə getmək, hüzr sahibinin yanında olmaq ona təskinlik verməkdir, arxa-dayaq olmaqdır. Mən təəccübləndim və belə qənaətə gəldim ki, bu adam vəhhabilərin yolunu gedir. Vəhhabilər də deyir ki, adam öldü, dəfn elə, başqa heç nə lazım deyil, nə yas məclisi qur, nə yad elə, nə qəbir üstə get. Bu mənada mən çox təəssüflənirəm ki, dindən başı çıxmayan adamları gətirib rəhbər qoyurlar.

***- Siz də həmin tədbirdə iştirak edirdinizsə, nədən fikrinizi ordaca bildirib etiraz etmədiniz?***

- Mən orda çıxış etdim, öz sözümü dedim, necə vardı fikrimi bildirdim. Dedim, belə ifadə işlətdilər ki, ölkəmizdə heç bir vəhhabi problemi yoxdur. Bir hadisəni də xatırlatdım. Dedim, Hacı Məhərrəmi vəhhabilər yas mərasimindən qovmuşdu. Onda mən gəldim, hüzr sahibinə dedim ki, bunları niyə yığıbsan bura, nə baş verib. Yas sahibi dedi ki, Hacı Məhərrəm vəhhabilərlə mübahisə etdi, acıq edib getdi. Ona görə də dedim, bu ölkədə vəhhabi problemi necə yoxdu ki, səni məclisdən qovurlar? Bu problem var, özü də çox ciddi şəkildə. Mən komitə sədrinin dediklərinə də münasibət bildirərdim. Sadəcə, Mübariz müəllim sonda çıxış etdi və onunla da iclası bağladılar. Hüzr sahibinə başsağlığı vermə, uzaqdırsa getmə, bu, nə deməkdir? Elə vəhhabilərin liderləri də eyni şeyi təbliğ edir də.

***- Mübariz Qurbanlı deyir ifratçılığın əleyhinədir. Məgər siz ehsanda ifratçılığı normal sayırsınız ki?***

- Nəinki ehsanda, hətta suyun özünün istifadəsində də ifratçılıq etmək olmaz. Müqəddəs kitabda deyir israf eləmə. Bunun qarşısını almaq üçünsə... Amma qulaq as, kim israfçılıq edir? Hüzr sahibi? Deməli, varıdır ki, israfçılıq edir də. Qoy etsin. Belə çıxır ki, ölkədə bütün sahələrdə israfçılığın qarşısı alınıb, bir yasdakı israfçılıq qalıb? Ölkəmiz bütün sahələrdə israfçılığın içində itib-batır. Bu, bilirsən nə üçündür? Xalqın əksəriyyəti o qədər çətin vəziyyətdə yaşayır ki, heç ehsan verə bilmir. Dövlət xalqa normal yaşayış üçün şərait yaratmalıdır. Yaxşı olar ki, camaatın vəziyyətini yaxşılaşdırın, israfçılığın qarşısı öz-özünə alınacaq. Bu gün 100 minlik maşın sürürlər, 1 milyonluq ev tikirlər, bəs bu israfçılıq deyil?! Xalqın malını, sərvətini dünyaya daşıyırlar, bu, israfçılıq deyil?! Görün qudurğanlıq nə həddədir ki, gəlib xalqın məclisindən aş qazanını götürüb aparırlar, xalqın hüzrünü dağıdırlar! Bu hansı qanunda yazılıb? Xalqın mənəviyyatını alçaldırlar. Buna nə deyirlər?



**"Abutalıbov o boyda Bakının meridir, oğlu vəhhabiliyə qulluq edir, dövlət bunu görmür?!"**

***- Şeyxülislam da bu kimi əməllərə qarşı çıxıb. Deməli, siz nəhayət, şeyxlə eyni mövqeni bölüşürsünüz?***

- Mən şeyxin mövqeyindən çıxış etmirəm. Şeyxin nə mövqeyi var ki? Sadəcə, həqiqət budur. Mübariz müəllimdən olsa, deyər adam öldü, apar quyla getsin. Bu da birbaşa vəhhabilərin təbliğidir. Şeyx deməsə də, bu, düzgün deyil. Bizim adət-ənənəmiz Peyğəmbər (s.) vaxtından qalıb.

***- Komitə rəhbərliyinin arqumenti budur ki, yas sahibinin onsuz da gərgin vaxtında ehsan məsələləri ilə onu bir az da yükləmək düzgün deyil və buna ehtiyac yoxdur. Məgər doğru demir?***

- Deyirlər ehsana ehtiyac toxdur. Necə yəni yoxdur? Ehtiyac olmasa, ehsan elə qalar da stolun üstündə. Yeyirlərsə, deməli, ehtiyac var.

***- Görürəm ki, siz təklif olunan qaydalarla heç cür razı deyilsiniz. Fikrinizi əsaslandırmaq üçün görüşlər keçirmək, müraciət etmək niyyətiniz varmı? Vəziyyətlə bağlı din xadimlərinin rəsmi etirazı olacaqmı?***

- Bu, yalnız din xadimlərinin deyil, xalqın məsələsidir. Məgər ölənlər ancaq din xadimlərinin adamlarıdır, başqaları ölmür? Bu, bütövlükdə xalqın problemidir. Bu dövlətin işi-gücü qurtarıb ki, indi də xalqın başını ehsan söhbətləri ilə qarışdırır? O qədər vacib məsələlərimiz, problemlərimiz var.

***- Amma sizin fikrinizdən fərqli olaraq irəli sürülən təşəbbüslər bəzi yerlərdə normal qarşılanır...***

- Onların əksəriyyəti ya vəhhabilərdir, ya da vəhhabi olmağa namizəd olanlardır.

***- Çox ağır ittiham oldu...***

- Bir söz deyim, yaz. Əgər dövlətimiz vəhhabilərlə mübarizə aparmaq istəyirsə, birinci dövlət başında olanlardan başlasın. Hacıbala Abutalıbovun oğlu vəhhabiliyi təbliğ edir. Abutalıbovun və Hacıbala kimilərin qazandığı pullar hamısı Azərbaycanda vəhhabilərin təbliğinə gedir. O boyda Bakının meridir, oğlu vəhhabiliyə qulluq edir, dövlət bunu görmür? Qoy onu cəzalandırsınlar, o biri dövlət adamları da görsün ki, bu işlə məşğul olanların aqibəti necə olur.

***- Azərbaycanda İŞİD təhlükəsi necə, varmı, bu barədə nə deyə bilərsiniz?***

- İŞİD məsələsi Azərbaycan üçün çox böyük təhlükədir. İraqda, Suriyada döyüşən İŞİD-çilər bir gün Azərbaycana da gələcəklər. Bu, yaxşı əlamət deyil. Bunun qarşısını almaq, gec də olsa, məsələyə ciddi nəzarət etmək lazımdır. Bu, ümumxalq işidir. Həm dövlət, həm də xalq bununla məşğul olmalıdır. Peyğəmbər (s.) buyurur ki, işlər şübhəli göründümü, təcili qərar çıxar. Bax işlər şübhəlidir. Onunçün tez qərar çıxartmaq lazımdır. Qərara uyğun olaraq da hərəkət etmək lazımdır. Bu işdə güzəştə getmək olmaz ki, bu, dövlətin, bu xalqın adamıdır.

***- Hacı, dediklərinizdən belə başa düşdüm ki, siz dövlət komitəsinin rəhbərliyinə etimad eləmirsiniz...***

- Yox, mən heç etimad etmirəm. Xüsusilə də onun çıxışından sonra. O ki çıxışında dedi yasa bir dəfə getdin, bu, kifayət edir, mən daha ona necə etimad edim? Xristianlar, yəhudilərdə də hüzr sahiblərinə qarşı belə hərəkət olmur.... Yaxud niyə ehsan verməyə qoymursunuz. Qoy camaat ehsanını versin də. Nə özün verirsən, nə də başqasını qoyursan...

**P.S.** *Müsahibədə adları çəkilən, ittihama məruz qalan şəxslərin də mövqeyini dərc etməyə hazırıq.*

❑ **Elşad PAŞASOY**

# Yas məclislərinə ölkə boyu müdaxilələr edilir

## İcra nümayəndələri yas sahibinə yalnız yaşadığı mənzildə yemək süfrəsi açmağa icazə verir, çadırlara total nəzarət var; **məşədi Natiq Kərimli:** "İslamın buyurduğu qaydalara əməl olunsa, inzibati metodların tətbiqinə ehtiyac qalmaz..."



Natiq Kərimli

**Hökumətin ehsan islahatları yava-yavaş icraya yönəldilməkdədir. Ölkənin demək olar, bütün şəhər və rayonlarında yas məclislərinə inzibati müdaxilələr haqda "Yeni Müsavat"a çatan məlumatlara görə, icra məmurları yas çadırlarına daxil olur, ölü sahiblərinə xəbərdarlıq edirlər.**

Bu xəbərdarlıq ondan ibarətdir ki, ehsan süfrəsində yalnız çay, qənd, xurma, halva olmalıdır. Hazırda çadırlarda yemək süfrəsi açılmasa da, ən yaxın qohum-əqrəba, uzaqdan gələn insanlar üçün evlərdə qazan yeməyi verilir. Bu prosesin ölkənin bütün bölgələrini əhatə edəcəyi gözlənilir. Ancaq hökumətin ehsan qadağasına "Təzəpir" məscidi faktiki, məhəl qoymur. Qafqaz Müsəlmanlar İdarəsinin (QMİ) sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə ehsan məhdudiyyətinə qarşı müqavimət göstərməkdədir.

**Nardaran Ağsaqqallar Şurasının sədri məşədi Natiq Kərimli** yas məclislərinə inzibati qaydada müdaxilənin əleyhinədir. Onun fikrincə, İslamın buyurduğu qaydalara əməl olunsa, inzibati metodların tətbiqinə ehtiyac qalmaz. Şura sədri icra və polis əməkdaşlarına yas çadırlarına müdaxilə səlahiyyəti verilməsini qanuna zidd sayır. Onun sözlərinə görə, ilk növbədə insan haqları pozulur, ikinci tərəfdən isə etik yanaşma deyil: "Yas və toy məclislərində bilmək lazımdır ki, qırmızı xətti keçənlər dövlət məmurlarıdır. Onlar bahalı çadırlar təşkil edir, süfrəyə cürbəcür şirniyyatlar, yeməklər qoyurlar. Kasıbın məclisində elə bir israfçılıq olmur".

**N.Kərimli deyir ki, Nardaranda yas mərasimləri əvvəlki qaydada keçirilir:** "Kənddə vəfat etmiş şəxs dəfn olunan gün və daha iki gün yemək verilmir. Bu, şəriətə görə uyğun deyil. Ona görə də kənd camaatı buna əməl edir.

Ta bineyi-qədimdən şəriət qaydalarına əməl olunsaydı, bu problem özü-özlüyündə həllini tapardı. Eyni sözləri toy mərasimləri haqda da demək olar".

Artıq yas məclislərində islahatlarla bağlı tədbirlərin tərkib hissəsi kimi xarici təhsilli mollalara da nəzarət gücləndiriləcək. Axar.az saytı xəbər verir ki, mollaların uniformaya keçməsinin ardınca bu amilə də xüsusi diqqət yetiriləcək.

Bildiyimiz kimi, İran, Səudiyyə Ərəbistanı, Suriya, Misir və başqa müsəlman ölkələrində təhsil alıb, Azərbaycanda mollalıq edənlər var. Qanunla onların yas mərasimlərini idarə etməsi qadağandır. Ancaq rayon, qəsəbə, kənd yerlərində bir çox hallarda buna əhəmiyyət verilmir. Sayta verilən məlumatda deyilir ki, artıq bundan sonra yas islahatları sırasına bu məsələ də daxil ediləcək.

Qeyd edək ki, din təhsili almaq istəyən gənclərimizin böyük bir qismi Bakı İslam Universitetini deyil, digər dövlətlərin təhsil mərkəzlərini seçirlər. Son illərin göstəricilərinə görə, Bakı İslam Universitetinə qəbul olunmaq istəyən abituriyentlərin sayında nəzərəçarpacaq azalma müşahidə olunur. Halbuki din sahəsi məsuliyyətli bir sahədir və burada təhsil alan tələbələrin kifayət qədər savadlı və dərin biliklərə malik olması labüddür. Hazırda Azərbaycanda yeganə ali dini tədris müəssisəsində yalnız bakalavr və magistr pillələri üzrə kadr hazırlığı aparılır. Din sahəsində daha yüksək elmi səviyyəyə yiyələnmək, doktorantura təhsili almaq, elmi iş müdafiə etmək kimi məsələlər hələ də problem olaraq qalır.

Xatırladaq ki, 2011-ci ildə prezident İlham Əliyev "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Qanunun tətbiqi barədə sərəncam imzalayıb. Dəyişikliklər dini fəaliyyətlə bağlıdır. İnzibati Xətalar Məcəlləsinin 300-cü maddəsinə edilmiş dəyişikliklə dini etiqad haqqında qanunvericiliyə zidd hesab olunan fəaliyyətlər müəyyənləşdirilib.

Dəyişikliyə əsasən, müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmadan vətəndaşların dini təhsil müəssisələrində təhsil almaq üçün xaricə göndərilməsi, din xadimlərinin mübadiləsi, İslam dininə aid ayin və mərasimlərin Azərbaycandan kənarda dini təhsil almış vətəndaşlar tərəfindən keçirilməsi qanunvericiliyin pozulması sayılır.

❑ **Emil SALAMOĞLU**



# Qəbələnin 2 milyonu yox imiş...

Zamin HACI
zaminhaci@gmail.com

**Kimin ağlına gələrdi ki, vaxtilə Bakıya "Mızdonalds" lenti kəsməyə gələn bir cavan oğlan Amerikanın prezidenti olacaq? Heç kimin. Yatsaq yuxumuza girməzdi. Hətta mənim yadımdadır, o vaxt qəzetdən müxbir göndərmək mümkün olmurdu ki, gedib konqresmen Barak Obamanın şəklini çəksin, həvəs yox idi. Obama "Əcəmi" metrosunun üstündəki "Mızdonalds"a gedərkən bizim milli avtoşların yarışması nəticəsində yaranan tıxaca da düşmüşdü.**

Buyur, indi bu adam Amerikanın prezidentidir, üstəlik tənqidi çıxışında Azərbaycanın da adını çəkmişdir. Deyir, Azərbaycanda hökumət qeyri-hökumət təşkilatlarını (QHT) boğur. Yapist yoldaşlar bunun cavabını veriblər, deyiblər ona qalsa Amerikada da insanların hüquqları pozulur, "Çarlz Hayder 200 gün aclıq elədi, kişiyə çörək verən olmadı", "Sakko və Vansettinin məhkəməsini unutmamışıq!" tipində atəşlə düşmən susdurulmuşdur.

Yeri gəlmişkən, Sakko və Vansetti kimin yadında qalmışdı? Darıxmayın. Antiamerika isterikası fonunda hamısını yadınıza salacaqlar, çünki siz üçrəngli bayrağa layiq olmadınız. "Yeni - yaxşıca unudulmuş köhnədir" - deyib müdriklər. "Yeni Azərbaycan Partiyası unudulmaz KP MK, KGB, Pavlik Morozov adına Yeni Şəfəq kolxozu, Semyon Mironoviç Kirov adına ADU deməkdir"- bunu da indiki müdrik yazır.

Yapistlər ABŞ-da insan haqlarının pozulmasından danışanda, məncə, Çarli Çaplinə təzyiqləri də yada salsınlar. Məşhur aktyor Amerika xüsusi xidmətlərinin əlindən Avropaya qaçmışdı. Filmlərini kəsirdilər, özünü kommunist adlandırıb söyürdülər. Məncə, Əli Əhmədovun Çarli Çaplini müdafiə çıxışı sənətsevərlərimiz arasında da alqışla qarşılanar.

Ancaq ən yaxşı, ən kəskin zərbəni yenə Səyavuş müəllim vurmuşdur. *(Qəsdən onu "müəllim" adlandırıram, bizim müəllimlərə bu da azdır)*. Novruzovun Obamanın çıxışı haqda sözləri 11 sentyabr hadisələrindən betərdir. Sitat: "Məncə, Barak Obama Azərbaycanın QHT qanunvericiliyini oxusaydı belə danışmazdı". Obamanı bizim deputatxananın qanunlarını oxuyan yerdə təsəvvür eləməyə çalışdım. Bu zaman beynimin proqramı necə pozuldusa bir də gördüm Qəbələ haqda yazıram.

Hə, bu Qəbələ mövzusu doğrudan çox maraqlı mövzudur. And olsun "Gilan-Holdinq"in təzə çipsilərinin bərəkətinə, hətta deyərdim Obamanın çıxışından da maraqlıdır.

Təzəlikcə prezident İlham Əliyev Qəbələ rayonuna səfərə getdi, orda bəzi obyektlərin lentini kəsdi. Biz bunu alqışlayırıq. Balaca dövlətik, bizdə çipsi sexinin lenti də ali rəhbərlik tərəfindən kəsilməlidir, əks halda, çipsilər xırtıldamır. Təcrübə var. Hərçənd yuxarıda yazdığım kimi, Amerikanın özü də "Mızdonalds" açılışına gələcək prezidentini göndərmişdi. Yəni, bu, planetar problemdir. Sözüm bunda deyil. Sadəcə, o boyda obyektlərin açılış mərasimlərindən, Qəbələnin fantastik inkişafı haqda çıxışlardan sonra prezidentin Bakıya qayıdıb dərhal öz ehtiyat fondundan Qəbələyə 2 milyon manat ayırması mənə bir az təəccüblü gəldi.

Yəni Qəbələnin inkişafı başa çatmayıbdır? Rəqəmlərə, təbliğata görə Qəbələ hardasa Parisi ötüb keçmişdir. Ancaq yenə pul istəyir. Halbuki Qəbələ özü indi Bakıya-Şəkiyə pul ayırmalı idi. Kəmaləddin müəllim üçün bu, yaxşı hal deyildir. Əgər Qəbələ bu boyda pul basıb yeyəndən sonra hələ də acdırsa, görəsən yazıq Ağsu, Zərdab kimi rayonlar nə gündədir?

Mənə inanmırsınızsa, təkcə 2013-cü ildə prezidentin ehtiyat fondundan Qəbələ rayonunun iqtisadi və sosial inkişafına ayrılan pulların miqdarına baxın. Mart ayında 5 milyon manat, avqustda 2 milyon, dekabrda 3 milyon olmaqla üst-üstə 10 milyon manat prezident sərəncamı ilə rayona aparılıb. Burda sərəncam məsələsini ona görə xüsusi vurğulayıram ki, hələ bu ancaq ehtiyat fond adlanan sirli mənbədən yeyintinin miqdarıdır, dövlət büdcəsi, "Gilan Nazirliyi" və sairənin rayona yatırımlarını nəzərə almıram.



# "Əli Kərimli, martın 4-dən bu yana sən nə etmisən?" - Azər Əsgərov

## Mülkü dağıdılan şəxs AXCP sədri və funksionerlərinə sərt cavab verdi: "Onların özləri belə anlaşmaya vaxtilə getdiklərinə görə, indi mənim haqqımda deyirlər"

**AXCP-nin baş verən partlayış nəticəsində sökülən məlum qərargahının sahibi Azər Əsgərovun mətbuata verdiyi müsahibə ətrafında yaranan narazılıq səngiməmk bilmir. Mülk sahibi "Yeni Müsavat"ın 23-24 sentyabr saylarındakı açıqlamalarında AXCP sədri və partiya funksionerlərinin, eləcə də "Azadlıq" qəzetinin ünvanına sərt ittihamlar səsləndirib, onları kimlərləsə də anlaşaraq, onun məsələlərinə diqqət yetirməməkdə suçlayıb.**

Azər Əsgərov deyib ki, Əli Kərimli 7 aydır susur, "Azadlıq" qəzetinə də imkan vermir ki, bu barədə yazsın. "Əli Kərimlinin ayaqqabısının biri götürülsəydi, indi dünyanı dağıtmışdı", deyə Azər Əsgərov etiraz püskürmüşdü.

**AXCP sədri Əli Kərimli** isə bu ittihamlara facebook səhifəsində cavab verib, Azər Əsgərovu hökuməti sevindirməkdə suçlayıb: "Çox təəssüf ki, ağır basqılara Azər bəyin əsəbləri dözmədi. Bu cəsarətli insan indi hökuməti sevindirməklə məşğuldur. Məni və cəbhəçiləri ittiham edir ki, onu yaxşı müdafiə etməmişik. İndi Azər bəy qəzəb vektorunu onun evini dağıdanlardan çevirib bizə qarşı. Mənim Azər bəyə indi də xüsusi iradım yoxdur. Adamın canı yanır, çarə tapa bilmir, bilmir yanğısını necə soyutsun". **Əli Kərimli özünün facebook yazısında Azər Əsgərovun açıqlamalarını dərc edən qəzetlərə də böhtan atmaqdan özünü saxlaya bilməyib və günahı onlara yükləyib:** "Ramiz Mehdiyevin təlimatı ilə işləyən iqtidar mətbuatı da onun bu açıqlamalarını sevincək tirajlayır ". **Görünür, AXCP sədri arzu edir ki, Azər Əsgərovu meydanda tək qoyması "Azadlıq" qəzeti kimi, heç bir media quruluşunda işıqlandırılmasın, o da rahat bazarlaşmasının məhsulunu yesin. Bu məqamla bağlı "Yeni Müsavat" qəzetinin baş redaktorunun 1-ci müavini Azər Ayxan müxbirimizə bunları deyib:** "Azər Əsgərov bu iddiaları özünün facebook səhifəsində də yazırdı. Əli Kərimli və onun dəstəsinin qorxusundan heç bir qəzet onları yaymırdı. İndi nə edəydik, biz də bu dəstənin şərindən çəkinib, Azər Əsgərovun səsini duyurmayaydıq? Həm də bu yazını dərc edəndə öz aramızda dedik ki, "axa- ce - beçi -lər" Azər Əsgərovu da dərhal şərləyəcək və onu xain çıxaracaqlar... Bu cür də oldu... Əvvəllər bu işi təşkilatın ştatlı şərçiləri edirdilər. İndi Əli Kərimli özü oturub Feysdə, gözünə xoş gəlməyənlərə palçıq atır. O cümlədən də Azər Əsgərova və bizə. Ona yaxşılıq etmiş bir insanın faciəsi üzərindən bazarlıq edib, indi də istəyir ki, Azər Əsgərovun sayəsində qazandığını rahat yesin, heç kim bu barədə yazmasın. Bunu görməyəcək... "

**Azər Əsgərov isə musavat.com-a açıqlamasında AXCP sədrinin paylaşdığı statusla bağlı sensasion açıqlamalar verib:** "Əli bəyin fikirləri məni qane etsəydi, ona facebookda cavab verməzdim. AXCP üzvləri məni düşmən, satqın adlandırmağa başlayıblar. Qoy etsinlər. Onlarla işim yoxdur. Çünki qərargahımı Müsavata versəydim, həmin partiyanın üzvlərinə yox, başqanına müraciət edərdim. Mən Əli bəyə 5 bəndlə müraciət etmişəm. Həmin bəndlərin ikisinə cavab istəyirəm. Niyə hökuməti sevindirməliyəm ki? Hazırda işim məhkəmədədir. Sona qədər haqqımı tələb edəcəm. Vətəndaşlıqdan çıxmaq üçün də prezidentə müraciət etmişəm. Əli Kərimli, martın 4-dən bu yana sən nə etmisən? Deyirsən ki, cəbhəçilər hər zaman yanımda olub. Kim mənim yanımda olub ki, xəbərim yoxdur? Tutulduğum zaman şəkil çəkdirmişik. Gözəl Bayramlı başda olmaqla, 3 nəfər məhkəmə önünə cəbhəçi gəlmişdi. Onlara qarşı heç bir iradım yoxdur. İradım Əli Kərimliyədir. Deyirəm ki, sən neynəmisən? Bu suala cavab axtarıram. Gözəl xanım da əleyhimə status yazıb. Qoy yazsın. Onunla bir problemim yoxdur. Hökumətə satılsaydım, burada nə işim vardı? Gedərdim ailə, övladlarımın yanına. AXCP fəalları məni tənqid edirlər. Əli bəyi tənqid etdiyimə görə indi satqınam? Sadəcə olaraq, tənqidə açıq olmaq lazımdır. Əgər belə deyilsə, oldunuz YAP-ın tayı. YAP-da onları tənqid edənləri xain elan edir, sizlər də. Mülküm dağıdılıb. Haqqımı iqtidardan tələb etdiyim kimi, sizlərdən də tələb edirəm. Əmanətimi Əli Kərimliyə vermişəm. Mülk dağılan vaxt orada olardı. Niyə Əli Kərimli ora gəlmədi? Bütün Azərbaycan bilir ki, Əli bəy partlayış baş verəndən söküntü işləri olana qədər bir addım da atmayıb. Atmamısansa özün bilərsən. Bəs indi hansı siyasi addımları atırsan? Mənə sosial şəbəkədə müdafiə lazım deyil. Gündə bir səfirlik, təşkilatla görüşürsən. Hansında məsələmi qaldırmısan? Mənə dəyən ziyanı qabartmısan? Bütün bunları Gözəl xanıma da demişəm. O dediklərimi təsdiq edərək, düz olduğumu söyləyib. Adam başı aldatmaqla deyil ki".

**"Haqqımı iqtidardan tələb etdiyim kimi, sizlərdən də tələb edirəm. Əmanətimi Əli Kərimliyə vermişəm. Mülk dağılan vaxt orada olardı. Niyə Əli Kərimli ora gəlmədi?"**

**Mülk sahibi sosial şəbəkələrdə ona yazılan mesajlarda təhqir olunduğunu bildirdi:** "Mən siyasətlə məşğul olmuram. Mənə məktub yazıb deyirlər ki, siz satılmısınız. Mən niyə satılıram ki? Əli bəyin başmağının bir tayı götürülsəydi, indi dünyanı dağıtmışdılar".

**"Əli bəyi tənqid etdiyimə görə indi satqınam? Siz də oldunuz YAP-ın tayı. YAP da onları tənqid edənləri xain elan edir, sizlər də"**

**Azər Əsgərov verdiyi müsahibə görə tənqid atəşinə tutulan, şantaj edilən "Yeni Müsavat" qəzeti barədə bunları dedi:** "Mənə sizin qəzet zəng vurub, işin nə yerdə olduğu ilə maraqlanıb. Mən də demişəm. "Yeni Müsavat" müxalifət orqanıdır. Hər zaman belə bilmişəm. Bundan sonra da belə olacaq. "Yeni Müsavat"ın baş redaktoruna böyük hörmətim var. Çıxışlarını, yazılarını bəyənirəm. Əli bəy, Gözəl xanım bu qəzeti hökumətyönümlü sayır. Onlara müraciət edib deyirəm ki, sizlər üçün belə ola bilər. Amma mənim üçün "Yeni Müsavat" obyektiv, qərəzsiz müxalifət qəzetidir".

**"Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahid də facebook səhifəsində Azər Əsgərovun iddialarına cavab verərək, belə bir status paylaşıb:** "Azər bəyi aldadıblar ki, Əli Kərimliyə qarşı bəyanatlar ver, sənin pulunu verəcəyik. Təkrar edirəm, aldadıblar, sadəcə olaraq".

**Azər Əsgərov bu fikirlərlə də bağlı mövqeyini açıqlayıb:** "Qənimət Zahid kimdir? Dövlətə işləyir? O, "Azadlıq"ın redaktorudur. Qaçıb gedib xarici ölkəyə. Dövlətə işləyirsə, mənə kompensasiya verilib-verilməyəcəyini bilməlidir. Kim nə yazırsa, yazsın. Mənə "agent", "xain", "satqın" və başqa sözlər deyə bilərlər... Mirzə Sakitin onlar barədə dedikləri doğrudur... Onları qızışdırırlar, ağıllarına gələni yazırlar. Onları əvvəllər tanımamışam. İlk dəfə mülkümü Rəsul Quliyevin partiyasına vermişdim, sonra da bunlara. Kirayə vermişdim. Şükür etsinlər ki, yaxalarından tutub mülkümü tələb etmirəm. Mənə 3 min manat təklif etdilər ki, onlara sərf edən məktubu oxuyum. Amma imtina etdim. Pul düşkünü olsaydım, çoxdan almışdım. Bunu hər kəs qəşəng düşünsün. Söz alsaydım, onları partlayış olmamış qərargahdan çıxarardım. Çünki dəfələrlə mənə təhdid gəlmişdi. Mənə deyilən sözün hər biri şər-böhtandır. Onların özləri belə anlaşmaya vaxtilə getdiklərinə görə, indi mənim haqqımda deyirlər. Elə zənn edirlər ki, hamı bunların özü kimidir".

**"Şükür etsinlər ki, yaxalarından tutub mülkümü tələb etmirəm. Mənə 3 min manat təklif etdilər ki, onlara sərf edən məktubu oxuyum"...**

**Qəzetimiz yazıda adları çəkilən hər bir kəsin mövqeyini dərc etməyə hazırdır.**

❑ Cavanşir ABBASLI

# QHT rəhbərləri Obamanın çıxışından ürəklənib

**ABŞ prezidenti Barak Obamanın sonuncu çıxışı zamanı Azərbaycanda qeyri-hökumət təşkilatlarının vəziyyətindən narahatlıq ifadə etməsi ümidləri artırıb. Vəziyyətləri o qədər də yaxşı olmayan QHT-lər bu çıxışdan sonra vəziyyətin düzələcəyini güman edirlər.**

Qeyd edək ki, ABŞ prezidenti Barak Obama Klinton Qlobal Təşəbbüsünün illik sessiyasındakı çıxışı zamanı ölkəmizdəki QHT-lərin fəaliyyətinin çətinləşdiyini vurğulayıb...

Vətəndaş cəmiyyətinin inkişafına həsr olunmuş çıxışında Obama avtoritar cəmiyyətlərdə müxalif fikirli insanların, fəalların məqsədyönlü şəkildə hədəfə alındığını qeyd edib. Onun sözlərinə görə, rejimlər bu cür basqılarla cəmiyyətin inkişafının qarşısını alır, onu azadlıqdan məhrum edir və insanların rifahına əngəl olur. Həbs olunan vətəndaş cəmiyyəti fəallarının dərhal azadlığa buraxılmasına səsləyən Ağ Ev başçısı sivil cəmiyyətə basqıları demokratiyaya hücum kimi dəyərləndirib və deyib ki, demokratiyanı gücləndirmək üçün daha güclü kampaniyaya ehtiyac var.

Ekspertlər isə məlum çıxışda Azərbaycanın adının ayrıca vurğulanmasının çox ciddi bir məsələ olduğunu deyirlər. Obamanın dedikləri çox ciddi və sərt ittiham hesab edilir. Bildirilir ki, bu çıxışla Azərbaycana ABŞ-ın və dünyanın birinci şəxsi tərəfindən sərt şəkildə mesaj verilib və Azərbaycan hakimiyyəti bunu ciddi şəkildə düşünməlidir. Həmçinin bu çıxışın Avropa Parlamentinin sanksiya hədələrindən sonra olması da ciddi düşünməyə əsas verir. Qısası, ekspertlərin fikrincə, Azərbaycana qarşı müəyyən sanksiyaların tətbiqi də istisna deyil.

**QHT rəhbərləri B.Obamanın çıxışından sonra vəziyyətin yaxşılığa doğru dəyişəcəyini güman edirlər. İqtisadçı Vüqar Bayramov bildirir ki, bu çıxışdan sonra vəziyyətin yaxşılaşacağını gözləyirlər:** "Gözləyirik ki, vəziyyətin yaxşılaşması istiqamətində addımlar atılsın. Heç bir ölkənin vətəndaş cəmiyyəti olmadan inkişafı mümkün deyil. Azərbaycan hökuməti də ümid edirəm ki, bu çətinliklərin aradan qaldırılması ilə bağlı addımlar atılmasının tərəfdarıdır. Biz hökumət qurumları ilə, həmçinin beynəlxalq təşkilatlarla bu istiqamətdə, QHT-lərin durumunun yaxşılaşması istiqamətində danışıqlar aparırıq. Problemlərin yaxın zamanlarda aradan qaldırılacağı və həll ediləcəyinə ümidimiz var". **O bildirir ki, problemlər dövlətə aid olmayan subyektlər tərəfindən də yaradılır. Məsələn, banklar QHT-lərin hesablarının saxlanma xərclərini bir neçə dəfə artırıb:** "Biz həmçinin qrant layihələrinin elektron qeydiyyatı ilə bağlı müraciətlər etmişik. Həmçinin QHT-lərin qeydiyyatının asanlaşdırılması ilə bağlı istək var".

**İqtisadçı Qubad İbadoğlu isə qeyd edir ki, Obamaya qədər də kifayət qədər bu məsələyə münasibət bildirilmişdi. Bu münasibətlər çox müxtəlif, fərqli ölçülü və məzmunlu idi.** "Hər halda, Azərbaycanla bağlı vəziyyəti Obamanın dəyərləndirməsi artıq bu məsələnin Azərbaycan üçün ən yüksək səviyyədə təzyiqin olması deməkdir. Düşünürəm ki, müəyyən dərəcədə Azərbaycan-Amerika münasibətlərinin rolunu dəyərləndirənlər daha məsuliyyətli qərarlar qəbul etmək məcburiyyətində qalacaqlar. Bu məsələyə hakimiyyət daxilində də fərqli münasibət var. Bu çıxış yalnız Azərbaycan vətəndaş cəmiyyətinə dəstək deyil. Həm də hakimiyyətin daxilində olan və bu məsələyə münasibətdə normal, fərqli mövqe tutan qruplara da dəstəkdir". **Onun sözlərinə görə, bu baxımdan müəyyən mənada qərarların ciddiliyi də məsuliyyəti artıracaq:** "Amma nəyinsə güclü şəkildə dəyişəcəyinə yaxın zamanda inanmıram. Artıq vətəndaş cəmiyyəti güclü zərbə alıb. QHT rəhbərlərinin bir qrupu ölkəni tərk edib, bir qrupu həbsdədir, bir qrupuna cinayət işi açılıb, bəziləri mövqesiz fəaliyyətə keçib, bir qismi də gözləmə mövqeyindədir, proseslərə heç bir münasibət bildirmir. Bu səbəbdən vətəndaş cəmiyyətinin əvvəlki səviyyədə gücünü bərpa etmək mümkün deyil".



**Qubad İbadoğlu:**
"Bu, Azərbaycana ən yüksək səviyyədə təzyiqdir"



**Mirvari Qəhrəmanlı:**
"Azərbaycanın müvafiq qurumları bu vəziyyətdən ciddi nəticə çıxartmalı, normal qərarlar verməlidir"

**Qeyd edək ki, hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı da Obamanın qərarının ciddiliyinə diqqət çəkib. Onun fikrincə, Azərbaycanda bir çoxları hələlik Obamanın çıxışının çox ciddi olduğunu anlamır:** "Bundan əvvəlki sanksiya xəbərdarlıqları və ABŞ liderinin çıxışı ölkənin imicinə çox ciddi təsir edəcək. Belə mövqelər ölkədə demokratiyanın taleyinin sual altında olduğunu göstərir. Obamanın mövqeyi Avropadan gələn çağırışların, Azərbaycandakı vəziyyətin daha ciddi olduğunu təsdiq etdi. Yəqin ki, bundan sonra sanksiyaların tətbiqi gələcək. Sadəcə, ölkə iqtisadiyyatına ziyan vuracaq sanksiyaların tətbiq olunmasının əleyhinəyəm". **M.Qəhrəmanlı ABŞ prezidentinin bəyanatına normal yanaşmanı zəruri sayır:** "Obamanın mövqeyi indiyə qədər verilən bəyanatların nida işarəsidir. Azərbaycanın müvafiq qurumları bu vəziyyətdən ciddi nəticə çıxartmalı, normal qərarlar verməlidir".

❑ **Röya RƏFİYEVA**

# Hakimiyyətin dünyaya qarşı savaşı davam edəcəkmi?

**Hakimiyyət hamıya qarşı qəzəbli görünür. Bu kurs özünü həm daxili, həm də xarici siyasətdə büruzə verir. Rəsmi Bakı dünyanın aparıcı ölkələri ilə qarşıdurma vəziyyətindədir.**

SSRİ-ni bərpa etməyi qarşısına məqsəd qoyan Rusiya prezidenti Vladimir Putinin MDB-yə yönələn aqressiv kursu ilə Bakının qarşısında seçim qoymur. Kreml Azərbaycanı ram etmək istəyir.

Lakin Qərb təşkilatlarının rəsmi Bakıya yönələn təhdidləri hakimiyyəti daha əsəbi edib. İqtidar hamıya qarşı əsəbilik nümayiş etdirir - Qərbə, müxalifətə, mətbuata, Rusiya və İrana.

İlk baxışdan görünən odur ki, rəsmi Bakı hamı ilə düşmən olmağı qarşısına məqsəd qoyub. Lakin hamını bir sual düşündürür - Bakı diplomatiyasının istiqamətini dəyişəcəkmi və seçim Rusiya, yoxsa Qərbə tərəf olacaq?

Belə vəziyyət yeni deyil. Son 20 ildə belə siyasət davam edib. Lakin rəsmi Bakı konkret seçim etməyib. Zaman-zaman rəsmi Bakı ABŞ, İran, Rusiya və Avropa ilə münasibətlərini dondurmaq həddinə qədər gəlib. Azərbaycanın Qərb qarşısındakı öhdəliklərinin bir qismi hələ də yerinə yetirilməmiş qalır.



Qərb təşkilatları birmənalı şəkildə bəyan edir ki, islahatlar həyata keçirmədən Avropa ailəsi ilə yaxın tərəfdaşlıq mümkün olmayacaq. Ancaq Bakı ümid edirdi ki, Avropa enerji amilinə görə islahatlar şərtində israr etməyib onu özünə tərəfdaş kimi qəbul edəcək. Bu isə baş vermədi. Avropadan demokratiya tələbləri gəlməyə başladı.

Rusiya isə demokratiya müstəvisində heç bir tələblə çıxış etmir. Bu amil rəsmi Bakı üçün Rusiyanı daha cəlbedici edir. Lakin istənilən halda Rusiya məğlub tərəfdir. Bakının Rusiyanın yanında olması imkansız görünür.

Fəqət Qərblə mövcud problemlər Bakını Moskvaya doğru addım atmağa sövq edir.

Avropa Parlamenti bu günlərdə qəbul etdiyi qətnamədə isə artıq rəsmi şəkildə insan haqlarını pozan Azərbaycanı sanksiyalarla hədələyib. Buna baxmayaraq, hakimiyyət öz siyasi kursundan imtina etmədi və Qərbə qarşı açıq çıxış etməyə başladı.

Göründüyü kimi, Bakının Qərb və Moskva ilə problemləri var. Geosiyasi maraqlar Qərbi seçməyi labüd edir.

Digər tərəfdən, Qərb Azərbaycanla bağlı tələblərində heç bir zaman ardıcıl olmayıb. Vaşinqton və digər "demokratiya paytaxtları"nın səbatsız siyasi kursu avtoritarizmin möhkəmlənməsinə səbəb olub. Lakin Qərb heç bir zaman öz əsas silahından - "demokratiya dəyənəyi"ndən o qədər uzaq düşməyib.

Siyasi məhbuslar, söz azadlığı problemi rəsmi Bakı üçün həmişə baş ağrısı yaradıb. Lakin Qərb prioritetlərini müəyyən edərkən öncə enerji maraqlarına, daha sonra sabitlik məsələlərinə, bütün bunlardan sonra isə demokratiya tələblərinə üstünlük verib. Bütün bunlara baxmayaraq, Qərb Azərbaycanda siyasi məhbusların azad olunması, mətbuatın boğulmasının qarşısının alınması istiqamətində addımlar da atıb.

Bütün tənqidlərə baxmayaraq, Qərb Azərbaycan üçün əlverişli tərəfdaşdlr. Bunu hakimiyyət də anlayır və Qərbə qarşı demarşlar yalnız müvəqqəti xarakter daşıyır...

❑ **Azər RƏŞİDOĞLU**

# Yorğun demokratlar...



**Hüseynbala SƏLİMOV**

**Adam heç bilmir nədən başlasın. Sözsüz ki, həftənin hadisəsi Azərbaycanda QHT-lərin yaşadığı problemlərin ABŞ prezidentinin dilindən eşidilməsidir və bu hadisə ola bilsin ki, bizim hakimiyyətə çəkindirici təsir göstərəcək, hərçənd ki, mən buna bir o qədər də inanmıram.**

Ona görə ki, hədsiz dərəcədə böyük, qeyri-məhdud hakimiyyət bir gün elə bir səviyyəyə gəlib çatır ki, bu hakimiyyəti təmsil edən insanlar reallıq hissini tamamilə itirirlər.

Mən bu simptomu Rusiyadakı, eləcə də Azərbaycandakı hakimiyyətin timsalında hiss etmişəm. Elə bu səbəbdən də bu haqda çox danışmaq, yazmaq istəmirəm. Onsuz da hər şey aydındır. Azərbaycandakı proseslər o qədər bəsit, o qədər primitivdir ki, bu xüsusda yazılanları, deyilənləri yalnız C.Cabbarlının personajı Məmmədəli bəy kimi nihilistlər inkar edə bilər...

Amma qarşıdan başqa bir hadisə də gəlir. Hər ilin sonunda Nobel mükafatları təqdim olunur. Düzdür, bundan bizim gözləntimiz yoxdur-azərbaycanlılar hələ belə yüksək intellektual səviyyəyə qalxmayıblar...

Sadəcə, hər il Nobel mükafatı təqdim olunanda mənə elə gəlir ki, bəşəriyyət bir boy da ucalır.

Düzdür, idman da böyük hadisədir. Amma insan digər canlı aləmdən özünün fiziki göstəricilərilə deyil, intellektual keyfiyyətləri ilə seçilib, fərqlənib. Elə məhz buna görə də intellektual göstəricilərə maraq daha böyükdür.

Bilirəm, Nobel mükafatları təqdim olunanda bizimkilər yenə başlayacaq ki, bəs bizim neftimiz elə gəldi, belə getdi... Məsələ bundadır ki, Nobel həmin bu mükafatı öz biznesindəki uğurlarına kiməsə minnətdarlıq üçün deyil, böyük elmi kəşflər üçün təsis edib...

Nə isə. Bu haqda da çox yazmaq lazım deyil, ona görə ki, bizim jurnalistlər və xüsusən də tele-aparıcılar öz bildiklərini çağıracaqlar...

Amma bizimkilər üçün də xoş xəbər var. O gün oxudum ki, bizim bir neçə hüquq müdafiəçimiz A.Saxarov mükafatına namizəd kimi irəli sürülüb. Heç bu mükafat da önəmsiz deyil...

Beləliklə, hərləndik, fırlandıq, yenə də gəldik insan haqlarına, hüquq müdafiə proseslərinə. Bəlkə də bu yeganə sahədir ki, mən də razılaşaram ki, bəli, bizdə də belə hüquq müdafiəçiləri var...

Niyə də onlara mükafat verilməsin? Düzdür, hüquq müdafiəsi bir qədər mübahisəlidir. Amma bütün böyük işlər mübahisəli olmurmu? Təbii ki, bütün səviyyəli mübahisələr də heç vaxt mənasız bir şey üstündə olmur...

Mən QHT-lər haqqında yazanda bəlkə kimsə düşünür ki, yəqin o, da bu sektordandır, yəqin, hər ay da qrant alır. Amma qətiyyən belə deyil, heç bir QHT-ni təmsil etmirəm, heç bir vaxt da qrant almamışam. Mənim bu sektorla bağlı özəl münasibətim və özəl fikirlərim var. Amma düşünürəm ki, QHT-lər lazımdır. Eləcə də müxalifət partiyaları olmalı və fəaliyyət göstrəməlidir...

Biz nəyisə təkcə ona görə müdafiə etməməliyik ki, onda bizim hansısa marağımız var. Yox, bunu ümumi iş xatirinə etmək lazımdır. Axı bizim həm də ümumi maraqlarımız var- bu ölkədə demokratiyanın heç olmasa, rüşeymlərini qoruyub saxlamaq lazımdır...

"Yorğun demokrat" nəğməsini xatırlayırsınızmı? Hamımız yorğunuq, bir az yorulmuşuq. Amma təslim olmaq da olmaz. Hər kəs demokratiya üçün kiçik də olsa, bir addım atsa, bir də görərik ki, ölkədə böyük dəyişikliklər başladı...

Həyatda böyük ideyaların, böyük amalların da önəmi var. Demokratiya elə bir böyük ideyadır ki, siz həmişə fəxrlə "Həyatımı demokratiyaya həsr etdim" deyə bilərsiniz və buna görə xəcalət də çəkməzsiniz...

Bu yaxınlarda bir nəfər söhbətdə dedi ki, Avropa demokratiyası gözümdən düşüb. Nə demək olar? Bəli, müasir, xüsusən də post-liberal demokratiyanın elə tərəfləri var ki, o, şərqli insanı bir az çəkindirir...

Amma Avropa ilə Şərq dünyasının fərqi bilirsiniz nədədir? Avropada olan və bizi bir az ehtiyatlandıran şeylərin demək olar ki, hamısı Şərqdə də var. Təkcə bir fərq var - Avropada hər şey aşikardır, bizdə isə gizlin...

Biz çox vaxt özümüzü aldadırıq. Bizə elə gəlir ki, gizlində olan şeylər guya ki, heç yoxdur. Amma belə deyil axı! Əslində onlar var. Sadəcə, biz onları leqallaşdırmağı sevmirik...

Avropada da isə hər şey fərqlidir. Fransa inqilabı zamanı, İnsan və Vətəndaş haqları Bəyannaməsində yazılmışdı ki, qadağan olunmayan icazəlidir. Bəli, bu kontinent belə bir prinsiplə yaşayır...

Biz də belə bir dövrə gəlib çatacağıq. Sadəcə, zaman lazımdır. O vaxta qədər isə yorulanda "Yorğun demokrat" nəğməsini dinləyin...

YENİ MÜSAVAT
N 240 (5948) 26 sentyabr 2014



# XİN-dən Kəlbəcər əsirləri ilə bağlı açıqlama

## Sabiq daxili işlər naziri isə beynəlxalq təşkilatları gözləməməyə çağırdı

**"Biz Kəlbəcərdə əsir götürülmüş vətəndaşlarımızın qaytarılması üçün bütün beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırmışıq. Məsələnin tezliklə həlli üçün bütün səylər gücləndirilib. Bütün imkanlarımızı səfərbər etmişik. Hətta Azərbaycanda bu işə aidiyyəti olan digər təşkilatlar və beynəlxalq qurumlar da bizimlə birgə çalışırlar".**

Bunu hafta.az-a açıqlamasında Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib. XİN sözçüsü məsələnin tezliklə həll olunacağına ümid etdiyini bildirib: "Şaxələndirilmiş şəkildə aparılan gərgin işlərin sonunun müsbət olacağına inanırıq".

XİN sözçüsünün bildirdiyinə görə, bu məsələdə ermənilərlə birbaşa əlaqə qurmaq mümkün deyil: "Ermənistan işğalçı dövlətdir. Biz onlarla birbaşa əlaqəyə keçmirik. Ancaq vasitəçilərin köməyi və bizim səylərimizlə əsirlərimizin qaytarılmasına çalışırıq. Ermənistan bu məsələdə də Cenevrə insan haqları nizamnaməsini, eləcə də bütün hüquqi normaları kobud şəkildə pozur".

**H. Hacıyev həmçinin vurğulayıb ki, bu insanlar beynəlxalq hüquqda heç bir qanunla mühakimə oluna bilməzlər:** "Onlar öz doğma torpaqlarına ata-babalarının qəbrini ziyarətə gediblər. Burada heç bir günah və cinayət əməli yoxdur. Bu, onların sivil haqlarıdır. İnanırıq ki, vətəndaşlarımız tezliklə ailələrinə qovuşacaqlar".

**Əslən Kəlbəcərdən olan sabiq daxili işlər naziri İsgəndər Həmidov** isə işğalçı Ermənistanın Həsən Həsənovun cəsədini, Dilqəm Əsgərovu və Şahbaz Quliyevi tezliklə geri qaytarmasının yeganə yolunun Azərbaycanın bir qrup erməni hərbçisini ələ keçirməsi olduğunu bildirir. "Yeni Müsavat"a açıqlamasında İsgəndər Həmidov dedi ki, Dilqəmgilin əsir götürüldüyü barədə xəbər yayılan gün ortaya qoyduğu mövqenin üstündə hələ də qalır: "İşğalçıların əsir götürdüyü həmin qardaşlarımızı azad etmək üçün Azərbaycan əməliyyat həyata keçirərək bir neçə erməni hərbçisini ələ keçirməlidir. Həmin girovları Dilqəmgillə dəyişməlidir. Ermənistanı bu cür fakt qarşısında qoymalıyıq ki, onlar əsirləri dəyişmək məcburiyyətində qalsınlar. Hansısa beynəlxalq təşkilatın o əsirləri geri qaytaracağını gözləmək 20 ildir Qarabağın qaytarılacağını beynəlxalq qurumlardan gözləmək kimidir. Beynəlxalq təşkilatları gözləmək Dilqəmlə Şahbazın həyatı bahasına başa gələ bilər. Keçən həftə yayılan şəkillərindən də görünür onların durumu. Nə qədər ki, onlar həyatdadır, bizim Dilqəmgili mənim yuxarıda dediyim variantla azad etməyimiz lazımdır. Azərbaycan dövləti vaxtı bundan sonra da boşuna verməməlidir, sonra gec ola bilər".

Qeyd edək ki, Dilqəm Əsgərov, Şahbaz Quliyev və Həsən Həsənov iyulun əvvəllərində ermənilər tərəfindən Kəlbəcərdə girov götürülüb. Ermənilər H.Həsənovun öldürüldüyünü deyirlər. Yaxınlarının məzarını ziyarət etməyə gedən və düşmənə əsir düşən azərbaycanlılar haqqında cinayət işi açıldığı iddia edilir.

❑ **Etibar SEYİDAĞA**



# Ölümdən qurtulan dissident "Yeni Müsavat"a danışdı

## Nadir Ağayev: "Beşbarmaqla başıma vurublar"
## Ehsan Zahidov: "Hazırda Binəqədi Rayon Polis İdarəsində araşdırmalar davam etdirilir"

**Musavat.com-un xəbər verdiyi kimi, sentyabrın 24-də saat 15 radələrində QAT-ın Ağsaqqallar Şurasının üzvü, 18 il sovet zindanlarında cəza çəkmiş Nadir Ağayev yaşadığı Binəqədi rayonu, 6-cı mikrorayon ərazisində, evinin qarşısında naməlum şəxslərin hücumuna məruz qalıb.**

**QAT sədri Akif Nağının sözlərinə görə, N.Ağayevə başının sağ hissəsindən küt dəmir alətlə ağır zərbə vurulub:** "Güman olunur ki, bu, beşbarmaq olub. Nadir Ağayev huşunu itirib yıxılarkən divara dəyib. Bu zaman başının sol hissəsi də yaralanıb, qulağı cırılıb". A.Nağı bildirib ki, hadisə yerinə dərhal təcili yardımın həkimləri gəlib və onu xəstəxanaya aparıblar. N.Ağayevin başına 9 yerdən tikiş qoyulandan sonra ambulator müalicə üçün evinə buraxılıb. QAT sədrinin sözlərinə görə, Binəqədi Rayon Polis İdarəsində hadisə ilə bağlı cinayət işi açılıb. İlkin olaraq N.Ağayevdən zərərçəkən kimi izahat alınıb. A.Nağı deyib ki, N.Ağayev hadisədən az əvvəl QAT-ın ofisində olub. Evə çörək alandan sonra yenidən qayıdacağını deyərək çıxıb. 2 saat sonra onun gəlmədiyini görüb zəng ediblər və məlum olub ki, hadisə baş verib. Şahidlərin dediyinə görə, hadisəni 3 nəfər törədib, 2 nəfər kənarda, bir nəfər isə onu blokda gözləyib: "Polislər kameralara baxdıqlarını deyib və az vaxtda cinayətkarları tapacaqlarına söz verib".

**QAT-ın hadisə ilə bağlı yaydığı bəyanatda göstərilir ki, sovet dövründə olmazın əzablar çəkmiş ahıl bir insana qarşı bu hərəkət vəhşilikdir:** "Hesab edirik ki, bu hadisə onun ictimai fəaliyyəti ilə bağlıdır və cinayəti törədənlər dərhal tapılıb cəzalandırılmalıdır".

77 yaşlı dissident Nadir Ağayev özü isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ağlına gəlməyən hadisə ilə üzləşib: "Saat 12 radələrində evdən çıxıb QAT-ın yaxınlıqdakı ofisinə getdim, Akif Nağı ilə görüşdüm, 10 dəqiqə söhbət elədik. Çıxdım ki, çörək alıb evə gəlim. Bizim bloklara dəmir qapılar qoyublar, elə qapını açıb içəri girmişdim ki, sağ gicgahımdan bir zərbə vurdular. Huşumu itirdim. Ayıldım ki, evdə divana uzadıblar, ev adamla doludur. Təcili yardıma gələn həkim dedi ki, hökmən xəstəxanaya aparmalıyıq, yaralara tikiş qoyulmalıdır. 9 tikiş başımda, 7-si qulağımdadır. Yıxıldığım yer, köynəyim qan içində idi. Dərhal polislər də gəldi, izahat aldılar. Daha sonra 7-ci bölmənin rəisi Ceyhun Hüseynov polis vasitəsilə mənimlə də danışdı, dedi biz də gəlirik, söhbət edək. Bundan sonra məni evə gətirdilər, 4 nəfər polis də gəldi, nə baş verdiyini soruşdular, izahat aldılar. Dedim, vallah, mənim heç kimlə nəfərlə düşmənçiliyim yoxdur. Amma iki nəfərdən şübhələnirəm".

N.Ağayev dedi ki, 18 il çəkdiyi zülmlərlə bağlı xeyli müraciətlər edib: "1992-ci ilin əvvəlində əməllərimdə cinayət tərkibi olmadığıma görə tam bəraət almışam. Layihə İnstitutuna mənə dəymiş ziyanın ödənilməsi barədə rəsmi məktub gəlib. İnstitut da təsərrüfat hesabına işlədiyinə görə bu ziyanı ödəyə bilmir. Ali Məhkəmənin o dövrkü sədri Xanlar Hacıyev 1994-cü ildə o vaxt dövlət müşaviri olan Arif Rəhimzadəyə yazıb ki, ziyan dövlət səviyyəsində ödənilsin. İndiyədək məsələ həll olunmamış qalır".

**Dissident dedi ki, ağrılardan başını sağ-sola döndərə bilmir:** "Səhərədək düz uzanmışam. Məni məhkəmə tibb ekspertizasına aparacaqlar, gözləyirəm. Şübhələndiyim iki adam var, amma istintaq sirri olduğundan ad çəkmək istəmirəm. Yüz faiz əminəm ki, məni beşbarmaqla başıma vurublar. Adətən mən həyətdə oturana, arxamca gələndə fikir vermirəm. Qonşular deyir son günlər 3 nəfər naməlum şəxs gəlib həyətdəki skamyada saatlarla oturub gedirdi. Mən vurulan gün isə 4 nəfər olublar. Axşam qonşu gedib soruşsun ki, axı siz kimsiniz, çıxıb gediblər. Mən vurulandan sonra vuran adam dəmir qapını çırpıb həyətdən çıxıb. Qonşu çıxıb ki, səsin nə olduğunu öyrənsin, inilti səsini eşidib, gəlib görüb məni vurublar. Başqa şübhəli məqam da var. "JEK"in müdirinin katibəsi zəng edib qonşuların birindən soruşub ki, Nadirin oğlu harda işləyir. O da deyib məndən niyə soruşursan, özünə zəng elə də. Yalvarıb ki, bunu heç kimə demə, mənə icra hakimiyyətindən deyiblər ki, öyrənim. Mən heç bilmirəm icra başçısı kimdir, harda oturur".



**Keçmiş baş prokuror, Sosial Ədalət Partiyasının sədri Mətləb Mütəllimli isə N.Ağayevi ziyarət edəndən sonra moderator.az-a deyib ki, onun başında 4-5 barmaq izləri var idi:** "Belə görünürdü ki, onu beşbarmaqla vurublar. Onun üzünün sağ nayihəsində beşbarmağın yerləri aydın görünür. Gicgah nahiyəsindən vurulub, bu zərbə adətən öldürmək üçün vurulur. Müayinə zamanı bəlli olub ki, sağ almacıq sümüyündə də 3-4 santimetr çat var. Hazırda evdə müalicə alır. Biz də onu ziyarətə gedəndə sistem köçürürdülər".

**M.Mütəllimliyə görə, onu siyasi baxışlarına görə cəzalandırıblar:** "Əsas səbəblərdən də biri onun uzun illər ərzində davamlı olaraq hökumətə müraciət edərək qanunsuz olaraq uzunmüddətli həbs yatdığına və sonradan bəraət aldığına görə kompensasiya tələb etməsidir. Onun bu məzmunlu son müraciəti də bir neçə gün öncə olub. Həm kompensasiya istəyinə, həm öz saytında vaxtaşırı tənqidi yazılarına görə. Nəzərə almaq lazımdır ki, o, yaşlı bir insandır, səhhətində də kifayət qədər problemlər var, ağır şəkər xəstəsidir. Zarafat deyil, sovet vaxtı bu adam 18 il zindanlarda zülm çəkib. Belə bir insanı fiziki yolla aradan götürmək istəyiblər".

**DİN-in mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov "Yeni Müsavat"ın sorğusuna cavab olaraq aşağıdakıları bildirdi:** "Nadir Ağayevin hansı küt alətlə vurulmasına tibbi ekspertizanın rəyindən və istintaqın araşdırmasından sonra daha dəqiqliklə aydınlıq gətiriləcək. Bu barədə polisə məlumat daxil olan kimi operativ reaksiya verilib, hadisə yerinə gedilib. Hazırda Binəqədi Rayon Polis İdarəsində araşdırmalar davam etdirilir. Onu vuranın şəxsiyyətinin müəyyən olunması və yaxalanaraq istintaqa cəlb olunması istiqamətində zəruri tədbirlər həyata keçirilir".

❑ **E.PAŞASOY**

# 2 saylı Bakı Peşə Liseyinin müəllimləri işsiz qala bilər

## "Liseyimizə hələ də dərs planı verilməyib"

**2 saylı Bakı Peşə Liseyinin pedaqoji-mühəndis kollektivi redaksiyamıza şikayət məktubu yollayıb. 34 nəfərin imzaladığı məktubda şikayətçilər hələ də liseyə dərs planının verilməməsindən şikayətlənir: "Biz 2 saylı Bakı Peşə Liseyinin pedaqoji-mühəndis kollektivi yeni dərs ili başlanandan təlatüm içindəyik. Dərs ilinin başladığı ilk günü eşitdik ki, hazırda çalışdığımız 2 saylı Bakı Peşə Liseyinə qəbul planı verilməyib.**

Hər kəsə məlumdur ki, əgər tədris ilində qəbul planı verilməzsə, müəllimlərin bəzilərinə dərs verilməyəcək. Biz rəhbərlikdən bu məsələni dəqiqləşdirmək istəsək də, bir məlumat ala bilmədik. Ona görə də sentyabrın 18-də Təhsil Nazirliyinə getdik. Çətinliklə də olsa, nazirliyin nümayəndəsi Namiq Məmmədovun qəbuluna düşə bildik. Namiq Məmmədov bizə bildirdi ki, nazirlik olaraq iş planımızı düzgün qura bilmədiyimizə görə sizə vaxtında məlumat ver bilməmişik. Ancaq nazirlikdən hazırda liseyin 2-3-cü kurslarında təhsil alan və bu il qəbul olunan şagirdlərin taleyi barədə bizə heç bir məlumat verilmədi. Liseyimizdə hazırda 48 mühəndis-pedaqoji işçi çalışır və 9 qrup təhsil alır. Onların əksəriyyəti aztəminatlı ailələrdən, məcburi köçkün ailələrindən və uşaq evlərindən gələnlərdir. Biz keçən tədris ili boyunca və yay tətilində mütəmadi olaraq orta məktəblərlə əlaqə saxlayıb şagird qəbulu üçün sənəd toplamışıq. Fənn kabinetlərimizi rəhbərliyin köməkliyi və öz vəsaitimiz hesabına təmir etdirib yeni dərs ili üçün hazır vəziyyətə gətirmişik. Əgər bizə yeni tədris ili üçün şagird planı verilməsə, müəllimlərin və istehsalat təlimi ustalarının işsiz qalma ehtimalı var. Bir sözlə, liseyə iş planının



verilməməsi 50 nəfərdən çox insanın işsiz qalmasına səbəb olacaq".

Şikayətçilər sonda prezidentə müraciət edərək liseyin və onların taleyinə biganə qalmamağı xahiş ediblər.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 240 (5949) 26 sentyabr 2014

# Azərbaycanlı oliqarxa dalbadal ağır zərbələr

**Azərbaycanlı oliqarx, "Bağlan Group" şirkətinin "Hafka" ləqəbi ilə tanınan prezidenti Hafiz Məmmədovla Britaniyada aldığı "Sheffield Wednesday" klubu arasında ciddi problemlər yaşandığı sənədlərlə öz təsdiqini tapıb. H.Məmmədov bu klubun prezidenti, serb əsilli iş adamı Milan Mandariçə "Sheffield Wednesday"ı 35 milyon funt-sterlinqə ona satmağı təklif edib.**



Onlar arasında gedən danışıqlardan sonra razılaşma əldə olunub. Alqı-satqı və sponsorluq müqaviləsi bağlansa da, sonradan H.Məmmədov bu məbləği ödəməkdən imtina edib. Qarşı tərəf isə onu London məhkəməsinə verib. Futbolpress.az saytı həmin məhkəmə sənədlərinin üstünü açıb və "Hafka" haqqında yayılan iddiaların doğru olduğunu aşkara çıxarıb.

"Hafka" məlum müqaviləni pozduğuna görə 2014-cü il sentyabrın 1-də "Sheffield Wednesday"ın vəkili Çarlz Makkenzi Tomsun tərəfindən London Ali Məhkəməsinin nəzdində Hakimlər məclisi bölməsinin Ticarət Məhkəməsinə verilib.

# "Hafka"nın şok məhkəmə dosyesi mətbuata sızdırıldı - iddialar gerçəkmiş!

## İş adamı Hafiz Məmmədov London məhkəməsinə verildi; aldığı ingilis futbol klubunu aldadaraq vəd etdiyi pulu ödəməyən biznesmen külli miqdarda cərimələnə bilər; Fransa klubu isə onu Beynəlxalq Maliyyə Tribunalına verməkdə qərarlıdır

Vəkilin məhkəməyə təqdim etdiyi iddiadan aydın olur ki, məhkəmədə iddiaçı "Sheffield Wednesday Football Club LTD", cavabdeh isə H.Məmmədovun Bakı şəhəri M.F.Axundov 179 ünvanında yerləşən "KSM Azerbaijan" MMC-dir. Çünki klubun H.Məmmədova satılması ilə bağlı alqı-satqı və sponsorluq müqavilələri bu iki qurum arasında bağlanıb. Bu müqavilələrin şərtlərinə görə, H.Məmmədov kluba alqı-satqı üçün 35 milyon, sponsorluq müqaviləsinə əsasən isə işləmə kapitalı kimi 1 milyon funt-sterlinq ödəmək öhdəliyi götürüb. "Hafka" bu məbləğləri iki dəfəyə, ilk hissəni 2014-cü ilin 6 iyunundan əvvəl, ikinci hissəni isə 6 avqustundan əvvəl ödəyəcəyini bildirib.

Ancaq xeyli müddət keçməsinə baxmayaraq, bu öhdəliyi yerinə yetirməyib. Qarşı tərəf Bakıya, H.Məmmədovun şirkətinə bu öhdəliyin yerinə yetirilməsi ilə bağlı tələbnamə göndərsə də, onlara heç bir cavab verilməyib.

Vəkil yazır ki, onların H.Məmmədovun "KSM Azerbaijan" MMC şirkətinin axtarışları zamanı məlum olub ki, bu şirkət Bakıda daha bir neçə ünvanda qeydiyyatdan keçib və tələbnamə bütün ünvanlara göndərilib. Ancaq nəticəsi olmayıb. Bundan sonra "Sheffield Wednesday Football Club LTD" müqaviləni pozub və H.Məmmədovu məhkəməyə verib. Şirkət London məhkəməsinə müraciətini bununla izah edir ki, "Sheffield Wednesday" futbol komandası bu şirkətin tərkibində olmaqla İngiltərə və Uelsdə fəaliyyət göstərir. Həm də hadisə İngiltərə və Uels ərazisində baş verdiyindən məsələ İngiltərə qanunlarının predmeti sayıla bilər.

Buna görə də şirkət hesab edir ki, iddianın təmin olunması üçün İngiltərə məhkəmələri ən düzgün seçimdir.

Vəkil bildirib ki, "SWFC Ltd" daim müqavilənin şərtlərinə uyğun davranıb və KSM öz öhdəliklərini yerinə yetirmədiyinə görə ziyana uğrayıb. Buna görə də, şirkət ona dəyən zərərin ödənilməsini tələb edir.

Göründüyü kimi, H.Məmmədovun vəziyyəti yaxşı deyil və onun götürdüyü öhdəliyə əməl etməməsinə görə Britaniyada məhkəməyə verilməsi əməlli-başlı beynəlxalq qalmaqala çevrilib. Bu, təkcə onun özünün yox, həm də Azərbaycanın imicinə zərbə vuracaq bir hadisədir. Məhkəmənin nə qərar verəcəyinə gəlincə, qarşı tərəfin vəkilinin hazırladığı faktlarla dolu olan iddia ərizəsindən görünür ki, "Hafka" iri məbləğdə cərimələnməkdən yayına bilməyəcək.

Onu da qeyd edək ki, bu "Hafka" ilə əcnəbi futbol klubu arasında yaşanan ilk qalmaqal deyil. H.Məmmədov sponsoru olduğu Fransanın "Lans" komandası ilə də ciddi problemlər yaşayır. Buna səbəb azərbaycanlı oliqarxın "Lans" klubuna vəd etdiyi 18 milyon avronu verməməsidir. H.Məmmədovun vədini yerinə yetirməməsi nəticəsində "Lans" Fransa çempionatında əsas liqaya buraxılmayıb. Fransanın Peşəkar Klublara Nəzarət Komissiyası ağır maliyyə durumunda olan "Lans"ın büdcəsinin müəyyənləşdirilmiş qaydalara uyğun gəlmədiyini əsas gətirərək onu birinci liqaya buraxmayıb. Klub rəhbərliyi isə bu problemi H.Məmmədovun onlara vəd etdiyi 18 milyon avro hesabına həll edəcəyini düşünürmüş. Bu durumdan pəjmürdə olan klubun prezidenti Jerve Martel "Hafka"nı Beynəlxalq Maliyyə Tribunalına verəcəyi ilə hədələyib.

Virtualaz.org saytı isə bir neçə gün əvvəl yazmışdı ki, Fransanın Lans şəhərinin küçələrində H. Məmmədovun şəkli olan yüzlərlə plakat yapışdırılıb. Plakatlarda "Hafiz məni öldürdü" sözləri yazılıbmış.

Plakatların kimlər tərəfindən hazırlandığı və yayıldığı məlum olmasa da, belə görünüb ki, aksiya təşkilatçıları "Hafiz məni öldürdü" sözləri ilə azərbaycanlı oliqarxın "Lans" klubuna vəd etdiyi 18 milyon avro pulu vermədiyinə işarə ediblər.

H.Məmmədovun problemi yalnız əcnəbi futbol klubları ilə deyil. Onun prezidenti olduğu "Bakı" klubunda da ciddi problemlər yaşanır. Neçə aydır ki, işçilər və futbolçular maaş ala bilmirdilər. Klubda vəziyyət üsyan həddinə çatmışdı. H.Məmmədovun "Bakı"nı satışa çıxarması xəbərləri var idi. Son günlər klubdakı narazılıqlar bir qədər səngisə də, mövcud problemlərin köklü şəkildə həll olunmadığı bildirilir.

Bir qədər əvvəl isə "Bank of Azeribaijan" H.Məmmədovun əlindən alınıb və Bankın Müşahidə Şurasının sədrliyindən uzaqlaşdırılıb. "Hafka"nın prezidenti



olduğu "Bağlan Group" şirkətinin vəziyyətinin ağır olduğu və bu şirkətin özünü müflis elan etməyə hazırlaşdığına dair xəbərlər də "Hafka" ilə bağlı yayılan əsas məlumatlar sırasındadır.

Baş verənlər onu göstərir ki, H.Məmmədov son vaxtlar dalbadal sarsıdıcı zərbələr alır və onu qüruba aparan yolda sükanı geri döndərmək imkanları getdikcə tükənir.

Qeyd edək ki, "Hafka" uzun illər nəqliyyat naziri Ziya Məmmədovun ortağı olub. Son vaxtlarda isə onların arasında ciddi problemlərin yarandığı və bizneslərini ayırdıqları bildirilir.

Mövzunu diqqətdə saxlayacağıq.

❑ **Teymur HƏSƏNLİ**

# ABŞ İŞİD-ə qarşı savaşa qoşulmaq üçün Türkiyəyə təzyiqlər edir

## Elxan Şahinoğlu: "Ərdoğan Obamanı çox gözlədə bilməyəcək"

**ABŞ ordusu Yaxın Şərqdə ərəb dövlətlərinin hərbi qüvvələri ilə birlikdə İŞİD mövqelərini bombalamaqda davam edir. Prezident Obama bölgədə yerli xalqlarla əməkdaşlığın davam etdiriləcəyini bildirib. Amerika lideri bildirib ki, İŞİD-ə qarşı mübarizədə Türkiyə, Səudiyyə Ərəbistanı, BƏƏ və İordaniya kimi ölkələrin "addım atmalarına" ehtiyac olduğunu deyib. Sitat: "Onların müdaxilə etməsi lazımdır. Bu onların bölgəsidir, İŞİD onlara bizdən daha çox təhdid yaradır".**

Bu arada məlum oldu ki, Avropa ölkələrinin ardınca ABŞ hökuməti də Türkiyədə olan Amerika vətəndaşlarına xəbərdarlıq edib. ABŞ-ın Türkiyə səfirliyinin yaydığı açıqlamada İŞİD-ə qarşı hava zərbələrinə cavab olaraq Türkiyədəki ABŞ vətəndaşlarına qarşı təhlükə yarana biləcəyi haqda xəbərdarlıq edilir.

Türkiyə hökuməti isə ABŞ-ın təzyiqlərinə baxmayaraq, İŞİD-ə qarşı koalisiyada olmaqla bağlı qəti qərar verməyə tələsmir. Amerikada səfərdə olan Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan koalisiyaya dəstək verəcəklərini bəyan etsə də, bu dəstəyin konkret nədən ibarət olacağı, Türkiyə ordusunun İŞİD-ə hava zərbələri endirib-endirməyəcəyi bəlli deyil. Ancaq o da aydındır ki. girovların azad edilməsindən sonra ABŞ hökumətinin Türkiyəyə təzyiqləri daha da artıb.

**Siyasi şərhçi Elxan Şahinoğlunun fikrincə, Türkiyə hökuməti girovların azad edilməsindən sonra fakt qarşısında qalıb:** "Vaşinqton Türkiyəni İŞİD-ə qarşı beynəlxalq koalisiyaya qoşulmağa dəvət etdikdə Ankara "yox" demişdi. O zaman bunun ciddi səbəbi var idi. Əks halda, İŞİD girovluqda saxladığı 49 türk diplomatını anında qətlə yetirəcəkdi. Girovlar artıq azadlıqdadırlar. Ona görə də artıq Ərdoğan Vaşinqtona "yox" deyə bilmir, İŞİD-lə mübarizəyə qoşulacağını bildirib".

**E.Şahinoğlunun sözlərinə görə, Ərdoğan İŞİD məsələsində tərəddüd içərisindədir. Ancaq ekspertə görə, bu vəziyyət çox da davam edə bilməyəcək:** "ABŞ prezidenti Barak Obama və dövlət katibi Con Kerri Ərdoğanı küncə sıxışdırıb. Hər ikisi Ərdoğandan İŞİD-ə qarşı qəti addımlar tələb edirlər. Məsələn, ABŞ İŞİD-in Suriyadakı bazalarını Səudiyyə Ərəbistanı və Fransa təyyarələri ilə birgə bombaladı. Vaşinqton Ankaradan tələb edə bilər ki, İŞİD mövqelərinə qarşı hava zərbələrinə Türkiyənin hərbi təyyarələri də qoşulsun. Vaşinqtonun Ankaradan digər istəyi ABŞ-ın Adana yaxınlığındakı İncirlik hərbi bazasından istifadəyə icazə verməsidir. Ərdoğan hələ ki ciddi tərəddüd içərisindədir. Türkiyənin prezidenti İŞİD-i terrorçu təşkilat adlandıraraq beynəlxalq koalisiyada yer alacağını vurğulasa da, hələ ki nə İŞİD-ə qarşı hava zərbələrinə, nə də ki İncirlikdən istifadəyə razılıq verib. Ancaq Ərdoğan Obamanı çox gözlədə bilməyəcək".



**Ancaq E.Şahinoğlunun fikrincə, Türkiyə İŞİD-ə qarşı mübarizədə aktiv fazada iştirak etməyə tələsməyəcək. Bunun isə bir neçə səbəbi var:** "Birincisi, onsuz da Suriyadakı müharibə Türkiyəyə əlavə yükdür. İŞİD hücumlarından və Suriyadakı vətəndaş müharibəsindən Türkiyəyə qaçanların sayı bir azdan 2 milyona yaxınlaşacaq və bu problemin həllində Ankara heç kimdən, o cümlədən ABŞ-dan real kömək ala bilmir. Belə bir durumda Türkiyənin İŞİD-ə qarşı hücumlara başlaması qaçqın axınını bir az daha artıra bilər. İkincisi, hələ ki Türkiyənin indiki hökuməti ilə İŞİD arasında birbaşa toqquşmalar olmayıb. İŞİD-in 49 türk diplomatı azad etməsi də Ankaraya ünvanlanan bir jest idi. Halbuki indiyə qədər İŞİD hansısa girovu sağ buraxmayıb, ortada kəsilən yüzlərlə baş var. Ancaq əgər Türkiyə İŞİD-ə qarşı aktiv hücumlarda iştiraka qərar verərsə, Ankara terrorçuların əks həmlələrinə, o cümlədən terror aksiyalarına da hazır olmalıdır. İŞİD-in Türkiyədə rəğbətçiləri az deyil. Həm də Türkiyə İŞİD-ə qarşı savaşa başlasa inanmıram ki, bir də bu terror qruplaşması girov götürdüyü hansısa Türkiyə vətəndaşını sərbəst buraxsın".

**Ancaq risklərə baxmayaraq, Türkiyə İŞİD-ə qarşı əməliyyatlara qoşulacaq. E.Şahinoğlu deyir ki, regionun güclü dövləti olaraq Türkiyənin böyük hərbi-siyasi prosesdən kənarda qalması mümkün deyil:** "Göründüyü kimi, İŞİD-ə qarşı savaşda iştirak Türkiyəyə bəlli risklər yaradır. Ancaq Türkiyə kimi regional liderliyə iddialı olan dövlət bu prosesdən kənarda da qala bilməz. İŞİD Avrasiyanın baş bəlasına, xərçənginə çevrilib. Demək, bu xəstəlik Türkiyə üçün də təhlükəlidir. Digər tərəfdən, ABŞ və müttəfiqləri İŞİD-ə qarşı savaşarkən, Türkiyənin seyrçi mövqedə qalması gələcəkdə Ankaranın bölgədəki rolunu xeyli zəiflədə bilər. Ərdoğan isə əksinə, özünün və Türkiyənin bölgədəki rolunu yüksəkdə görür. Demək, buna uyğun da qərarlar verməlidir".

❑ **KƏNAN**

# 1977-ci ildə “doğulan” sovet əfsanəsi

## Ayxan Salmanov: “Bu ”Moskviç"i ideal vəziyyətə salmaq üçün üzərində 4-5 il çalışdıq"









**Sovet əfsanələrindən olan “Zaporojest”, “Moskviç”, “Çayka”, “Pobeda” avtomobilləri təkcə keçmiş SSRİ məkanında deyil, bütün dünyada məşhur idi. Hazırda da bütün MDB ölkələri kimi Azərbaycanda da köhnə sovet əfsanəsi olan avtomobillər gözə dəyir. Artıq bu “qocalmış” avtomobillər hansısa rəhbər şəxsi deyil, toy mərasimlərinə tələsən bəy və gəlinləri daşıyır. Son vaxtlar avtomobil həvəskarları bu qoca sovet maşınlarını alıb, onu yenidən işlək vəziyyətə salıb sürməklə özlərini xöşbəxt hiss edirlər.**

Xüsusən də Azərbaycanda bu cür köhnə avtomobil həvəskarlarına tez-tez rast gəlinir. Biz də təsadüf nəticəsində 1977-ci il istehsalı olan “Moskviç 2140" modelinə rast gəldik. Bu cür qocaman maşınların artıq az sayda qaldığını nəzərə alaraq maşının sahibini tapıb, onunla maşının tarixçəsi, haradan aldığı barədə söhbət etmək qərarına gəldik. İstəyimizə müvəffəq olduq. Bu avtomobilin sahibləri Aleksandr Serqeyeviç Volkov və Ayxan Salmanov adında iki gənc dostdur. Onların 1977-ci il istehsalı olan ”Moskviç"i klassik avtomobillərdən çox fərqlənirdi. Dostlar yaşıl rəngdə olan, salonu fərqli dizaynda quraşdırılmış bu sovet əfsanəsini bu hala gətirmək üçün 5 ilə yaxın vaxt sərf etdiklərini və maşının bütün hissələrini müasir standartlara cavab verən formada yığdıqlarını dedilər: “Bu maşın 1977-ci ilin dekabrında istehsal olunub. Maşının markası ”Moskviç 2140"dır. Maşın dostumun idi. Onun babası uzun illər bu maşını sürüb. Biz maşını alanda demək olar ki, heç nəyə yaramırdı və tam tullantı vəziyyətində idi. Dostumdan maşını atmamağı və bizə satmasını xahiş etdim. O da razılaşdı və biz 200 dollara bu maşını aldıq. Maşını ideal vəziyyətə salmaq üçün isə 4-5 il üzərində çalışdıq".

**A.Volkov deyir ki, onlar “Moskviç”dən əvvəl də bir neçə 1950-1970-ci illərə aid sovet maşınlarını bu cür təmir edib, işlək hala gətirib satıblar:** “Biz bu ”Moskviç"i alanda bunun sadəcə olaraq üstü və təkərləri vardı, başqa heç nəyi yox idi. Biz bu maşının karobkasını “QAZ 24"ün karobkası ilə əvəz etdik. Həmçinin təkərləri də dəyişdik. Salonu yığıb 1982-ci ilin dekoru etdik. Rol da 1982-ci ilə aiddir. Çalışmışıq ki, maşının qədimliyini saxlayaq”.

**Bu qoca “Moskviç”in salonunun dizaynı doğrudan da insanı keçmişə aparır. Maşının üzərində Almaniya nömrəsi var. Bu nömrəni haradan əldə etdiklərini soruşduqda A.Salmanov maşın nömrələri kolleksiyası yığdığını və onda müxtəlif ölkələrə məxsus maşın nömrələri olduğunu bildirdi:** “Məndə almaniyanın, Texasın, Rusiyanın, Ukraynanın maşın nömrələri var. Keçmişə aid müxtəlif ölkələrə məxsus maşın nömrələri yığıram və bunun həvəskarıyam. Biz indi bu maşını Almaniya nömrəsi ilə satmışıq. Həmçinin əlimizdə hazırda 1989-cu il istehsalı olan beş motorlu ”Mercedes Benz S 500 long" markalı avtomobil var. 1989-cu il istehsalı olan beş motorlu avtomobil Azərbaycanda bir dənədir, o da bizdədir. Bu maşının da karobkasını yenidən yığmışam və şəhərdə rahat şəkildə sürürəm. Bu maşını satmaq fikrimiz yoxdur".

**A.Volkov “Moskviç”i köhnə avtomobillərin kolleksiyasını yığan bir şəxsə 1200 dollara satdıqlarını dedi:** “Maşının satılması üçün saytlara xüsusi elan verməmişdik. Sadəcə olaraq, maşının üzərinə telefon nömrəsi qeyd edib ”Satılır" yazmışdıq. Avtomobil kolleksiyaçısı da buradan keçərkən görüb və almaq qərarına gəlib".

**“Moskviç”in üzərində illərlə işləyib, əziyyət çəkdikdən sonra onu satmağın onlar üçün çətin olub-olmadığını soruşduqda isə A.Salmanov bu maşınları istəməsələr də satmaq məcburiyyətində olduqlarını bildirdi:** “Bu maşınlar olduqca qocadır. Bizim maşın saxlamaq üçün qarajımız və ya qapalı şəraitimiz yoxdur. Çöldə də qalanda yağış, qar pis vəziyyətə salır, çürüdür. Əlimizdə belə məhv olub getməkdənsə, onu saxlayacaq şəraiti olan adama satmaq daha məqsədəuyğundur”.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

### Təbrik



**Nuşirəvan müəllimin nəvəsi Riyad dünyaya gəlib. Riyad bəyi bu münasibətlə Baxışovlar ailəsi ürəkdən təbrik edir, ona uzun ömür, cansağlığı arzulayırlar.**

*Nə yaxsı ki, sən varsan*
*Öz bağımın bəhrəsisən*
*Sən babanın ürəyisən*
*Arzususan, diləyisən.*
***
*Nə yaxsı ki, sən varsan*
*Varlığına sevinirəm*
*Mən səninlə öyünürəm*
*Sən güləndə, mən gülürəm .*
***
*Nə yaxsı ki, sən varsan*
*Həm qanımsan, həm canımsan*
*Həm dövlətim, həm varımsan.*
*Şan-söhrətim, vüqarımsan*

**Nə yaxsı ki, sən varsan**
**Sən güləndə üzümüzə**
**Sevinirik bilsən necə**
**Dua edirik, gündüz-gecə.**
***
**Nə yaxsı ki, sən varsan**
**Atan qoyub adın Riyad**
**Xoşbəxt yaşa, arzuna çat**
**Üzün gülsün, ürəyin şad.**
***
**Nə yaxsı ki, sən varsan**
**Baban yazdı şeir sənə**
**Ağrın alım dönə-dönə**
**Təkrar edib deyir yenə**
**Nə yaxsı ki, sən varsan**
**Nə yaxsı ki ,sən varsan!**


## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com “doktor Vaiz Səmədov”.**


### Başsağlığı

**Müsavat Partiyası Binəqədi rayon təşkilatının fəal üzvü Yavər Mirzəyevə anası Mapı Şahverdiyevanın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34






YENİ MÜSAVAT
N 240 (5949) 26 sentyabr 2014




# Şəhidlərin qəbirlərini təhqir edən şəxslə bağlı müəmma

**2014-cü il avqustun 21-dən 22-nə keçən gecə naməlum şəxslər tərəfindən Şəhidlər Xiyabanında İlham və Fərizə Allahverdiyevlərin qəbirləri üzərində təhqiredici hərəkətlərə yol verilmişdi. Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlandı.**

Polis əməkdaşları tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində cinayəti törədən şəxs sentyabrın 24-də səhər saatlarında, Şəhidlər Xiyabanında növbəti dəfə təhqiredici hərəkətlərə yol verərkən yaxalanıb və istintaqa təhvil verilib.

Araşdırmalarla müəyyən edilib ki, bu, 1963-cü ildə Bakı şəhərində anadan olmuş, heç bir yerdə işləməyən, əvvəllər məhkum olunmuş, Xəzər rayonunun Albalı bağlar massivində yaşayan Nüsrət Qasımovdur.

Faktla bağlı istintaq davam etdirilir.

Həmin şəxsin kimliyi açıqlandıqdan sonra İlham Allahverdiyevin qardaşı Elxan Allahverdiyevlə əlaqə saxladıq. N.Qasımovla bağlı hansısa informasiyaya sahib olub-olmadıqları ilə maraqlandıq.

**"Mənə bu səhər "20 Yanvar" cəmiyyətindən Soltan zəng vurub bildirdi ki, filankəsi tutublar" - deyən, E.Allahverdiyev o adda insan tanımadığını söylədi:** "Bu xəbərdən sonra Bakı Şəhər Baş Polis İdarəsi ilə əlaqə saxladım. Bir müddət keçəndən sonra Zaur adında müstəntiq zəng vurub bildirdi ki, tələsməyin, araşdırma işləri davam edir, sizə xəbər verəcəyik. Deyirlər guya ruhi xəstədir. Özüm bu hadisədən sonra elə depressiyadayam ki, nəsə deyə, danışa bilmirəm. Axı bunu necə etmək olar?! Ölünü təhqir etmək olmaz axı..."

**E.Allahverdiyevin yaxın dostu, tanınmış şair Qulu Ağsəsin də hadisə ilə bağlı fikirlərini öyrəndik:** "Hadisə törədiləndən bir neçə gün əvvəl BMM-də bir qrup adam yığışaraq İlham və Fərizənin adına "Sevgi günü" təsis edilməsi ilə bağlı ölkə prezidentinə müraciət etmişdik. Məhz "Sevgi günü", çünki sevgi daha böyük anlayışdır. Bundan sonra o hadisə oldu. Elxanla danışanda dedim ki, mənə elə gəlir bu hadisəni törədən ruhi xəstə olsa da hadisənin sifarişçisi var. O sifarişçi tapılmalıdır. İstəməzdim ki, bu cinayət işi həmin şəxsin tapılması ilə yekunlaşsın. Bilirsiniz, həm də bizim cəmiyyətdə qəbri təhqir etmək kimi bir ənənə yoxdur. Zatən əvvəldən hesab edirdim ki, bunu ruhi problemləri olan şəxs edə bilər. Ölkəmizdə demək olar hər gün oğurluq hadisəsi baş verir. Amma bunu qəbiristanlıqdan etmirlər. Çünki insanlarımızda o dünya qorxusu var. Şəhidlər Xiyabanı ilə bağlı isə qorxu hissi yoxdur. Ora ocaq, pir anlamına gəlir. Odur ki, mənə elə gəlir bu insan xəstə olsa da bunu özbaşına edə bilməzdi. Bu işin pərdəarxası da var".



**Qulu Ağsəs:**
"Mənə elə gəlir bu hadisəni törədən ruhi xəstə olsa da hadisənin sifarişçisi var"



**Elnur Rüstəmov:**
"Adətən ciddi psixoloji travma alan insanlar zaman keçdikcə bu cür hərəkətlərə yol verirlər"



**Nurəddin Xoca:**
"Həqiqətən o adam hadisəni törədən şəxsdirsə, mütləq asılmalıdır"

**DİN-in açıqladığı informasiyalara əsasən məsələnin psixoloji aspektlərinə şərh verən psixoloq Elnur Rüstəmov isə bunları bildirdi:** "Əgər yenidən bunu etməyə cəhd edibsə, bu artıq adamın konkret psixoloji probleminin olduğunun göstəricisidir. Adətən manyak təfəkkürlü insanlar eyni hərəkəti təkrarən görmək istəyirlər. Düşünürəm ki, onu öncə psixiatrik müayinə etmək lazımdı. Ola bilər ki, o insanın cəmiyyətə, eləcə də insanlara başqa vurmuş olduğu ziyanlar da olsun. Bütün hallarda cəmiyyət üçün təhlükəli insan hesab edilə bilər. Adətən ciddi psixoloji travma alan insanlar zaman keçdikcə bu cür hərəkətlərə yol verirlər. Daha çox uğursuz sevgi, yaxud ailə həyatı yaşadığı ehtimalını irəli sürmək olar. Yenə də deyirəm, ilkin ehtimal kimi. Bütün hallarda dəqiqləşdirmə aparmaq lazımdır. Manyak düşüncəli insanlar təkrar cinayət etdikləri yerə gəlirlər. Kriminalistlər bunu yaxşı bilir".

**Qarabağ döyüşçüsü, "Boz Qurd batalyonu"nun komandiri Nurəddin Xocanın fikirlərinə görə isə bu xəbər məntiqlə uyğunlaşmır:** "Ağlıma batmır. "Vişnyovka"da yaşayan birinə nə düşüb ki, durub, gəlib qəbri təhqir etsin. O da ola bilər ki, "radi qalıçka" bu kişini tutublar. Çünki beyinə batan xəbər deyil. İnformasiyada göstərirlər ki, özü də türmədə yatıb çıxıb. Türmədə olan insan gözəl bilir ki, şəhid nə deməkdir, onun qəbrini təhqir etmək nə deməkdir. Yox, həqiqətən o adam hadisəni törədən şəxsdirsə, mütləq asılmalıdır".

❑ Fəridə ABDIYEVA

# Jirinovski Bakıya nəyə gəlib?

## LDPR lideri Bayraq meydanına gedəcək, Şəhidlər Xiyabanında olacaq, rusdilli məktəblərə baş çəkəcək; **Akif Nağı:** "Təlxəklik edəcəksə..."

**Rusiya Liberal-Demokrat Partiyasının sədri, Dövlət Dumasının üzvü Vladimir Jirinovski sentyabrın 25-də Azərbaycana gəlib. Azərbaycanın Rusiyadakı səfirliyindəki mənbə virtualaz.org saytına deyib ki, LDPR liderinin uçduğu təyyarə sentyabrın 25-də saat 15:00 radələrində Bakı aeroportuna enib.**

Öz qalmaqallı çıxışları ilə tanınan rusiyalı siyasətçinin Bakı səfərinin proqramı bəlli deyil. Qeyd edək ki, Jirinovskinin Bakı səfəri ətrafında neçə vaxt idi müxtəlif fikirlər dolaşırdı. Bəzi KİV-lər gah öz diplomatik mənbələrinə, gah da LDPR liderinin yaxın ətrafına istinadən belə xəbərlər yaymışdılar ki, Jirinovski Bakı səfərini təxirə salıb, ümumiyyətlə, Azərbaycana gəlməyə hazırlaşmır. Amma Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu rusiyalı siyasətçinin gözlənilən Bakı səfəri ətrafındakı şübhə haləsini dağıtmışdı. Səfir demişdi ki, Jirinovski Azərbaycana Milli Məclisin xətti ilə dəvət olunub və o, Bakıya mütləq gələcək.

**Jirinovskinin Milli Məclis sədrinin dəvəti ilə Bakıya gəlməsi xəbərini parlamentin mətbuat katibi Akif Təvəkküloğlu təsdiqləyib. A.Təvəkküloğlu modern.az-a deyib ki, LDPR lideri səfər zamanı Milli Məclisin sədri Oqtay Əsədovla da görüşəcək. A.Təvəkküloğlunun sözlərinə görə, Jirinovskinin bir çox yerlərdə görüşü gözlənilir:** "Təbii ki, görüşdə iki ölkə arasında dostluq qruplarının üzvləri də iştirak edəcək. Jirinovski Bayraq meydanına gedəcək, Fəxri Xiyabanda, Şəhidlər Xiyabanında olacaq. Onun rusdilli məktəblərə baş çəkəcəyi də gözlənilir".



Vladimir Jirinovski



Akif Nağı

Qeyd edək ki, V.Jirinovskinin Azərbaycana gələcəyi təqdirdə həbs olunacağı xəbəri də yayılmışdı. Belə ki, Ukrayna baş Prokurorluğu V.Jirinovskinin Azərbaycan səfəri ərəfəsində barəsində başlanmış cinayət işinin qovluğunu beynəlxalq polis təşkilatı olan İnterpola göndərərək barəsində həbsli axtarış elan olunmasını istəmişdi. Hələlik İnterpolun saytında rusiyalı siyasətçinin axtarışı haqda məlumat yoxdur.

V.Jirinovskinin ölkəmizə səfərinə qarşı olanlar sırasında deputat Fazil Mustafa, YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov və Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı da vardı.

**LDPR liderinin Bakıya gəlməsi ilə bağlı QAT sədrinə müraciət etdik. A.Nağı V.Jirinovskini təlxək adlandırdı:** "Jirinovski səviyyəsizdir, Azərbaycanda ona qeyri-ciddi biri, təlxək kimi baxırlar. Dövlət üçün dost-düşmən yoxdur, daimi maraqlar var. Biz bunu başa düşürük. Amma istəməzdim ki, Azərbaycan belə bir təlxəkdən istifadə etsin, belə bir təlxəyin əli ilə hansısa məqsədlərinə çatsın".

**A.Nağı V.Jirinovskinin səfərini diqqətlə izlədiklərini bildirib:** "Biz bu xəbər çıxanda QAT-ın İdarə Heyətində qərar qəbul etdik ki, Jirinovski Bakıda diqqətlə izlənilsin. Onun görüş keçirdiyi yerlərə gedib barəsindəki fikirlərimiz birbaşa özünə çatdırılsın. Düzdür, bu bir qədər çətindir. Onun hansı marşrutlar üzrə hərəkət edəcəyini bilmirik".

**A.Nağı V.Jirinovskinin Bakıya səfərinin yarıgizli olmasına diqqət çəkdi:** "3-4 gün əvvəl onun mətbuat xidməti məlumat yaydı ki, Azərbaycana gəlməyəcək. Amma belə məlum olur ki, sentyabrın 25-də Bakıya gəlib. Bu səfər ona görə gizli şəkildədir ki, təlxək Jirinovski dediklərinin başına bəla olacağını anlayır".

**QAT sədri Azərbaycan dövlətinin maraqlarının hər bir məsələdən üstün olduğunu qeyd edərək V.Jirinovskinin Bakıda özünü necə aparmasından asılı olaraq müəyyən tədbirlər planlaşdırdıqlarını da açıqladı:** "Əgər burada əvvəllər olduğu kimi, təlxəklik edəcəksə, hədyanlar söyləyəcəksə, bizi qarşısında görəcək".

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 240 (5949) 26 sentyabr 2014




**Cümə söhbətləri**

**Bismillәhir-Rahmәnir-Rahim! Rәhim vә Rәhman Allah insanın ruhi naqislikdәn qurtulması, mәnәvi kamilliyә çatması üçün xüsusi vasitәlәr qәrar vermişdir. Bunların arasında xüsusi mәkanlar, xüsusi zamanlar, şәraitlәr dә vardır. Mәsәlәn, insan müәyyәn zamanlarda namaz qılır, oruc tutur - nәticәdә çox özünәmәxsus bir ruhi tәrәqqi әldә etmiş olur. Şәfaәt dilәmә, tәvәssül etmә, ziyarәt, hәcc - bunların hamısının çox böyük bir hikmәti vardır.**

# Zilhiccә - gözәl әmәllәri sevdirәn ay



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçәrişәhәr Cümә mәscidinin imam-camaatı

## Mübarәk izdivacın tarixi

Zilhiccә ayı mәhz belә mәqamlarla kifayәt qәdәr zәngindir. Elә ayın әvvәli - zilhiccәnin 1-i mübarәk bir tarixdir - hicrәtin 2-ci ilindә Hәzrәti Әli (ә) ilә Xanım Fatimәnin (s.ә) izdivacı bu gündә baş vermişdir. Hamımızın qәdrini bilmәli olduğu bir gündür bu. Niyә? Çünki hәmin gün yaşayış tәrzinin, ailә qurulmasının, ailә üzvlәrinin bir-birinә münasibәtinin, qarşılıqlı hörmәtin dәqiq islami modelidir. Bu günü qeyd etmәk, bu günün duyğuları ilә yaşamaq çox önәmlidir. Çünki insan bu günә müәyyәn münasibәt tәzahür etdirdikdә istәr-istәmәz özünü, hәyat tәrzini, ailә münasibәtlәrini, hәyat yoldaşına, uşaqlara qayğını bu ideala uyğunlaşdırmağa çalışır. Yәni әgәr insan üçün ailә, insanlara münasibәt, yaşayış tәrzi, ümumilikdә dәyәr baxımından Hәzrәt Әli (ә) ilә Xanım Fatimә (s.ә) simvoldursa, bir nümunәdirsә, demәk, onların ailә qurduqları gün dә bu insan üçün әlamәtdar bir tarixdir. Özü dә elә bir tarix ki, real tәrәqqi üçün bir impuls rolunu oynamış olsun.

Bu gün oruc tutmaq çox tövsiyә olunan әmәllәrdәndir. İslami mәnbәyә görә, hәtta ilk 9 günü tutulan oruca görә Müteal Allah insana bir ömür tutulan orucun savabını әta edir. Elәcә dә bu 9 günün hәr birinin özünәmәxsus zikrlәri vardır. Әslindә bütün bunlar, insanın daima Allah dәrgahında olmasının fәrqinә varması üçün bir ilahi lütflәrdir.

## Zilhiccә ayının orucu

Zilhiccә ayının orucu ilә әlaqәdar tәkcә onu qeyd etmәk kifayәtdir ki, «Tәrviyә günü» adlanan 8-ci günün orucunun 60 illik kәffarәni aradan aparmaq qәdәr fәzilәti vardır. 9-cu günә - Әrәfә gününә keçәn gecә, 170 ilin ibadәtinin savabını verәn, tövbәlәrin qәbul olunduğu, duaların müstәcәb olduğu gecәlәrdәndir. Әrәfә gününün özünә gәldikdә isә, bu günün fәzilәtlәri o qәdәr böyükdür ki, hәtta onu bayram kimi qeyd edirlәr. Әrәfә günü ibadәtә, itaәtә dәvәt, ruhun pәrvazı günüdür, Allahın ehsan günü, iblisin xar, hәqir olan, qovulan günüdür.

Әrәfә günündә İmam Hüseyni (ә) ziyarәt edә bilәn insan, 1000 hәcc, 1000 ümrә, 1000 cihadın savabını apara bilәr. Hәmin gün tövsiyә olunan әmәllәrdәn biri dә әsr namazından sonra, "Әrәfә" duasını oxumazdan öncә 2 rükәt namaz qılmaqdır ki, bunu qılan vә günahlarını etiraf edәrәk mәğfirәt dilәyәn insan Әrәfat savabına malik olar vә günahları bağışlanar.

Hәr gün axşam çağı xüsusi bir namazın qılınması mәslәhәt bilinir. Şam vә xiftәn namazları arasında qılınan bu 2 rükәtli namaz, hәr rükәtin "Fatihә" vә "İxlas" surәlәrindәn sonra Quranı-Kәrimin "Әraf" surәsinin 142-ci ayәsinin tilavәti ilә sәciyyәlәnir. İmam Sadiqdәn (ә) nәql edilәn mübarәk hәdisdә bildirilir ki, Zilhiccә ayının ilk ongünlüyündә bu namazı tәrk etmәyәn insan, hacıların yerinә yetirdiyi hәcc әmәlinin savabına şәrik olur.

Zilhiccә ayının ilk 9 günündә xeyir әmәllәr yerinә yetirmәyin üstünlüklәri barәdә dinimizdә çoxlu tövsiyәlәr mövcuddur. Әlbәttә ki, insan bütün il boyu xeyir әmәllәrә can atmalıdır, lakin bu günlәrdә gözәl әmәllәrin xüsusilә sevilmәsi, insanı hәmin әmәllәrә daha da hәvәslәndirir, insan gözәl işlәrә daha da sövq edilir.

Zilhiccә ayında әn әlamәtdar tarix kimi, ayın 10-da müqәddәs Qurban bayramının - mәnәvi hәcc sәfәrinin şah zirvәsini sinvolizә edәn günün vә zilhiccә ayının 18-dә Qәdir-Xum bayramının - Hәzrәt Әlinin (ә) Allah Rәsulu Hәzrәt Muhәmmәdin (s) canişini vә vәsisi elan edilәn günün qeyd edilmәsi çox vacibdir. Qәdir-Xum bayramı - dinin kamil surәtdә qәrar verilmәsinin rәmzi olaraq çox әhәmiyyәtlidir.

## Zilhiccә ayının gündәlik duası

Zilhiccә ayının әhәmiyyәtini tam surәtdә açıqlamaq üçün dinimizin gözәl dua töhfәlәri vardır. İmam Cәfәr Sadiqdәn (ә) nәql edilәn zilhiccә ayına aid gündәlik duaya diqqәt yetirәk. Bu duanın hәr bir mәqamı insanın kamillәşmә arzusuna sanki bir cavabdır. Öncә bu günlәrin әhәmiyyәtliliyi çatdırılır: «Allahım! Bu, bir günlәrdir ki, Sәn o bir günlәrdәn daha fәzilәtli vә daha şәrәfli qәrar vermisәn».

«Sәn Öz lütf vә mәrhәmәtinlә, mәnә bunu dәrk etmәyi nәsib etmisәn» - bu, bir İlahi lütfdür ki, insan bu günlәrin әhәmiyyәtini anlayıb, onlardan bәhrәlәnә bilsin. «Bәs (onda) nazil et mәnә bu günlәrin bәrәkәtini. Vә bu günlәrә aid nemәtlәrdәn mәnә bolluca nәsib et!».

Sonra dua edәn bәndә, çağırışını mübarәk salamlarla bәrәkәtlәndirir: «Allahım, Sәndәn istәyim budur ki, Hәzrәt Peyğәmbәrә (s) vә onun Әhli-beytinә (ә) salamı çatdırasan».

**Sonra duada düzgün seçimdә yardım dilәnir:** «Allahım! Sәndәn istәyim budur ki, bu günlәrdә hidayәt yoluna, iffәt yoluna, insanlardan ehtiyacsızlıq yoluna düşmәyi mәnә nәsib edәsәn. Vә o әmәllәrә yönәldәsәn mәni ki, bu әmәllәrә nisbәtdә Sәndә sevgi var vә Sәn bu әmәllәrdәn razısan».

**Duanın növbәti mәrhәlәsindә bәndә Rәbbinә tәrәf öz gizli vücudi istәklәrini yönәldir:** «Allahım! Sәn ey, bütün şikayәtlәrin yönәlik ünvanı! Ey, bütün daxili sirlәri bilәn vә eşidәn bir Kәs! Ey, bütün varlıqların Şahidi! Ey, bütün gizlinlәri Bilәn! Hәqiqәtәn Sәndәn dilәyirәm, Sәndәn istәyimiz budur ki, Peyğәmbәr (s) vә Әhli-beytinә (ә) salam göndәr vә bütün bәlaları mәndәn bu günlәrdә uzaq et! Vә bu günlәrdә mәnim dualarımı müstәcәb et! Bu günlәrdә mәni qüvvәtlәndir! Bu günlәrdә o şeylәri mәnә inayәt göstәr vә tofiq әta et ki, onları sevirsәn, onlarda razılığın var! Sәnә itaәt etmәk tofiqini, Sәnin Rәsuluna (s), Sәnin Mәsumlarına (ә), onların pak naiblәrinә itaәt etmәk tofiqini istәyirәm Sәndәn, ey Allah!».

**Dua edәn mübarәk günlәrin xeyir-bәrәkәtinin ona hәdiyyә olunmasını istәyir:** «Allahım! Ey, rәhimlilәrin Әn Rәhimlisi! Mәn hәqiqәtәn Sәndәn istәyirәm ki, Peyğәmbәr (s) vә onun Әhli-beytinә (ә) salam göndәr! Bu günlәrdә mәnә riza vә tәslim mәqamını hәdiyyә et! Sәn hәqiqәtәn duaları eşidәnsәn! Bu günlәrdә asimandan nazil etdiyin xeyirlәrdәn mәni mәhrum etmә! Allahım, mәni günahlardan pak qәrar ver!».

**Sonra yenә Allahın sevimli-seçilmiş bәndәlәrinә salam göndәrmәklә dua zinәtlәndirilir vә vacib olan mәsәlәlәr istәnilir:** «Ey, qeyblәri bilәn! Mәnә әbәdi cәnnәti vacib et! Salam göndәr Peyğәmbәrә (s) vә onun Әhli-beytinә (ә)! Bu günlәrdә mәni o günahı etmәyә nәsib etmә ki, onu bağışlamayacaqsan! Mәnә o qәmi nәsib etmә ki, ondan nicat yoxdur! Mәnә o borcu nәsib etmә ki, onu ödәyә bilmәyim! Mәnә o itkini nәsib etmә ki, onu geri qaytara bilmәyim! Mәnә o dünya vә axirәt ehtiyacını nәsib etmә ki, onlar yüngül vә hәll edilәsi olmasın! Hәqiqәtәn, ey Allah, Sәn hәr bir şeyә qadirsәn, hәr bir şey Sәnin hökmündәdir».

**Allahını tanıyan bәndәnin müraciәtidir bu:** «Ey, gizlinlәri bilәn Allah! Ey, göz yaşı axıdanların rәhm edәni! Ey, duaları müstәcәb edәn! Ey, göylәrin vә yerlәrin Rәbbi! Ey, o Kәs ki, sәslәr onun yanında sәhv salınmaz! Salam göndәr Peyğәmbәrә (s) vә onun Әhli-beytinә (ә)! Sәndәn dilәyirәm bu günlәrdә mәni oddan azad olunmuşlardan, cәhәnnәm odundan xilas olunmuşlardan qәrar verәsәn! Vә bizlәrә bu günlәrdә Sәnin cәnnәtinә yiyәlәnmәyi nәsib edәsәn! Öz rәhmәtinlә bizi nicat tapmışlardan qәrar verәsәn! Sәni and verirәm rәhmәtinә, ey rәhmәtlilәrin әn Rәhmәtlisi! Allahın salamı olsun ağamız Muhәmmәd peyğәmbәrә (s) vә onun bütün Әhli-beytinә (ә)!»

İmamlarımız (ә) bu dualar vasitәsilә bizә özümüzü tanımağı, Rәbbimizi tanımağı vә Yaradana olan müraciәtin mәrifәtini çatdırırlar. Mübarәk Zilhiccә ayının digәr gözәl әmәllәri dә vardır ki, dua kitablarında müfәssәl şәkildә zikr olunmuşdur. Allah Tәala bütün insanları dua әhlindәn qәrar versin vә yalnız Ona tapınanlar sırasına daxil etsin!

## Dua vasitәsilә zilhiccә ilә tanışlıq

Yuxarıda göstәrilmiş duanın zilhiccә ayını tanıma baxımından, maarifçilik nöqteyi-nәzәrindәn, sözsüz ki, misli-bәrabәri yoxdur. Bu dua 9 gün, hәr sübh namazından sonra vә mәğrib (şam) namazından әvvәl oxunur. Duanın mahiyyәtindә olan mәnәvi yük o dәrәcәdә zәngindir ki, onun ayrı-ayrı mәqamlarında xüsusi vurğular etmәyә әlavә ehtiyac duyulur.

İlk öncә duadan bәlli olur ki, Rәbbimiz tәrәfindәn bu günlәr - ilin digәr günlәrindәn daha fәzilәtli vә daha şәrәfәtli qәrar verilmişdir. Müqәddimәdә gәlәn bu anlam, bütövlükdә zilhiccә ayının ilk ongünlüyünün fövqәl әhәmiyyәtini qavramağa yardım edir.

«Allahım! Öz lütfünlә vә rәhmәtinlә mәnә bu günlәri dәrk etmәyi nәsib etmisәn» - deyә dua edir şükürlü bәndә. Bәs nәlәri istәmәli, nәlәri dilәmәlidir o insan ki, bu günlәrin bәrәkәtini dәrk etmişdir? «Elә isә bizә bu günlәrin xüsusi bәrәkәtlәrini nәsib et, İlahi» - deyә çağırır bәndә. Bәs nәdir bu әn böyük nemәt? «Sәnin salamın olsun İlahi, Hәzrәt Peyğәmbәrә (s) vә onun Әhli-beytinә» - deyilir burada.

Bu salam - elә-belә salam deyil. Әvvәla, salamın cavabı vacibdir. Demәk, Allah Rәsuluna (s) salam göndәrәn insan, mütlәq o Hәzrәtdәn (s) cavab almaq şәrәfinә nail olacaq. İkincisi, bu müqәddәs insanlara salam göndәrmәk, onların dәyәrlәrinә «bәli» demәk, onların amalları ilә hәmahәng olmaq demәkdir ki, bu, dua edәn bәndәni gözlәyәn çox böyük, hәtta misilsiz mәnәvi bir sәrvәtdәn xәbәr verir. Bәs nә var bu günlәrdә ki, insan onlara can atmalıdır? Duada bizә öyrәdilir: «Allahım! Bizlәrә hidayәt, iffәt, insanlara ehtiyaclı olmamağı nәsib et. Bu yola bizi hidayәt et! Bizә o әmәllәri sevdir ki, onlarda Sәnin razılığın var!».

Necә dә gözәl müraciәtlәr var bu duada! Allah Tәalanın kimliyi tanıdılır möminә. «Ey, bütün şikayәtlәrin ünvanı, ey bütün gizli sirlәri eşidәn! Ey, bütün varlıq alәminin şahidi! Ey, bütün gizlinlәrә elmi olan!» - deyә xitab edir Rәbbinә duanı oxuyan bәndә. Yaradanına mәrifәtli surәtdә, tanıyaraq xitab etdikdәn sonra, bәndә yenә dua edir: «Bu günlәrdә bizlәrdәn bәlanı dәf et, bizlәrdәn duaları qәbul et! Bizi bu günlәrdә qüvvәtlәndir! Bizә yardımçı ol, imdad ver! Xüsusi tofiqatını nәsib et!».

Nәdir bu günlәrin xüsusi tofiqatı? Mәhz riza mәqamı - Allahın razılığı olduğu işlәrә daxili mәhәbbәt vә istәk. «Allahım! Özünә, Peyğәmbәrinә, vilayәt sahiblәrinә itaәti ki, vacib buyurmusan, bizә qismәt et ki, bu vücudi itaәti, ardıcıllığı yerinә yetirә bilәk!» - deyә dilәyir müxlis bәndә. Mәhz burada var sәadәtin açarı - kamalın ardınca getmәk durumuna sahib olmaqda. «Sәn hәqiqәtәn duaları eşidәnsәn! Bizlәrә Sәnin razılığın olduğun duruma gәlmәk üçün mәnәvi halәt ver!» - tәkrarәn çağırır bәndә, - «Bizi bu günlәrdә nazil etdiyin xeyirlәrdәn mәhrum etmә! Bizi günahlardan pak et! Ey, qeyblәri bilәn Allah! Әbәdi behişti bizә aid et bu günlәrdә».

İmam Cәfәr Sadiqdәn (ә) gәlәn bu mübarәk duanın davamında bәndә Allahdan istәyir ki, bağışlanmaz günah etmәyә ona imkan vermәsin, aradan aparılmayan qәmin gәlmәsinә yol vermәsin, ödәnә bilinmәyәn borc ona yetişmәsin. Dünya vә axirәtdә asudәlik vә asanlıq istәyir bәndә Rәbbindәn.

"Sәn - yaşla dolu gözlәrә mәrhәmәt edәnsәn, duaları cavablandıransan. Sәn - yerlәrin vә göylәrin Rәbbisәn! Sәn - hәr kәsin sәsini tanıyansan» - yenә dә Allah Tәalanın kimliyini tanıtdırır insana İmam (ә) dua vasitәsilә. «Bәs elә isә Peyğәmbәr (ә) vә Әhli-beytinә (ә) salam göndәr» - deyә münacat edir bәndә Rәbbinә. Cәhәnnәm atәşindәn qurtuluş vә azadlıq istәyir bәndә: «Bizi bu günlәrdә oddan, cәhәnnәm atәşindәn azad olanlardan, cәnnәtә çatmışlardan vә rәhmәtinlә nicat tapmışlardan qәrar ver, ey, mәrhәmәtlilәrin Әn Mәrhәmәtlisi!».

**Allahım! Sәn Özün bu duada olan mübarәkliyi cәmi bәndәlәrinә şamil et! Ümmәti Hәzrәt Peyğәmbәr (s) vә Әhli-beytinin (ә) yolunda sabitqәdәm qәrar ver! Öz Höccәtin olan 12-ci İmam Hәzrәt Mehdi Sahib-әz-Zamanın (ә.f.) müqәddәs zühurunu tәcili et! Amin!**

YENİ MÜSAVAT
N 240 (5949) 26 sentyabr 2014

# Həbsdəki məşhur teleaparıcı evində işləyən ustaları necə aldadıb?

## Ustaların pulunu verməyən İlham Mirzəyev onları şərləməklə hədələyib

**Sentyabrın 30-da, saat 11:00-da Nərimanov Rayon Məhkəməsində "Space" telekanalının "Etiraf" verilişinin aparıcısı, dələduzluq ittihamı ilə həbs olunan İlham Mirzəyevin işi üzrə məhkəmə davam etdiriləcək. İ.Mirzəyevin hüquqlarını vəkillər Xanlar Bayramzadə və İkram Abdullayev müdafiə edir.**

Redaksiyamıza işdə adı zərərçəkən kimi keçən şəxslərdən biri olan Aynur Əhmədovanın məktubu və iş üzrə tərtib olunan ittiham aktı daxil olub. A.Əhmədova məktubunda İ.Mirzəyevin vergi cinayətlərinin araşdırılmamış qaldığını, talama cinayəti üzrə ona ittiham elan edilmədiyini yazıb. O, teleaparıcının məhkəmə qarşısına yüngül maddələrlə çıxarılmasına diqqət çəkərək bildirir ki, işə baxan hakimlə İlham Mirzəyevin çox yaxşı münasibətləri var və buna qədər də bu hakim teleaparıcının iddiası əsasında qəzetlərə qarşı qərar qəbul edib. Zərərçəkənin redaksiyamıza təqdim etdiyi ittiham aktında yer alan epizodları oxuduqca teleaparıcının qəbuluna gedən və əli hər yerdən üzülmüş, övlad həsrətində olan insanların pullarını necə mənimsəməsi sadəcə ikrah doğurur.

İttiham aktından aydın olur ki, 10 aprel 2014-cü ildə DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi İ.Mirzəyevi saxlamasaydı, o, bu gün də sahibi olduğu falçılıq klinikasında iş başında olacaqdı. Efirdən söylədiyi yalanlarına uyanlar qapısını kəsdirib ondan min bir dərdlərinə əlac umacaq, son qəpiklərini verib nəticə gözləyəcəkdilər.

Həmin gün məlum əməliyyatın keçirilməsinə əsas verən müraciəti hazırda işdə adı zərərçəkən kimi keçən A.Əhmədova edib. İstintaqçılar məsələni araşdırıblar və belə bir ittiham aktı tərtib ediblər. İttiham aktında adı keçən zərərçəkənlərin ad-soyadlarını etik səbəblərdən yazmırıq. Baş prokurorun 1-ci müavini Rüstəm Usubovun təsdiqlədiyi ittiham aktından seçmələri təqdim edirik:

***(əvvəli ötən sayımızda)***

**Xəstələrin cibindən ustaların cibinə uzanan əllər**

Cinayət işi üzrə şahid və zərərçəkən şəxs qismində dindirilən Rəşad Daşdəmirov ifadəsində göstərib ki, təxminən 2012-ci ilin mart ayında aqlay ustası işləyən tanışı Vidadi Abidov ona teleaparıcı İlham Mirzəyevin evində aqlay işi görmək lazım olduğunu deyib və bununla bağlı briqada yığdığını söyləyib. Onunla birlikdə İlham Mirzəyevin Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, 2-ci Yavər Əliyev küçəsi 34 ünvanında yerləşən evinə gediblər. İşin görülməsi məsələsini V.Abidov özü İlham Mirzəyevlə danışıb və onlar İlham Mirzəyevin evinin bayır tərəfinin aqlay işlərini bir kvadratmetrini 8 manatdan görməyə başlayıblar. Lakin İ. Mirzəyevlə V.Abidovun arasında mübahisə yarandığından sonradan o, işi ataraq çıxıb gedib. R.Daşdəmirov isə digər ustalarla qalıb işləyərək İ. Mirzəyevin evinin bayır tərəfinin aqlayını vurub qurtarıb. Gördükləri işin pulunu İ. Mirzəyev verib, aralarında heç bir narazılıq yaranmayıb, əksinə, mehriban şəkildə ayrılıblar.

2012-ci ilin may ayında İ. Mirzəyev ona zəng vurub danışaraq həyətində aqlay daşından döşəmə işini gördürmək istədiyini bildirib onu evinə dəvət edib ki, görüşüb söhbət etsinlər. O, özü ilə bir yerdə usta işləyən qohumu İbadət Piriyevlə İlham Mirzəyevin evinə gedib. İlham Mirzəyev bildirib ki, həyətinə aqlay daşı döşətdirmək, həmçinin həyətdəki "besedka"nı aqlay daşı ilə



üzlətdirmək, həyətində kababxana tikdirmək və onu da aqlay daşı ilə üzlətdirmək istəyir. İlham Mirzəyev təklif edib ki, istifadə olunacaq aqlay daşını o, alıb işlətsin, digər materialları isə özü alacaq. Aqlay daşını ustaların alıb gətirməsi şərti ilə döşəmənin bir kvadratmetrini 25 manatdan İlham Mirzəyevlə danışıb razılaşıblar. Belə ki, 1 kvadratmetr üçün ödəniləcək 25 manat pula işlənəcək aqlay materialının pulu, usta pulu və aqlay vurulacaq yerin betonlanıb möhkəmləndirilməsi, yəni "styaşka" işləri pulu daxil olub. İlham Mirzəyev onunla danışıb razılığa gələrkən deyib ki, narahat olmasın, o, hissə-hissə aqlay materialı alıb işi görməyə başlasın, pulun bir hissəsini iş görüldüyü müddətdə ona verəcək ki, lazım olan qalan aqlayı da ala bilsin, işi tam görüb qurtardıqda isə hesablayacaqlar, neçə kvadratmetr alqay daşı döşəsə, pulunun hamısını işin sonunda verəcək. İlham Mirzəyev görüləcək işin pulunu axırda tam şəkildə ödəyəcəyini dedikdə, onun sözünə inanıb və dediyi şərtlə razılaşıb. İlham Mirzəyevlə aqlay işini görmək barədə, qiymət haqda yaşadığı evin həyətindəki "besedka"da oturub danışarkən yanında qohumu İbadət olub və o bu söhbətin canlı şahidi olub. 2012-ci ilin may ayından etibarən qohumları İbadət, Xəqani və Hafiz Piriyev qardaşları ilə birlikdə İlham Mirzəyevin Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, 2-ci Yavər Əliyev küçəsi 34 ünvanında yerləşən həyətində işləməyə başlayıb, 2012-ci ilin sentyabr ayının əvvəllərində orta məktəblərdə dərslər başlanana kimi onlar İlham Mirzəyevin həyətində görməli olduqları işi tam başa çatdırıblar.

**"Narahat olma, yaxın vaxtlarda sənin pulunu verəcəyəm"**

İşin sonunda görülən işlərə görə İlham Mirzəyev tərəfindən verilən pulları hesabladıqda məlum olub ki, aqlay materiallarının və zəhmət haqqı daxil olmaqla gördükləri işin ümumi məbləği 17 min manat edib, həmin puldan 12 min manatını İlham Mirzəyev iş görülən müddətdə hissə-hissə ödəyib, ona əlavə olaraq 5 min manat verməlidir. İlham Mirzəyev bidirib ki, "hazırda mənim imkanım yoxdur, lakin bir həftə müddətində 5 min manatı düzəlib sənə verəcəyəm. O, inandığı üçün razılaşıb. Bunun üstündən bir həftə keçmiş, İlham Mirzəyevdən xəbər çıxmadığını görüb telefonuna zəng vurub ona verməli olduğu 5 min manat pulla maraqlanıb. İlham Mirzəyev bildirib ki, hazırda imkanı yoxdur, lakin yaxın vaxtda pulu düzəldib özü ona zəng vuracaq. Bir müddət sonra yenidən İlham Mirzəyevə zəng vurub, lakin o, telefonu açmayıb. O, məcburiyyət qarşısında qalaraq pulunu almaqdan ötrü İlham Mirzəyevin evinə gedib, həyət qapısından qapı zəngini çalmış, ona evdən İlham Mirzəyevin azyaşlı oğlu cavab verib ki, atası evdə yoxdur, çəkilişə gedib, nə vaxt qayıdacağını da bilmir. Bu minvalla o, iki ay müddətində bir neçə dəfə İlham Mirzəyevlə görüşmək üçün həmin evə gedib, həyət qapısından qapı zəngini basıb İlham Mirzəyevi soruşub, ona evdən İlham Mirzəyevin oğlu, gah İlham Mirzəyevin anası, gah da evində işləyən qulluqçusu cavab veriblər ki, İlham Mirzəyev evdə yoxdur, nə vaxt gələcəyini də bilmirlər. Əvvəllər İlham Mirzəyev onun telefon zənglərinə cavab verib, hər dəfə deyib ki, "narahat olma, yaxın vaxtlarda sənin pulunu verəcəyəm".

**"Mənə 5 min manat verməlisən"**

İlham hər dəfə bir bəhanə gətirib, gah deyib ki, "rayondayam, gələcəyəm", gah da deyib ki, "çəkilişdəyəm". Bir dəfə isə zəng vurarkən İlham Mirzəyev telefonu açıb onunla danışıb və səhəri günü onu evinə dəvət edib ki, "gələrsən, söhbət edərik". O, səhəri gün xatırlamadığı tarixdə İlham Mirzəyevin evinə gəlib qapı zəngini basıb, zəngə İlham Mirzəyev özü cavab verib, təxminən bir saata kimi onu qapıda gözlədib, daha sonra gəlib qapını açaraq onu həyətə buraxıb. İlham Mirzəyev əsəbi halda ondan soruşub ki, "niyə gəlmisən?" O cavab verib ki, "puluma görə gəlmişəm, gördüyüm işə görə sən mənə 5 min manat verməlisən".

**"Sənə pul düşmür"**

İlham Mirzəyev isə ona bildirib ki, "əslində sənə heç bir pul düşmür, gördüyün iş keyfiyyətsizdir". O soruşub ki, "hansı işim keyfiyyətsiz çıxıb, mənə göstərə bilərsənmi?" İlham Mirzəyev bundan sonra həyətin döşəməsinə vurulan aqlayın birləşmə yerlərini, aqlayda olan xırda nöqtələri, sonradan islifadə olunub sınan hissələri göstərərək bildirib ki, "işi keyfiyyətsiz görmüsünüz, buna görə də sənə pul düşmür". O, İlham Mirzəyevə bildirib ki, "mən həmin işləri 3 ay bundan əvvəl görmüşəm, həmin vaxt vardısa, mənə bildirəydin. Lakin razıyam, gəlib 2 gün işləyib göstərdiyin nöqsanları da aradan qaldıraram".

**"İstəyirsən lap Daxili İşlər Nazirliyinin özünə de..."**

Lakin İlham Mirzəyev bəhanə gətirib ki, "hazırda mənim həyətimdə yaşayış var, buna görə də sənin işləməyinə ehtiyac yoxdur". Başa düşüb ki, İlham Mirzəyev pulunu vermək istəmir və bildirib ki, "gedib 13-cü polis bölməsinə şikayət edəcəyəm". İlham Mirzəyev də deyib ki, "hara istəyirsən, get, şikayətini ver. İstəyirsən lap Daxili İşlər Nazirliyinin özünə de, mənə kim nə edəcək? Sən bilirsənmi ki, mən Azərbaycanı barmağımda fırladıram, mənə kim nə edə bilər ki, sən nə edəsən?" Bunu deyib, İlham Mirzəyev evindən adını bilmədiyi mühafizəçisini çağırıb ona göstəriş verib ki, onu həyətdən çıxarsın. Adını bilmədiyi mühafizəçi qolundan tutub onu həyət darvazasından küçəyə çıxarıb. O, İlham Mirzəyevin hədəsindən qorxaraq fikirləşib ki, ona gücü çatan deyil, İlham Mirzəyev ona pislik edər. Hətta bir dəfə İlham Mirzəyev yanında işləmiş qohumu Hafiz Piriyevə zəng vurub deyib ki, "Rəşada de ki, mənim yanıma gəlməsin, yoxsa onu şərləyib tutduracağam".

*(davamı növbəti sayımızda)*

**E.MƏMMƏDƏLİYEV**



# Kürdəxanıda dəhşətli qətl: əmisi oğlunu baltaladı

**Sabunçu rayon sakini əmisinin oğlunu baltalayıb. APA TV-nin məlumatına görə, hadisə Kürdəxanı qəsəbəsində baş verib. Bir müddət əvvəl həbsdən çıxan 41 yaşlı Əliağa Dostməmmədov əmisinin evinə elçi göndərərək onun qızı ilə evlənmək istəyib. Lakin qızı ona verməyiblər. Bundan sonra qohumlar arasında mübahisə düşüb.**

Qızın qardaşı, 31 yaşlı Əlisamit Zeynalov gecə vaxtı Məşədi Adil küçəsində yaşayan Əliağanın evinə gələrək pəncərədən içəri daxil olub. Əlisamit yatmış vəziyyətdə olan əmisi oğluna balta ilə bir neçə zərbə endirərək gəldiyi yolla da evi tərk edib. Əliağanın səsinə oyanan ailə üzvləri onu xəstəxanaya çatdırıblar. Həkimlərin səyinə baxmayaraq, Əliağa Dostməmmədovun həyatını xilas etmək mümkün olmayıb. Əlisamit Zeynalov hadisəni törətməkdə şübhəli bilinərək polis tərəfindən saxlanılıb. Faktla əlaqədar Cinayət Məcəlləsinin qəsdən adam öldürmə maddəsi ilə cinayət işi başlanıb.

# Bakıda çay evində kütləvi dava: yaralılar var

**Bakı şəhərinin Suraxanı rayonunda çay evində kütləvi dava olub. Lent.az-ın məlumatına görə, Bülbülə qəsəbəsində yerləşən çay evində 1988-ci il təvəllüdlü Musayev Ülvi Əlimirzə oğlu və onun həmyaşıdı Heydərov Zaur Bəxtiyar oğlu bıçaqlanıb.**

Hər iki şəxs bədəninin müxtəlif nahiyələrindən aldıqları dəxilə nüfuz etmiş kəsilmiş-deşilmiş xəsarətlərlə xəstəxanaya yerləşdirilib.

Bildirilir ki, gənclər çay evində bir qrup şəxslə baş vermiş münaqişə zamanı bıçaqlanıblar. Hazırda hadisəni törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi istiqamətində iş aparılır.

YENİ MÜSAVAT

# Son səhifə

N 240 (5949) 26 sentyabr 2014

# Hitlerin nəsli kəsilir...

Adolf Hitlerin Amerikanın Nyu-York şəhərində yaşayan qardaşı uşaqları ilginc qərar veriblər. Onlar əsla dünyaya uşaq gətirməyəcəklərini bəyan etməklə nəsillərinin kəsildiyini deyiblər. Almaniyanın "Bild" qəzeti xəbər verir ki, Long İslandda yaşayan Brayn (42 yaş) və Luis Styuard Hyuston (62 yaş) qardaşları ilə danışıb açıqlama almağa nail olub. Adolf Hitlerin ögey qardaşı (atası Aloisin ikinci nikahından dünyaya gələn oğlu) Alois Cunior daha öncə bu soy ağacını davam etdirirmiş. Amma Brayn və Luis Styuartın "uşaq istəmirik" qərarından sonra nəslin kökü kəsiləcək. Qardaşlar bu qərarı emosiya ilə yox, məntiqlə verdiklərini deyib. Onlar Hitler nəslinin davam etməsini istəmədiklərini bildirib.





## Sağ qalmaq üçün bir həftə tısbağa yedi

Meksikanın Acapulco şəhərində qayığı batan meksikalı sağ qalmaq üçün bol-bol qağayı və tısbağa yeyib. Qayığın batmasına isə şiddətli fırtına səbəb olub. Onu fırtınadan düz 1 həftə sonra xilas edə biliblər. Qayığın kapitanı Roberto Odis Vazques mediaya açıqlamasında deyib ki, "balıqçı dənizdə olduğu 1 həftə boyu ovladığı qağayıları yerə atmaq istəmir, əlində daşıyırdı. Bu mənzərəyə görə göz yaşımızı saxlaya bilmədik".

Balıqçı Rodrigez bir həftə sonra tapılanda bədən temperaturu olduqca aşağı olub. Bu səbəbdən də onu yerli dəniz xəstəxanasında müalicə olunmağa aparıblar.

## Kriminal xəbərlər qadınlara ziyandır

Qəzetlərdə cinayət xəbərlərini oxuyandan sonra qadınlarda stress hormonu artır. Kanadalı alimlərin araşdırmasına görə, bu cür xəbərlərə kişilərdən fərqli olaraq qadınlar daha həssas reaksiya verir. Araşdırma çərçivəsində alimlər qəza və cinayətlə bağlı üzücü xəbərlərlə yanaşı, hər hansı emosional reaksiya doğurmayan xəbərləri də seçib. Qadın və kişilərdən ibarət təcrübə "obyektləri" hər iki növdən olan 24 xəbəri 10 dəqiqə ərzində oxuyub. Stress testinə salınan bu şəxslərin tüpürcək nümunələrindəki xortizol səviyyəsi ölçülüb. Məlum olub ki, mənfi yüklü xəbərləri oxuyan qadınlarda daha çox stres hormonu yaranır. Eyni durum kişilər üçün keçərli deyil. Çünki onların əhvalı belə xəbərlərdən sonra dəyişmir.

## Bu qızın dünyaya gəlişini 101 il gözləyiblər

İngiltərədə yaşayan Silverton ailəsində 1913-cü ildən bu yana ilk dəfə bir qız uşağı dünyaya gəlib. Bu ilginc ailədə 101 ildir ki, ancaq oğlan uşaqları doğulurdu. Alimlər bunu sadəcə 10 mində 1 olan ehtimal kimi qiymətləndirib. Ailənin ən sonuncu qızı dünyaya gələndə İngiltərə taxtında Kral 6 George oturdu, ölkədə qadınların səsvermə hüququ yox idi və hələ 1-ci Dünya müharibəsi baş verməmişdi.

Bu tarix bir əsr sonra qırılıb və ailə 101 il sonra ilk qız övladına qovuşub. Ceremi Silverton (43 yaş) və həyat yoldaşı Daniyel Andrus (36) qızları Poppini dünyaya gətirməklə ölkədə günün mövzusuna çevriliblər.

Ceremi Silverston deyib ki, anasına bir qız nəvəsi olacağı xəbərini verəndə öncə buna inanmayıb, sonra isə sevincindən ağlayıb.





## O qədər suşi yedi ki, bədənini qurdlar bürüdü

Çində suşi yeməyini çox sevən bir adam bu arzusu ucbatından qorxunc xəstəliyə tutulub. Yediyi suşi - yeni tamamilə çiy balıqdan hazırlanmış qida nəticəsində adamın bütün bədənini qurdlar bürüyüb. Çinli adam bitib tükənməz qarın ağrısı və cildindəki qaşıntı ucbatından həkimə gedəndə isə qorxunc həqiqətlə üzləşib. Qurdlar adamın bədənini rəsmən dəlmə-deşik edərək, bütün orqanları bürüyüb. Həkimlər bildirib ki, adam normadan artıq suşi yediyi üçün hər yerini parazitlər bürüyüb. Belə ki, bişirilməmiş ətlər parazitlərə yol aça bilsə də, belə vəziyyət o qədər də alışılmış deyil. Mütəxəssislərə görə, narahatlıq artarsa, parazitlər adamın beyninə keçə bilər ki, bu halda da onun sağ qalma ehtimalı yoxdur.




QOÇ - Ulduzların düzümü şəxsi büdcənizi artırmaq üçün gözəl şanslar qazanacağınızı bəyan edir. Ələlxüsus da saat 14-17 arası əməli-başlı varlana bilərsiniz. Odur ki, boş dayanmayın.

BUĞA - Bugünkü təqvim gərginlik səpsə də, əsas enerjinizi fəaliyyətə həsr etməklə hər hansı xoşagəlməzliyi dəf edə bilərsiniz. Nahardan sonra maraqlı görüşlərdə iştirakınız mümkündür.

ƏKİZLƏR - Kənardan dəstək olmasa, riskli addımlar atmayın. Ən azı ona görə ki, bu mülayim gündə təkbaşına hansısa uğura yiyələnməyəcəksiniz. Həmkarlarınızla mübahisəyə meyl etməyin.

XƏRÇƏNG - Ən böyük rahatlığı məhəbbət amilindən duya bilərsiniz. Çünki sevgi ilahəsi bu gün başınız üstündə pərvaz edəcək. Xətrə dəyən sözlərdən, qarğış və söyüşdən uzaq olun.

ŞİR - Nəzərdə tutduğunuz ideyaların reallaşmasına mane olmaq istəyənlər artmaqdadır. Bunun qarşısını almaq üçün görəcəyiniz işləri məxfi saxlamalısınız. Bu gün uzaq yola çıxmaq sizə rahatlıq gətirəcək.

QIZ - Maddi durumunuz ürəyiniz istəyən həddə çatmasa da, aktivliyinizi qətiyyən azaltmamalısınız. Nə qədər əzmkar olsanız, Ulu Yaradan əməyinizin hədər getməsinə yol verməyəcək. Axşam qonaq gedin.

TƏRƏZİ - Göy qübbəsi bu gün sizə elə bir şans verəcək ki, belə bir şans ildə bir dəfə ələ düşür. Qətiyyən başısoyuqluq etməyin, bütün gücünüzlə hərəkətə keçin. Lazım gəlsə, məsləhətləşmələrə də gedin.

ƏQRƏB - Dünən olduğu kimi bugünkü təqvim də sizə kifayət qədər rahatlıq bəxş edəcək. Ürəyinizə yaxın olan, lakin az qala unutduğunuz adamlarla görüşün ki, Allaha da xoş getsin. Spirtli içkidən uzaq olun.

OXATAN - Sizə aidiyyəti olmayan situasiyalara müdaxilə etməyin. Əks təqdirdə, çoxlarının rəqibinə çevriləcəksiniz. Yalnız öz işinizlə məşğul olun. Saat 15-dən sonra varlanma ehtimalınız var.

OĞLAQ - Əlinizin aşağı olmasından heyfslənməyin. Çünki bürcünüzdə zaman-zaman belə hallar olur və çox qısa zamanı əhatə edir. Əsas diqqətinizi qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönəldin.

SUTÖKƏN - Əgər sağlıq durumunuz imkan vermirsə, fiziki işləri təxirə salın. Yoxsa bunun ağrısını çəkəcəksiniz. Yaxşı olar ki, günün əsas hissəsini məhəbbət amilinə həsr edəsiniz.

BALIQLAR - Bacardığınız qədər günah işlərdən uzaq olun, dünyadan getmişlərinizin qəbirlərini, müqəddəs yerləri ziyarət edin. Bu gün maddi durumunuzda uğurlar da mümkündür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Türklər namus, xaricilər savada görə qız seçir



İngiltərədə yerləşən York Universitetinin alimləri 10 ölkədə maraqlı araşdırma aparıb. Araşdırmanın nəticələrinə görə, qadın və kişilərin evlənəcəyi insanda hansı xüsusiyyətləri axtarması müəyyənləşib. Belə ki, qadınlarla kişilərin bərabərhüquqlu olduğu ölkələrdə hər iki tərəf evlənəcəyi insanda təhsil və ağıl faktoruna önəm verir. Qadın və kişi arasındakı uçurumun geniş olduğu ölkələrdə isə kişilər evlənəcəkləri qızın namuslu olması və yaxşı yemək bişirməsinə xüsusi önəm verir. Məsələn, Türkiyədə kişilər ailə quracağı qızda üç əsas cəhətə önəm verir: bəkarət, xarici görünüş və ev işlərində bacarıqlı olmaları. Türk qadınları isə evlənəcəyi kişidə təhsil, ağıl, əzm, sosial status axtarır.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.600